**XƏDİCƏ HEYDƏROVA**

# HEYDƏR ƏLİYEVİN SİYASİ DİLİNİN LÜĞƏTİ

*Lüğət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuşdur*

**"Elm və təhsil"**
**Bakı- 2023**

*Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 22 sentyabr 2023-cu il tarixli iclasının (9 №-li protokolu) qərarı ilə çap olunmuşdur.*

Redaktor və ön sözün müəllifi: **Nadir Məmmədli**
*filologiya elmləri doktoru, professor*

Rəyçilər: **Sayalı Sadıqova**
*filologiya elmləri doktoru, professor*

**İsmayıl Məmmədli**
*filologiya elmləri doktoru, professor*

**Xədicə Heydərova.** Heydər Əliyevin siyasi dilinin lüğəti. Bakı: "Elm və təhsil", 2023, 272 səh.

*Lüğət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə həsr olunmuşdur. Bu leksikoqrafik əsərə ölkəmizin tarixi xilaskarı olmuş Ulu Öndərin dilində işlənən siyasi politologiya elminə, diplomatiyaya və ölkədə mövcud müharibə ilə bağlı hərbiyə aid terminlər, sazişlərin adları, siyasi təşkilatların qısaltmaları və eyni zamanda xüsusi isimlər daxildir.*

**ISBN 9 7 8 - 9 9 5 2 - 5 6 8 - 8 9 - 9**

© AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2023

# ÖN SÖZ

Lüğətdə Heydər Əliyevin elektron sənədlər toplusuna daxil olan, 1969-cu ildən başlayaraq, çıxışlarındakı linqvistik konseptuallaşmanın nüvə xüsusiyyətlərini, özəyini, ideoloji təfəkkürə təsir edən, siyasi-mədəni həyat konseptlərini formalaşdıran anlayışları, terminoloji vahidlərin izahı verilmişdir. Azərbaycan leksikoqrafiyası üçün uğurlu təşəbbüs hesab olunan, spesifik xüsusiyyətlərə malik bu vəsaitin lüğət məqalələrinin əsasını Ulu Öndərin ictimai-siyasi tarixlə yüklənmiş abstrakt-konseptual leksikonu, hissi obrazları, diferensial bilikləri və məntiqi təşkil edir. Lüğətin materialları Heydər Əliyevin siyasi-ideoloji təfəkkürünün ifadə üsuludur, ölkənin tarixi yaddaşının bütün yükünü özündə daşıyır.

Lüğətdə verilən materiallar – ideyalar sistemi hüquqi, siyasi, estetik və s. formaları, həm də dərketmə, nəzəri nitq, bilik və şüurun sosial aspekti-

dir. Bir daha aydın olur ki, Ulu Öndərin ümumi biliyinin əsas konstruksiyası, mexanizm – dil siyasəti fərdidir, sosial idrakın digər formaları kimi ideoloji funksiyaya malikdir. Heydər Əliyevin təcrübələrindən qidalanan siyasi, istərsə də hərbi terminologiyası Azərbaycan dilinin nitq prosesini tənzimləyir, təsviri praktik vəzifələrə istiqamətlənir, hətta, lüğətin materiallarından göründüyü kimi, bəzən onun məntiqinin izahını vermək mümkün olmur, çünki çoxpilləli versiyalara malikdir. *Güc, hakimiyyət* və *siyasət* anlayışları onun nitqində daha çox terminoloji mənada işlənir, ideoloji doqma, ehkam kimi assosiasiya edilir.

Ulu Öndərin siyasi-ideoloji terminləri həm məntiqi arqumentlərə, həm də sosiolinqvistik təsvir üsullarına əsaslanır, nitqinin təsir mexanizmi diskursiv şəkildə tam formalaşıb, yəni söz müəyyən bir mətn mühitində zəruri konseptual məna daşıyır, nitqində sözlər auditoriyada semantik dəyişikliyə məruz qala və ya fikirlərini müşayiət edəcək ciddi, məntiqi anlayış yarada bilir. Nitq prosesində nüvə strukturu və onu təşkil edən anlamların hansı istiqamətlər üzrə qruplaşması və obrazlılıq səviyyəsi, eləcə də şüurda yaratdığı mənzərə fərdidir, yalnız H.Əliyevə məxsus reallığın subyektiv konseptuallaşmasının nəticəsidir. Bu, həm də dilimizin ontoloji modelidir, obrazlılıq, ifadəlilik kimi

mental anlamları, fərdi dəyərləri şüurda təcəssüm etdirir və kommunikativ funksiya yerinə yetirir. Lüğətdən görünür ki, Ulu Öndərin gerçəkliyə aid fikir və düşüncələri siyasi diskurslara təsir göstərə, koqnitiv və emosional strukturları aktuallaşdıra bilir.

Heydər Əliyevin dilində ideoloji-diplomatik diskursun da zəngin söz və ifadələri vardır, ictimai-siyasi həyata yönəlmiş mətnlər nitqi üçün xarakterikdir: motiv şüurda kommunikativ informasiyanın məcmusudur. Belə ideoloji anlayışları doktrina səviyyəsindədir və siyasi mahiyyət ifadə edir, ideoloji məna daşıyır, müxtəlif dərəcəli mənəvi-etik idealların, qaydaların həssas nümunəsi kimi emosional yük və leksik realizasiyalar kəmiyyəti ilə fərqlənir.

Ümummilli Lider Azərbaycanda milli siyasi-ideoloji dilin yaradıcısıdır, lüğətdən aydın olur ki, siyasi anlayışların inkişaf dinamikasında onun müstəsna rolu vardır. Siyasi anlayışları universal kommunikativ moduslara əsaslanır – dövlətçilik ideologiyasını dəstəkləyir, sosial dəyərləri formalaşdırır, fikirlərini əsaslandırmaq üçün siyasi ünsiyyəti ekstralinqvistik motivasiyalarla əlaqələndirir. Lüğətin praqmatikasının əsası maddələrində müvafiq ideologiyaya münasibət bildirməsi, siyasi, diplomatik, hərbi və s. mənaları əks etdirən peşə-

kar siyasi nitqlərin müəyyən ümumi bir kod əsasında, simvolik vasitələr kompleksində tərtib olunmasıdır. Praqmatik zəncir, verilmiş ardıcıllıq, ünvanlanan hədəf siyasi məqalələrin qavranılmasına kömək edir və linqvopsixoloji cəhət modelləşir, norma xarakteri alır: nitq subyekti şüur subyekti olur, siyasi dilçilik normaları ictimai əhəmiyyət daşıyır. Anlayışların spesifikliyi müvafiq linqvomədəniyyətdə qəbul edilmiş ənənələrlə, tarixən möhkəmlənmiş dəyər meyilləri ilə müəyyən edilir, onların cəmi dünyanın milli dil şəkli ilə bilavasitə bağlı olan konkret dilin konseptosferini, xalqın tarixini, dünyagörüşünü yaradır.

Xədicə Heydərova lüğətdə Heydər Əliyevin milli dil dünyagörüşünün real amillərini cəmləyə bilmişdir, bu, onun mövzunu dərindən bilməyi və yüksək siyasi mədəniyyətinin göstəricisidir. Tərtibçi lüğət maddələri və izahlara milli dəyərlərin xarakterik xüsusiyyətləri, cəmiyyətin, fərdin, kollektiv şüurun universal bazası, siyasi-ideoloji təfəkkürün yaratdığı obrazlılıq, bilik, bacarıq və təcrübənin ifadəsi, hadisələrə müxtəlifyönümlü yanaşma tərzi, dil vahidlərinin öz leksik məzmunundan daha geniş əhatə dairəsinə malik olması kimi baxır. Qazanılmış bilik və təcrübələrin şüurda müəyyən mənzərənin yaranmasında termin, söz, ideyanı özündə cəmləşdirən ifadələr, gerçəkliyin qavranıl-

ması üçün mücərrəd anlayışları oxucuya çatdırır. Müəllifin bu həssas mövzuya diqqətlə yanaşması və izahları leksikoqrafik bacarığının, biliyinin uğurudur.

Müstəqil Azərbaycanın siyasi xadimi, memarı, təkrarolunmaz dövlət xadimi, dövlətçilik ideoloqu Heydər Əliyevin nitq materialları əsasında tərtib olunmuş siyasət, diplomatiya ilə bağlı termin və söz birləşmələrinin izahlı lüğəti koqnitiv semantika, diskurs nəzəriyyəsi, siyasi və ideoloji dilçilik kimi interdissiplinar sahələrin mütəxəssisləri üçün olduqca faydalı vəsaitdir.

**Nadir Məmmədli,**
*filologiya elmləri doktoru, professor*

## MÜƏLLİFDƏN

Təqdim edilən lüğət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə həsr olunmuşdur. Leksikoqrafiya sahəsində dövlət xadiminin dilinə həsr olunmuş lüğət, demək olar ki, ilk dəfədir həyata keçirilir. Belə bir leksikoqrafik əsəri yaratmağa bizi ruhlandıran Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" oldu. Lüğətə Heydər Əliyevin ictimaiyyət qarşısındakı çıxışlarında, siyasi xadimlərlə görüşlərində və müsahibələrində istifadə etdiyi siyasətlə bağlı leksikasını daxil etmişik.

Ulu Öndərimiz bütün ömrünü öz xalqına həsr etmişdir: əvvəl sovet dövründə respublikanın quruculuğu ilə məşğul olmaqla iqtisadiyyatı, kənd təsərrüfatını, təhsili, infrastrukturu dirçəltmiş, daha sonralar 90-cı illərdə ölkənin çətin dönəmlərində, siyasi-iqtisadi böhran yaşayan, vətəndaş müharibəsi içində olan dövlətimizi parçalanmaqdan qurtarmış, Qarabağ münaqişəsindəki uduzma prosesini dondurmuş və ölkə iqtisadiyyatını dirçəltməklə bu müharibədə qələbə çalmağımız üçün zəminlər

planı hazırlamışdır. Həmin uzaqgörən siyasətin nəticəsidir ki, onun həm övladı, həm də siyasi varisi olan ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin başçılığı altında 35 il sonra – 2020-ci ildə nəhayət ki, işğal olunmuş torpaqlarımız qısa bir zamanda – 44 gün ərzində geri qaytarıldı. 2023-cü il sentyabrın 20-də isə Ali Baş Komandan 24 saat ərzində lokal antiterror tədbirləri həyata keçirərək Ermənistan Silahlı Qüvvələrinin Qarabağdakı tör-töküntülərinin məhv edilməsinə və separatçıların ağ bayraq qaldırmasına nail oldu. Xankəndidə Azərbaycan bayrağını ucaldan Prezidentimiz düzgün, ağıllı siyasəti və tədbirləri ilə tarixə şanlı imza atdı.

Xalqımız bəlkə də Qarabağla bağlı bütün ümidlərini itirmişdi, amma bu gün biz Heydər Əliyevin çıxışlarını oxuyarkən, onun əvvəl 1993-cü ildəki andiçmə mərasimində Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün əlindən gələni əsirgəməyəcəyi ilə bağlı and içməsi və sonrakı çıxışlarında torpaqlarımızı geri alacağımız haqqında tədbirlər planının hazırlanması ilə bağlı dəfələrlə söylənən inamlı sözlərinin məntiqi nəticəsini Ulu Öndərin yetişdirdiyi və doğru şəkildə istiqamətləndirdiyi layiqli övladı Cənab İlham Əliyevin əməli işlərində görə bilirik.

Heydər Əliyev kimi bir tarixi şəxsiyyətin dilini öyrənmək və təbliğ etmək biz dilçilərin əsas vəzifələrindən biri olmalıdır. Ona görə də bir elmi yenilik kimi təqdim etdiyimiz dövlət xadiminin dilinə həsr olunmuş

bu lüğət Heydər Əliyevin siyasi baxışlarını, leksikasını əks etdirmək nöqteyi-nəzərindən çox maraqlıdır və burada terminoloji leksikadan əlavə, Ulu Öndərin nitq və çıxışlarında adlarını çəkdiyi siyasi xadimlər haqqında məlumatların, tarixi-coğrafi adların, hadisə və predmetlərin şərhinin verilməsi tarixi baxımdan olduqca əhəmiyyətlidir.

Mənbə olaraq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Heydər Əliyev, Elektron sənədlər toplusu"na daxil olan 1969-82, 1989-93, 1993, 1994, 1995, 2000, 2003-cü illər üzrə toplanmış Heydər Əliyevin nitqləri, çıxışları, məruzələri, müsahibələri və bəyanatlarından istifadə olunmuşdur.

Lüğətə Ümummilli Liderin dilində işlənən politologiya elminə, diplomatiyaya və ölkədə mövcud müharibə ilə bağlı hərbiyə aid terminlər, sazişlərin, siyasi təşkilatların adları və qısaltmaları, eyni zamanda antroponimlər, toponomlər daxil edilmişdir. Yaratdığımız bu əsər Azərbaycan dövlətçiliyinin xilaskarı olan Heydər Əliyevin bütün fəaliyyəti dövründə istifadə etdiyi siyasi leksikasını, təbii ki, tam əhatə etməyə bilər. Lakin, ümidvarıq, bu, leksikoqrafiyada ilk təcrübə olduğuna görə bəyəniləcəkdir, Ulu Öndərin siyasi dili ilə, ümumən isə tarix və siyasətlə maraqlananlar üçün isə masaüstü kitaba çevriləcəkdir.

**Xədicə Heydərova**

*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## LÜĞƏTİN QURULUŞU

"Heydər Əliyevin siyasi dilinin lüğəti"nin tərtibatında aşağıdakı prinsiplər tətbiq edilmişdir:

1. Lüğətin sözlüyünə Ulu Öndərin dilində işlənən politologiya elminə, diplomatiyaya və ölkədə mövcud müharibə ilə bağlı hərbiyə aid terminlər, siyasi təşkilatların qısaltmaları və eyni zamanda antroponimlər, toponimlər daxil edilmişdir. **Politologiya** elminə aid terminlər Ulu Öndərin sovet dövründəki siyasi görüşlərini (məs., kommunist, bolşevik, beşillik, Ali Sovet və s.) və 90-cı illərdəki siyasi fəaliyyəti ilə bağlı işlətdiyi leksik vahidləri (məs., *hüquqi cəmiyyət, beynəlxalq aləm, aparıcı qüvvələr, siyasi partiyalar* və s.) əhatə edir. Məhz həmin dövrə aid onun işlətdiyi **diplomatiya**ya aid terminlərdən aşağıdakıları misal gətirmək olar: *attaşe, bərabərhüquqlu, beynəlxalq hüquq, de-fakto, de-yure, diplomat, diplomatik addım, diplomatik əlaqə, diplomatik korpus, diplomatik missiya, diplomatik münasibətlər, diplomatik nümayəndəlik* və s. Heydər Əliyevin dilində **antroponimlər**dən şair və yazıçıların, musiqiçilərin adları işlənsə də, lüğətə yalnız siyasi xadimlərin adları daxil edildi. Məsələn, *Bakatin,*

*Brejnev, Xruşşov, İliç, Nəriman Nərimanov, Qorbaçov, Surət Hüseynov, Əbülfəz Elçibəy, Koçaryan (Köçəryan)* və s. **Toponimlər**ə, əsasən, ölkə adları aiddir. Məsələn, Çin, Gürcüstan, Pakistanvə s. **Partiya və təşkilatların adları**: *Bakı Soveti, Hümmət, Bakı Bolşevik Təşkilatı, Bakı Partiya Komitəsi, Baş İdarə rəhbəri (rəisi),* və s. **Siyasi hadisələr**in adları: *ATƏT-in İstanbul Sammiti, Atəşin kəsilməsi haqqında saziş,* və s. **Qısaltmalar**: ATƏT, ATƏM, BMT, RSDFP və s.

2. Baş sözlərin izahları verilərkən yalnız cümlə kontekstində olan şərhlər öz əksini tapmışdır.

3. Baş sözlər böyük, qara hərflərlə verilir. Məsələn: **ALİ MƏCLİS, ATƏŞKƏS, BEYNƏLMİLƏLÇİLİK** və s.

4. Baş sözlər sadə və söz birləşməsi şəklində olur.

5. Burada sözlərin etimologiyası və mənbə dildəki yazılışı kvadrat mötərizə içərisində verilir. Məsələn, [*lat.* assimilatio], [*ing.* Conference on Security and Cooperation in Europe (CSCE)] və s.

6. Baş sözün qrammatik xüsusiyyəti ixtisarla göstərilir.

7. Lüğət məqaləsinin tərkibində olan söz birləşmələri kvadrat (□) işarə ilə verilir. Məsələn:

□ **İqtisadi blokada** – bir dövlətin havada və quruda olan sərhədlərinin qonşu dövlətlər tərəfindən təcrid vəziyyətinə salınması.

8. Frazeoloji birləşmələr romb (◊) işarəsi ilə verilir. Məsələn:

◊ **Bəyanat vermək –** bir məsələ ilə bağlı hökumət və ya dövlət başçısı tərəfindən rəsmi məlumat bildirmək.

9. Semantik bölgü ərəb rəqəmləri ilə 1., 2. şəklində sıralanır. Məsələn, H.Əliyev "vətəndaşlıq" sözünü iki mənada istifadə edir:

**1.** İnsanla dövlət arasında onların qarşılıqlı hüquq, vəzifə və məsuliyyətlərinin məcmusunda ifadə olunan hüquqi münasibət.*"Prezidentin, demək olar ki, bütün vəzifələrinin Ali Sovetinin sədrinə həvalə edilməsi haqqında fərmanı da elə onun özü imzalamış, öz fərmanında yalnız **vətəndaşlığ**a qəbul və qanunların imzalanması hüquqlarını özündə saxlamışdır."...*

**2.** Həqiqi vətəndaşa aid və xas olan. *Vətəndaşlıq mövqeyi. Vətəndaşlıq qayəsi. Vətəndaşlıq cəsarəti. Vətəndaşlıq hünəri. Vətəndaşlıq ruhu. "Böyük Leninin şagirdi və silahdaşı A.V.Lunaçarskinin bu qısa, lakin dərin mənalı kəlamında sosialist inqilabının teatr sənətinə münasibətinin mahiyyəti ifadə edilmiş, habelə teatrın **vətəndaşlıq borcu** qeyd olunmuşdur." ...*

10. Mənbələr sitatdan sonra yumru mötərizə içərisində tarixi ilə bir yerdə verilir. Məsələn, (Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il).

## İXTİSARLAR

*abr.* – abreviatur
*fars.* - farsca
*f.* – feil
*f.is.* – feili isim
*xüs.is.* – xüsusi isim
*ing.* – ingiliscə
*is.* – isim
*isv.* – isveç dilində
*qəd.Mid.* – qədim Midiya dilində
*lat.* – latınca
*məc.* – məcazi mənada
*sinqh.* – sindhicə
*urdu.* – urduca
*yen.lat.* – yeni latınca
*yun.* – yunanca

# A

**ABŞ** [*ing.* The United States of America] *abr.* – Amerika Birləşmiş Ştatları. Şimali Amerikada 9,833,520 kv² km ərazini əhatə edən, 50 inzibati ərazi vahidinin birləşməsindən əmələ gələn hegemon dövlət. ABŞ prezident və senatorlar palatası tərəfindən idarə olunan federativ respublikadır. 50 ştat, Kolumbiya federal dairəsi və adalar (Puerto-Riko, Vircin, Quam və s.) onun administrasiyasına daxildir.*"Hörmətli cənab səfir Kozlariç bayaq saata baxıb dedi ki, **ABŞ**-ın bir hissəsində indi bayram başlayıb, digər hissəsinə isə hələ gəlib çatmayıbdır. Ancaq mən cənab səfirə demək istəyirəm ki, müstəqil Azərbaycanın hər guşəsində – şərqində, qərbində, şimalında, cənubunda 4 iyul bayramı bu gün qeyd olunur. Azərbaycanın paytaxtı Bakı şəhərində Amerika Birləşmiş Ştatlarının belə bır gözəl bağçası, səfirlik binası, ən başlıcası isə burada hörmətli səfir və gözəl işçilər vardır."* (Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət Gününün 219-cu ildönümü münasibətilə təşkil edilmiş bayram mərasimində nitqi. *4 iyul 1995*). *"Biz **ABŞ**-ın Azərbaycandakı səfirliyi ilə daim əlaqə saxlayırıq,Amerika BirləşmişŞtatlarının rəhbər xadimləri ilə bir sıra görüşlər olmuşdur."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının koman-

danı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**AK(b)P MK** *abr.* – Azərbaycan Kommunist (bolşevik) Partiyasının Mərkəzi Komitəsi. Qurultaylararası ali orqan. Heydər Əliyev 46 yaşında ikən 1969-cu ilin 14 iyul tarixli plenumda Kommunist Partiyasının Mərkəzi Komitənin birinci katibi vəzifəsinə təyin olunmuş, 3 dekabr 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə seçilənə qədər Azərbaycan SSR-yə rəhbərlik etmişdir. *"...N.Nərimaniov bununla əlaqədar olaraq **AK(b)P MK** plenumunda söylədiyi nitqində qeyd etdi ki, Azərbaycanda Lenin yoldaşın məktubunda müəyyən edilmiş xətti yeritmək lazımdır."*(Nəriman Nərimanovun 100 illik yubileyi mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**AXISQA TÜRKLƏRİ** – Gürcüstanın cənub-qərb zonasında mərkəzi Axısqa (*gürc.* ახალციხე Ahaltsihe) olan Məshəti bölgəsində yaşamış və 1944-cü ildə deportasiyaya məruz qalmış türk etnik qrupu. 1958-ci ildən 80-ci illərin axırlarına qədər Azərbaycanda 50 minə qədər Axısqa türkü yerləşmişdir. Ümummilli Lider Heydər Əliyev hələ 1972-ci ildə Axısqa türkləri gənclərinin Azərbaycanın ali məktəblərinə müstəsna hal kimi müsabiqədənkənar qəbul edilmələri barədə sərəncam verir və bu, axısqalıların maariflənməsində, sosial-mədəni tərəqqisində böyük tarixi rol oynayır. 1989-cu ildə Özbə-

kistan SSR-də baş verən Fərqanə hadisələrindən sonra 70.000 Axısqa türkü ölkəni tərk edir və Azərbaycan da daxil olmaqla yeddi Postsovet ölkəsinə qaçır. Məshəti türkləri vətənlərinə qayıtmaq istəsələr də, 1991-ci ildə müstəqilliyini yenicə qazanmış Gürcüstan Respublikası onları qəbul etmir, Rusiya səlahiyyətliləri isə vətəndaşlıq verməkdən imtina edirlər. Lakin Azərbaycan qan qardaşlarına qucaq açır və 40 mindən çox Axısqa türkü Saatlı-Sabirabad, Xaçmaz rayonlarına köçür. Ölkəyə təşrif gətirən axısqalılar Azərbaycanda hər bir vətəndaşın sahib olduğu bütün hüquqlara sahib olur. *"Azərbaycan ağır vəziyyətdə olduğu, özü Ermənistandan zorakılıqla çıxarılan qaçqınları qəbul etdiyi halda, başqa ölkələrdən, başqa regionlardan **Axısqa türkləri**ni – bu qaçqınları da qəbul edib."*(Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**ALİ MƏCLİS** *xüs.is.* – Naxçıvan MR-in parlamenti, ali qanunverici orqanı. 17 noyabr 1990-cı il tarixində Naxçıvan MSSR Ali Sovetinin keçirdiyi son sessiyada "Ali Sovet" sözünün "Ali Məclis" ilə əvəz edilməsi haqqında qərar qəbul olundu. Heydər Əliyev 5 sentyabr 1991-ci ildə Ali Məclisə sədr seçildi. O, 23 iyun 1993-cü ilə qədər bu vəzifəni icra etmişdir. *"Mən respublikanın prezidenti seçildiyimə görə **Ali Məclis**in iclası bu müddətdə toplaşa bilməmişdir."* (Keçmiş beynəlmiləlçi döyüşçülərlə

görüşdə çıxışı. 4 noyabr 1993). *"Mən bu müddətdə məsələyə səbirlə, təmkinlə, hörmətlə yanaşmışam və bütün qüvvələrə etibar eləmişəm, ətrafımda olan, respublikanın rəhbərliyində olan, **Ali Məclis**in tərkibində olan adamlara etibar eləmişəm, ümid bəsləmişəm ki, bu məsələni həll edəcəyik."* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993); *"Xatirimdədir, vaxtilə mən Naxçıvanda yaşayırdım, Muxtar Respublika **Ali Məclis**inin sədri idim, ilk dəfə Türkiyəyə getmişdim."* (Türkiyənin səhiyyə naziri Osman Durmuş ilə görüşdə söhbəti. 19 aprel 2000).

**ALİ SOVET** [*rus.* Верховный Совет-dən kalka] *xüs.is.* – keçmiş SSRİ-də qanunvericilik orqanı. İttifaq ərazisində mərkəzi Ali Sovetdən əlavə, hər respublikanın öz Ali Soveti olmuşdur. Azərbaycan SSR Ali Soveti 1938-1991-ci illər ərzində fəaliyyət göstərmişdir. Ona qədər sovet Azərbaycanı ərazisində qanunverici orqan Ümum-Azərbaycan Sovetlər qurultayı adlanmışdır. SSRİ dağıldıqdan sonra 15 iyun 1993-cü ildə Azərbaycan Respublikasının Ali Sovetinin sədri vəzifəsinə Heydər Əliyev təyin olunur.*"Bu gün mənə tapşırılmış vəzifəni böyük məmnuniyyət hissi ilə yerinə yetirərək sevimli şairimiz Süleyman Rüstəmə respublika **Ali Soveti** Rəyasət Heyətinin Fəxri Fərmanını təqdim edirəm."* (Azərbaycanın xalq şair-

ləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il). *"İyul ayının 15-dən mən **Ali Soveti**n sədriyəm. Artıq avqustun 13-dən keçdi 14-nə. Bu günlərdə iki ay tamam olur."* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993). *"Sovetlər İttifaqının **Ali Soveti**nin sədri Podqornı, İran şahı Məhəmməd Rza Pəhləvi və mən bu mərasimin iştirakçısı olmuşuq."*(Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993). *"Yadınıza salmaq istəyirəm ki, Milli Məclisin iclasında və ondan bir gün qabaq **Ali Soveti**də keçirilən geniş müşavirədə Lənkəran və onun ətrafındakı rayonlardan olan nümayəndələr, Azərbaycan ziyalıları, məclis üzvləri, xalq deputatları bizə və o cümlədən şəxsən mənə irad tutdular ki, nə üçün bu nalayiq hərəkətlərə, Azərbaycanı parçalamaq, dağıtmaq cəhdlərinə indiyə qədər lazımı qiymət verilməyib, laqeyd münasibət göstərilib və bunların qarşısı vaxtında alınmayıbdır."* (Azərbaycan Milli Televiziyası ilə xalqa müraciəti. 23 avqust 1993).

**ALİ SOVETİ RƏYASƏT HEYƏTİ** B a x **Respublika Ali Sovetinin Rəyasət Heyəti**

**ALQIŞLAMAQ** *f.* – **1.** Əl çalmaqla təqdir ifadə etmək. *"Gör nə qədər fotoşəkil var: o,* [Belyayev] *durub məni* ***alqışlayır.****"* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il).

**2.** *məc.* Müsbət münasibət bildirmək, təqdir etmək,. *"Dağlıq Qarabağ Muxtar Vilayəti 3 ildir ki, Azərbaycan üçün böyük bəla olub. Bu gün sessiyada bu məsələnin müzakirəsini ürəkdən* ***alqışlayıram****."* (Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında çıxışı. 5 fevral 1991-çi il); *"Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün sülhü qoruyan beynəlxalq qüvvələr təşkil etmək sahəsində ATƏM-in sədrinin səylərini biz* ***alqışlayırıq****."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI** b a x **ABŞ.** *"Son vaxtlar* ***Amerika Birləşmiş Ştatları*** *Azərbaycana daim müsbət münasibət göstərir. Cənab Klinton mənə dəfələrlə məktub göndərmişdir. Təkcə sentyabr ayında ondan iki məktub almışam. Bunlar hamısı onu göstərir ki,* ***Amerika Birləşmiş Ştatları****nda Azərbaycana münasibət müsbət istiqamətdə dəyişir və güman edirəm ki, daha da dəyişəcəkdir."*(BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfərə yola düşərkən Binə Hava Limanında jurnalistin sualına cavabı. 25 sentyabr 1994).

**ANKLAV** [*fr.* enclave < *lat.* inclavatus "həbs edilmiş"] *is.* – bir dövlətin ərazisinin başqa bir dövlətin torpaqları ilə əhatələnməsi. *"Ermənistan tərəfi deyir ki, Dağlıq Qarabağ **anklav** vəziyyətində ola bilməz. Amma onu da bilməlisiniz ki, Naxçıvan Muxtar Respublikası **anklav** şəraitindədir."* (Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000).

**ANTİKONSTİTUSİON** [*yun.* anti- "əks, zidd" + *lat.* constitutio "konstitusiya"] *sif.* – konstitusiyaya zidd. *"Mən qoşunların yeridilməsini qəti şəkildə pislədim, onu **antikonstitusion**, antidemokratik və qanunazidd adlandırdım və dedim ki, belə bir addım ölkənin siyasi rəhbərliyinin və şəxsən Qorbaçovun kobud səhvidir."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il); *"Nə haqla deyirsiniz ki, hakimiyyət **antikonstitusion** yol ilə dəyişib?"* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında Respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışı. 29 sentyabr 1993); *"Bax, bunu sizə də, başqalarına da deyirəm. Siz dediniz ki, burada **antikonstitusion** yol ilə hakimiyyət dəyişildi."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında Respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışı. 29 sentyabr 1993).

**APARICI QÜVVƏ(LƏR)** – burada: siyasi hərəkatın idarəedici üzvləri. *"Azərbaycan xalqını ləkələyən qüvvələr meydana çıxıb, hətta özlərini xalq qəhrəmanı, milli qəhrəman, azadlıq uğrunda mübarizənin **aparıcı qüvvələri** kimi qələmə veriblər."*(Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**ASSİMİLYASİYA** [*lat.* assimilatio] *is.* – bir etnosun öz dili, mədəniyyəti, milli mənlik şüurunu itirib başqa bir xalqın, millətin təsiri altına düşməsi və əriməsi.*"Bəzən elələri də olub ki, o vaxtlar 20-30 il Rusiyada yaşayıb, azərbaycanlılığını da, dinini də unudaraq **assimilyasiya**ya uğrayıblar."*(İsveçrədə yaşayan soydaşlarımızla görüşdə çıxışı. *29 yanvar 1995*); *"Bilirsinizmi, mən hələ onda görürdüm, hiss edirdim ki, bu türkdilli respublikalarda, müsəlman respublikalarında güclü **assimilyasiya** gedir."* (Çuvaşiya Respublikasının nümayəndə heyəti ilə görüşdə söhbəti. 17 iyun 2000).

**ATƏM** [*ing.* Conference on Security and Cooperation in Europe (CSCE)] *abr.* – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. ATƏM-in əsası ilk dəfə Helsinkidə 1973-cü ilin iyulunda ABŞ-ın və 33 Avropa ölkəsinin xarici işlər nazirlərinin istirakı ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsində (ATƏM) qoyulmuşdur. 1994 ildən adı dəyişdirilərək Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandı-

rılmağa başlanmışdır. B a x **ATƏT**. *"Gizlətmirəm, respublikanın vətəndaşları da, müxtəlif siyasi xadimlər, o cümlədən müxalifətdə olan xadimlər də, xarici müxbirlər də mənə tez-tez sual verirlər: BMT Təhlükəsizlik Şurasının, istər **ATƏM**-in Minsk qrupunun, istərsə də, ümumiyyətlə, **ATƏM**-in dəfələrlə qəbul etdiyi qərarların həyata keçirilməyərək qaldığını bilə-bilə, siz doğrudanmı inanırsınız ki,bu məsələni **ATƏM**-in qüvvəsi ilə, **ATƏM**-in, Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının imkanları ilə həll etmək olar? Həqiqətən də bu bir faktdır ki, vaxt gedir. BMT-nin Təhlükəsizlik Şurası üç dəfə çox mühüm qətnamə qəbul etmişdir, **ATƏM**-in Minsk qrupu işğal qoşunlarının Azərbaycan ərazisindən çıxarılması haqqında bir neçə dəfə cədvəl tərtib etmişdir, gah Romada, gah Vyanada, gah da Cenevrədə və daha haradasa dəfələrlə iclaslar keçirmişdir."*(ATƏM-in sədri İsveçin Xarici İşlər naziri Marqareta Af Uqlas ilə görüşdə çıxışı. 26 oktyabr 1993).

**ATƏŞİN KƏSİLMƏSİ HAQQINDA SAZİŞ** – dövlətlər arasında silahlı qarşıdurma və ya müharibənin dayandırılması haqqında tərəflər arasında bağlanan müqavilə. *"Biz 1994-cü ildən Ermənistan ilə **Atəşin kəsilməsi haqqında saziş** imzalamışıq."* (Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə BDU-nun və bir sıra xarici ölkə universitetlərinin rəhbərləri ilə görüşdə nitqi. 11 fevral 2000).

**ATƏŞKƏS** *is.* – döyüşən tərəflər arasında gəlinmiş qarşılıqlı razılaşma əsasında müəyyən müddətə hər cür hərbi əməliyyatların dayandırılması. □ **Atəşkəs rejimi** – bütün cəbhə boyu tətbiq olunan atəşkəs qaydaları. *"Bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında altı ildən artıq gedən müharibədə altı aydır ki,* ***atəşkəs rejimi*** *yaranmışdır və davam edir."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994). *"Üçüncü dövlətin ərazisində, döyüş əməliyyatı zonasından yüz kilometrlərlə uzaqda baş vermiş bu hadisəyə* ***atəşkəs rejimi****nin Azərbaycan tərəfindən kobud şəkildə pozulması kimi düşünülməmiş qiymət verilməsi də xüsusi narahatlıq doğurur."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

**ATƏT** [*ing.* Organization for Security and Cooperation in Europe (OSCE)] *abr.* – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. B a x **ATƏM**. Dünyanın ən böyük təhlükəsizlik yönümlü hökumətlərarası təşkilatı. *"Biz beynəlxalq təşkilatlar –* ***ATƏT****, onun tərkibində olan Minsk qrupu vasitəsilə, Minsk qrupunun həmsədrləri – Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın iştirakı ilə sülh danışıqları aparırıq."* (Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə BDU-nun və bir sıra xarici ölkə universitetlərinin rəhbərləri ilə görüşdə nitqi. 11 fevral 2000). *"1999-cu ilin noyabrında ATƏT-in İstanbul zirvə gö-*

*rüşü çərçivəsində məşhur "Çırağan" sarayında Bakı–Ceyhan əsas ixrac neft boru kəməri barədə sazişin imzalanmasını mən də yüksək qiymətləndirirəm."* (ABŞ prezidenti Bill Klinton-la görüş başa çatdıqdan sonra Ağ Evin qarşısında yerli və xarici jurnalistlərlə görüşdə çıxış və suallara cavabı. 15 fevral 2000).

**ATƏT-in İSTANBUL SAMMİTİ** – 1999-cu ilin 18–19 noyabr tarixlərində Türkiyənin İstanbul şəhərin-də keçirilmiş Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) VI sammiti. Burada H.Ə.Əliyev Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktı haqqında təklif irəli sürmüşdür. *"Ötən ilin noyabrında* ***ATƏT-in İstanbul sammiti****nin keçirildiyi günlərdə məşhur "Çırağan" sarayında Bakı–Ceyhan əsas ixrac boru kəməri və Trans-Xəzər qaz kəməri barədə sazişlərin imzalanması məra-simində Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinto-nun iştirak etməsi, həmin sənədlərə imza atmasını doğrudan da tarixi hadisə kimi dəyərləndirirəm."* (Ukrayna prezidenti Leonid Kuçma ilə görüşdəki söhbətdən. 29 yanvar 2000).

**ATTAŞE** [*fr.* attaché "əlavə olunur; əlaqəli"] *is.* – diplomatiyada: daha yüksək vəzifəli şəxsə və ya başqa bir xidmətə, agentliyə tabe olan diplomatik və ya inzi-bati heyətə təyin edilmiş şəxs. Adətən, səfirin və ya dip-lomatik missiyanın digər rəhbərinin səlahiyyəti altında

köməkçi heyət üzvü kimi xidmət edən rəsmi şəxs. Attaşe səfirin məsləhətçisi qismində çıxış edən müəyyən sahə üzrə mütəxəssis olur: ticarət məsələləri üzrə attaşe, hərbi attaşe, turizm üzrə attaşe və s. □ **Hərbi attaşe** – hərbi sahə üzrə ixtisaslaşmış səfir məsləhətçisi. *"Türkiyənin Azərbaycandakı **hərbi attaşe**si, hörmətli general – biz general deyirik – Sadıq paşa buradakı nitqində eyni zamanda, Azərbaycanla vidalaşması haqqında məlumat verdi. Sadıq paşa Türkiyə Cümhuriyyətinin Azərbaycanda **hərbi attaşe**si kimi iki ildir ki, fəaliyyət göstərir, Azərbaycan Silahlı Qüvvələri ilə əməkdaşlıq edir və fəaliyyətini uğurla başa çatdırır."* (Zəfər bayramı və Türkiyə silahlı qüvvələri günü münasibətilə təşkil edilmiş mərasimdə nitqi. 30 avqust 2000).

**AVROPA BİRLİYİ (İTTİFAQI)** [*ing.* The European Union (EU)-dan kalka] *xüs.is.* – 28 Avropa dövlətinin daxil olduğu iqtisadi, siyasi və hərbi birlik. *"Siz – mətbuat nümayəndələri **Avropa Birliyi**nin nümayəndə heyətinin başçısı cənab Hans Van Den Brukla və nümayəndə heyətinin üzvləri ilə danışıqlarımızda iştirak etmisiniz, onların məzmunu ilə tanışsınız. Ona görə də bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Mən yalnız onu demək istəyirəm ki, Azərbaycan ilə **Avropa Birliyi** arasında əməkdaşlıq sürətlə inkişaf edir. Brüsseldə, **Avropa Birliyi**nin baş qərargahında olarkən mən bu birliyin rəhbərləri cənab Jak Santerlə və cənab Hans Van Den Brukla, habelə başqaları ilə ətraflı söhbətlər aparmışdım."* (Avropa Birliyi komissiyasının ko-

missarı Hans Van Den Brukla birgə mətbuat konfransında bəyanatı. *4 oktyabr 1995*).

**AVROPA PARLAMENTİ** *xüs.is.* – Avropa Birliyinə üzv dövlətlərin vətəndaşları tərəfindən birbaşa seçkilər yolu ilə 5 il müddətinə seçilən 626 deputatdan ibarət məşvərətçi orqan. *"Bizdə **Avropa Parlamenti**nin, Fransanın parlament nümayəndə heyətinin bəyanatları var, ATƏT və Birləşmiş Millətlər Təşkilatı nümayəndələrinin də bəyanatı var."* ("Azərbaycanda investisiya imkanlari" beynəlxalq konfransina həsr olunmuş mətbuat konfransı. 29 noyabr 1995); *"İstiqlaliyyət əldə etdikdən sonra dövlətimiz qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Qara dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**AVROPA ŞURASI** [*fr.* Conseil de l`Europe (CdE)] *xüs.is.* – Avropanın hökümətlərarası təşkilatı. İkinci

Dünya Müharibəsinin yekunlaşmasından sonra Avropada insan haqlarının, demokratiyanın və qanunun aliliyinin müdafiə olunması məqsədilə 1949-cu ildə əsası qoyulmuş və 46 dövlətin üzv olduğu beynəlxalq təşkilat. *"Bu baxımdan **Avropa Şurası**nın Azərbaycana indiyə qədər etdiyi və bundan sonra edəcəyi köməkçox əhəmiyyətlidir. Bu da ondan ibarətdir ki, biz **Avropa Şurası**ndan 300 min ton taxıl, un göndərilməsi haqqında qərar almışıq. Bunun bir qismi göndərilmişdir. Mən sizə açıq deyə bilərəm ki, indi respublikamızın çörək təminatı əsasən **Avropa Şurası**ndan alınan buğdanın, unun hesabınadır. Həmin taxılın, unun qalan hissəsi də göndəriləcəkdir. Bundan əlavə, **Avropa Şurası**ndan iki min tonadək yağ, 2500 tona qədər ət gəlmişdir. Bunlar hamısı respublikanın təchizatına yönəldilmişdir. Bütün bunlar **Avropa Şurası**nın respublikaya maddi yardımıdır, əvəzsiz yardımıdır. Eyni zamanda **Avropa Şurası** respublikamıza təxminən 80 milyon dollar kredit ayırmışdır."* (Milli Televiziya və Radio ilə xalqa müraciəti. *15 mart 1995*).

**AVROPADA TƏHLÜKƏSİZLİYƏ VƏ ƏMƏKDAŞLIĞA DAİR MÜŞAVİRƏ** b a x **Helsinki (Yekun) Aktı**. *"Mən ATƏM-in üzvü olan dövlətlərin hörmətli başçılarına müraciətlə xahiş edirəm ki, bu işdə fəal iştirak etsinlər, mənim xalqımı, milyonlarla adamı ağrı-acıya, iztirablara məruz qoyan altı illik müharibənin alovunu söndürməyə kömək etsinlər, bununla da **Avropada Təhlükəsizliyə və***

***Əməkdaşlığa dair Müşavirə**nin Yekun aktının ümdə prinsiplərinin həyata keçməsinə imkan açsınlar."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

**AVROPA KOMİSSİYASI (AVROPA BİRLİYİ (İTTİFAQI) KOMİSSİYASI)** [*ing.* European Commission (EC)] *xüs.is.* – Avropa Birliyinin əsas icra orqanlarından biri. Bütün üzv dövlətlərin hökümətlərinin və Avropa Parlamentinin razılığı ilə hökumətlər tərəfindən beşillik müddətə təyin edilmiş 1 sədr və 20 üzvdən ibarətdir. *"Bu baxımdan Böyük İpək yolunun bərpası və TRASEKA proqramının reallaşdırılması haqqında 1998-ci ilin sentyabrında Azərbaycanda, Bakıda **Avropa Komissiyası** ilə birlikdə keçirilmiş beynəlxalq konfransın mühüm rolu olubdur."* (Davos İqtisadi Forumunda "Qafqazın və Mərkəzi Asiyanin perspektivləri: İpək Yolu və ya Böyük Oyun" mövzusunda keçirilən konfransda çıxışı. 28 yanvar 2000); *"Mən İstanbulda olarkən **Avropa Komissiyası**nın sədri cənab Prodi ilə görüşmüşdüm."* (Avropa Birliyinin Azərbaycandakı xüsusi elçisi Renato Batti və Avropa Komissiyasının Azərbaycan üzrə əlaqələndiricisi Robin Lidel ilə görüşdə söhbəti. 5 fevral 2000).

**AYAZ MÜTƏLLİBOV** *xüs.is.* – Ayaz Niyazi oğlu Mütəllibov (1938-2022). Azərbaycan Respublikasının 1-ci prezidenti, Azərbaycan SSR Kommunist Partiyası

Mərkəzi Komitəsinin 14-cü, sonuncu birinci katibi. *"Azərbaycan partiya MK-sinin birinci katibi **Mutillibov** partiyadan çıxmağımla əlaqədar dərhal mənim fəaliyyətimi yoxlamaq üçün komissiya təşkil etmişdi."* ("Mən sizə heç nə vəd etmirəm". "Sobesednik" qəzetinə müsahibəsi. 10 avqust 1993); *"Azərbaycanın keçmiş başçısı **Ayaz Mütəllibov** hakimiyyətdən gedəndən sonra ayrı-ayrı qruplar onu yenidən hakimiyyətə gətirmək istəyirdilər."* (Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə Çıxışı. *18 oktyabr 1995*).

**AYRI-SEÇKİLİK** *is.* – **1.** Bir ölkə daxilində yaşayan millətlərin və ya etnik qrupların vətəndaşlıq hüququnun digər aparıcı millətə nisbətdə pozulması; irqçi, şovinist münasibət. *"Biz hamımız azərbaycanlıyıq, hamımızın dilimiz var, hamımız da bu azərbaycanlılığı anadangəlmə qəbul etmişik, indi **ayrı-seçkilik** salmağa nə əsas var?"* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993); *"Müstəmləkəçilik, aparteid, irqi **ayrı-seçkilik** keçmişdə qalmışdır."* (BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT baş məclisinin xüsusi təntənəli iclasında çıxışı. *22 oktyabr 1995*); *"Din baxımından sayca böyük xalqlardır, sayca kiçik xalqlardır – heç bir **ayrı-seçkilik** olmamalıdır."* (Ümum-Rusiya "Rifah"

ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

**2.** Beynəlxalq aləmdə bir xalqa münasibətdə digəri ilə müqayisədə aşkar haqsız siyasi mövqenin nümayiş etdirilməsi, qərar qəbul edilməsi və s. *"Təcavüzə məruz qalan, ərazisinin 20 faizi işğal olunan Azərbaycan barəsində bu cür qərar qəbul etmək ona qarşı* ***ayrı-seçkilik*** *deməkdir."* (ABŞ-ın Kolumbiya Universitetinin Harriman İnstitutunda çıxışı. 28 sentyabr 1994); *"Beləliklə, bizə qarşı* ***ayrı-seçkilik*** *vardır."* (Amerika Birləşmiş Ştatları hərbi kollecinin nümayəndə heyəti ilə görüşdə söhbəti. 4 mart 2000); *"Ermənilər türk-müsəlman respublikalarına qarşı* ***ayrı-seçkilik*** *siyasəti yürüdən SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində 1948–1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına nail oldular."* (31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti. 29 mart 2000); *"1992-ci ildə Amerika Konqresində Azərbaycan barəsində açıq-aşkar ədalətsiz qərar,* ***ayrı-seçkilik*** *qərarı qəbul edildi."*(Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000).

**AZADLIQ** *is.* – bir xalqın yaşadığı torpaqlarının siyasi əsarətdən, asılılıqdan qurtularaq dövlət müstəqilliyini əldə etməsi. *"Xalqlar* ***azadlıq*** *qazandıqdan sonra isə heç kim, heç bir dövlət heç bir siyasət yeritmir."* (Ümum-Ru-

siya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

**AZƏRBAYCANÇILIQ** *is.* – Azərbaycan milli ideologiyası. *"Ancaq bizi sevindirən cəhət ondan ibarətdir ki, ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımız öz azərbaycançılıq hissiyyatlarını,* ***azərbaycançılıq*** *xüsusiyyətlərini qoruyub saxlamışlar və öz* ***azərbaycançılıq****, milli hissləri ilə müstəqil Azərbaycana böyük ümidlə baxırlar, dövlətimizlə öz əlaqələrini möhkəmləndirirlər."* (Azərbaycan xalqına yeni il təbriki. 31 dekabr 1994); *"Ona görə də harada olursa-olsun, bizi birinci növbədə birləşdirən* ***azərbaycançılıq****dır."* Vyanada və ətraf şəhərlərdə yaşayan azərbaycanlıların bir qrupu ilə görüşdə söhbəti. 5 iyul 2000); *"Bu, XX əsrdə təşəkkül tapmış* ***azərbaycançılıq*** *ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**AZƏRBAYCAN DÖVLƏTİ** – Azərbaycan Respublikasının hakimiyyətində olan siyasi idarə strukturu. *"Azərbaycanın dövlət qanunları qorunacaqdır,* ***Azərbaycan dövləti*** *özünü və respublikanı qorumağa qadirdir."* (Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışı. 4 noyabr 1993); *"Şübhəsiz ki,* ***Azərbaycan dövləti*** *həlak olanların ailələrinə hər cür qayğı və hörmət göstərəcəkdir və güman edirəm ki, Azərbaycan xalqı bu sadə azərbaycanlıların böyük*

*şücaətini heç vaxt unutmayacaqdır."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993).

**AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ** – Azərbaycan Respublikasının daxili və xarici maraqlarının təmin edilməsinə yönəlmiş ideologiya. *"Düzdür, bu Azərbaycan övladları Vətəni ermənilərdən, başqa düşmənlərdən qorumaq üçün yox, daxili düşmənlərimizdən qorumaq üçün,* ***Azərbaycan****ın* ***dövlətçiliyi****ni saxlamaq üçün həlak olublar, şəhid olublar."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993); *"Nəhayət, bütün bu məlumatları sizə verərək, öz fikirlərimlə sizi tanış edərək, sizinlə bölüşərək bir daha bildirmək istəyirəm: Azərbaycanın bu vəziyyətdən çıxmağa imkanı var,* ***Azərbaycan dövlətçiliyi*** *qorunacaqdır, Azərbaycan xalqının hüquqları qorunacaqdır."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993); *"Bax bunların hamısı dövləti dağıdanların, indi müxalifətə keçərək qəzetlərdə haray-həşir salanların Azərbaycan xalqına, Azərbaycan Respublikasına,* ***Azərbaycan dövlətçiliyi****nə vurduqları zərbədir."* (Cəbhəyanı bölgədə – İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ** *xüs.is.* – Zaqafqaziya Seymi özünü buraxdıqdan sonra, 28 may 1918-ci il tarixində Tiflisdə qəbul olunmuş İstiqlal bəyannaməsi ilə müstəqilliyini elan etmiş, ərazisi günümüz Azərbaycan Respiblikası və müasir Ermənistan Respublikasının ərazi vahidinə daxil olan Zəngəzur və Göyçə mahalını əhatə edən, parlamentli respublika idarə üsuluna malik olmuş və Azərbaycan Respublikasının sələfi statusunu daşıyan dövlət. Türk-müsəlman Şərqində ilk parlamentli respublika olmuşdur. Mövcudluğunu 28 aprel 1920-ci ildə Qızıl ordunun Bakıya daxil olmasına qədər saxlamışdır. *"1917-ci ildə Rusiyada Oktyabr inqilabı baş verəndən sonra Azərbaycanda olan mütəfəkkir, vətənpərvər insanlar, millətçi insanlar Azərbaycanın müstəqil dövlətini qurmağa çalışıblar və qurublar.* ***Azərbaycan Xalq Cümhuriyyəti*** *yaranıbdır. Ancaq 1920-ci ildə* ***Xalq Cümhuriyyəti*** *süqut etdi."* (İsveçrədəki Azərbaycan cəmiyyəti idarə heyətinin bir qrup üzvü ilə görüşdə çıxışı. 30 yanvar 2000).

**AZƏRBAYCAN XALQI** – Azərbaycan Respublikasının əraziləri daxilində yaşayan və vətəndaşlığını daşıyan bütün fərdlər. *"Bilin ki,* ***Azərbaycan xalqı*** *bir xalq kimi bundan sonra nəinki yaşamalıdır, daha da qüdrətlənməli, daha da inkişaf etməlidir."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin

borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993).

**AZƏRBAYCANIN ALİ SOVETİ** b a x: **Ali Sovet**. *"Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, **Azərbaycanın Ali Soveti**nə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib, bu ağır yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993).

**AZƏRBAYCAN İNQİLAB KOMİTƏSİ** *xüs.is.* – 26 aprel 1920-ci ildə AK(b)P MK-nın və Bakı Bürosunun birgə təcili iclasında Azərbaycan Xalq Cümhuriyyətinə qarşı üsyana rəhbərlik etmək üçün yaradılmış Azərbaycan Müvəqqəti İnqilab komitəsi. 28 aprel 1920-ci ildə Azərbaycanda hakimiyyət ali qanunverici orqan kimi Müvəqqəti İnqilab Komitəsinə verilmişdi. Komitənin sədri Nəriman Nərimanov, üzvləri Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Həmid Sultanov, A.Alimov (və ya A.Əlimanov), Mirzə Davud Hüseynov və Əliheydər Qarayev idi. 6 may 1921-ci il tarixində I Ümum-Azərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-nin ilk Konstitusiyası qəbul olunmuş və Müvəqqəti İnqilab Komitəsi ləğv edilmişdir. Əvəzində ali qanunverici orqan olaraq Mərkəzi İcraiyyə Komitəsi (MİK) və yerli so-

vetlər təsis edilmişdir. *"**Azərbaycan İnqilab Komitəsi**nin 1920-ci ildə qəbul etdiyi ilk dekretlərdən birinin yığcam, lakin mənalı sətirlərini həyəcansız oxumaq mümkün deyil: "Bakı universitetinin professorları və müəllimləri... əvəzedilməz işçilər sırasına daxil edilsin." "N.Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin sədri seçildi. Həmin gün Azərbaycan İnqilab Komitəsinin iclasında N.N.Nərimanov başda olmaqla Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti yaradıldı."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**AZƏRBAYCAN KOMMUNİST PARTİYASI (AK(b)P)** *xüs.is.* – Azərbaycan Sovet Sosialist Respublikasında fəaliyyət göstərmiş Azərbaycan Kommunist Partiyası. İlk dəfə 1920-ci il fevralın 20-də Mirzə Davud Hüseynovun rəhbərliyi altında Ədalət, Hümmət, Əkinçi partiyalarının birləşdirilməsi yolu ilə yaranmışdır. 14 iyul 1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1988-ci ildə başlanan Ermənistan-Azərbaycan münaqişəsi, Qanlı Yanvar hadisələri Azərbaycan Kommunist Partiyasına olan etimadın itirilməsi ilə nəticələndi və minlərlə kommunist partiya sıralarını tərk etdi. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin ilk dövrlərində SSRİ hakimiyyətinin apardığı riyakar siyasətə etiraz əlaməti olaraq Heydər Əliyev də 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyası-

nı tərk edənlər sırasına daxil oldu. Nəhayət, 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının XXXIII (fövqəladə) qurultayında partiya özünü buraxdı.*"**Azərbaycan Kommunist Partiyası** bu sanlı zəhmətkeşləri davam etdirərək zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi sahəsində çox iş görür."* (İdeoloji işi daha da gücləndirmək sahəsində Respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi, 29 oktyabr 1971-ci il); *"**Azərbaycan Kommunist Partiyası**nın və fəhlə sinfinin gözəl beynəmiləlçilik ənənələrinin təməli inqilabdan əvvəlki illərdə, kapitalizmə və çarizmə qarsı mübarizə illərində qoyulmuşdur."* (İdeoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi. 29 oktyabr 1971-ci il).

**AZƏRBAYCAN KP MƏRKƏZİ KOMİTƏSİ** b a x **AK(b)P MK.** *"**Azərbaycan KP Mərkəzi Komitəsi** əmindir ki, Respublikanın ədəbiyyat və incəsənət xadimləri partiyalılıq və xəlqilik bayrağını, sosializm realizmi bayrağını həmişə yüksək tutacaq."* (İdeoloji işi daha da gücləndirmək sahəsində Respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi. 29 oktyabr 1971-ci il).

**AZƏRBAYCANLILIQ** *is.* – Azərbaycan vətəndaşlığı təəssübkeşliyi. *"Biz hamımız azərbaycanlıyıq, hamımızın dilimiz var, hamımız da bu* ***azərbaycanlılığı*** *anadangəlmə qəbul etmişik, indi ayrı-seçkilik salmağa nə əsas var?"* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993).

**AZƏRBAYCANPƏRƏST** *sif.* – Azərbaycanın maraqlarına xidmət edən. *"Son illər biz böyük çətinliklə, gərgin əmək sayəsində, – konqresmenlərin müəyyən hissəsi heç də* ***azərbaycanpərəst*** *olmadılar, yox, – onlara sadəcə olaraq izah etdik və onlar obyektiv mövqelərdə durdular."* (Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000).

**AZƏRBAYCAN RESPUBLİKASI** *xüs.is.* – Cənubi Qafqazda Xəzər dənizinin qərb sahilində yerləşən, şimaldan Rusiya, Gürcüstan, qərbdən Ermənistan, Türkiyə, cənubdan İran ilə əhatələnmiş 86600 km² ərazisi olan dövlət. *"Bildirmək istəyirəm ki,* ***Azərbaycan Respublikasının*** *bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993-cü il).

# B

**BAKATİN** [*rus.* Вадим Викторович Бакатин] *xüs.is.* – Vadim Viktoroviç Bakatin (1937-2022). 1988—1990-cı illərdə SSRİ Daxili İşlər naziri, 1991-1992-ci illərdə DTK-nın son rəhbəri vəzifələrində çalışmışdır. *"Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri **Bakatin** vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 20 noyabr 1990-ci il).

**BAKI BOLŞEVİK TƏŞKİLATI** *xüs.is.* – 1901-ci ildə yaradılmış Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) Bakı Komitəsi.*"1905-ci ildə N.Nərimanov **Bakı** bolşevik təşkilatının tərkib hissəsi olan və Bakı Partiya Komitəsinin rəhbərliyi altında işləyən "Hümmət" sosial-demokrat qrupuna daxil oldu."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**BAKI PARTİYA KOMİTƏSİ** b a x **Bakı Bolşevik Təşkilatı.** *"1905-ci ildə N.Nərimanov Bakı bolşevik təşkilatının tərkib hissəsi olan və **Bakı Partiya Komitəsi**nin rəhbər-*

*liyi altında işləyən "Hümmət" sosial-demokrat qrupuna daxil oldu."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il). *"Gərgin iş N.Nərimanovun səhhətinə öz təsirini göstərdi və Bakı Partiya Komitəsinin təkidi ilə o, 1918-ci il iyunun axırlarında Həştərxana getdi.* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**BAKI SOVETİ** *xüs.is.* – 1917-ci ilin martından 1918-ci il 31 iyula qədər Bakıda fəaliyyət göstərmiş hakimiyyət orqanı. Bakı Sovetinin sədri Stepan Şaumyan olmuşdur. *"**Bakı Soveti**nin iclasında onun məruzəsi əsasında qəbul edilmiş qətnamədə Bakı proletariatı və bütün zəhmətkeş kütlələri adından qeyd edilmişdi ki, "... sovet nümayəndə heyəti Genuya konfransında fəhlə-kəndli kütlələrinin mənafeyini və böyük inqilabın bütün nailiyyətlərini şərəflə qorumuşdur. Rusiya Federasiyasının bütün nümayəndə heyəti ilə birlikdə N.Nərimanov yoldaş **Bakı Soveti**nin ona verdiyi tapşırığı çox gözəl yerinə yetirmişdir..."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**BAŞ İDARƏ RƏHBƏRİ (RƏİSİ)** *xüs.is.* – nazirliklərin strukturuna daxil olan xidməti vəzifə. *"Respublika nazirlikləri, komitələri, **baş idarələri rəhbərləri**nin bir qismi məhz bu məqsədlə müşavirəyə dəvət edilmişdir."* (Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

*"Müşavirələrdə respublika nazirliklərinin, komitələrinin, baş idarələrinin bir qrupunun rəhbərləri və nümayəndələri də iştirak etmişlər."* (Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**BAYRAQDAR** *is. məc.* – öndə gedən, öndər. *"Biz Azərbaycan dram sənətinin **bayraqdarı** olan Məşədi Əzizbəyov adına Akademik Teatrın Lenin ordeni ilə təltif edilməsi münasibətilə sizi ürəkdən təbrik edirik."*(Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il).

**BAZAR İQTİSADİYYATI** – Xüsusi mülkiyyətçilikdə hüquqi bərabərliyə, azad sahibkarlığa əsaslanan istehsalın və ondan gələn gəlirin istehlakçılar arasında bölünməsi qanunlarını ehtiva edən iqtisadi sistem və ya kapitalizm sistemi. Azərbaycan Respublikası 1990-cı ildə keçmiş SSRİ-nin inzibati amirlik sistemindən azad demokratik prinsiplərlə idarə olunan bazar iqtisadiyyatı sisteminə tədrici yollarla keçid almışdır. *"Lakin demokratikləşdirmə, siyasi plüralizm yolu ilə, **bazar iqtisadiyyatı** yolu ilə, bütün ölkələr – həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər saxlamalıdır."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Alı Sovetinin sədri Hey-

dər Əliyevin və ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri Mario Raffaellinin birgə mətbuat konfransında bəyanatı 14 iyul 1993-cü il); *"Azərbaycanın iqtisadiyyatı **bazar iqtisadiyyatı** istiqamətində inkişaf etməlidir."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**BEŞİLLİK** – **1.** *sif.* Beş il sürən, beş il müddətli, beş il davam edən. SSRİ dövründə respublikaların üzərinə götürdüyü əmək öhdəliyi. *"Səkkizinci beşilliyin dördüncü ili idi və **beşillik** planın yerinə yetirilməyəcəyi artıq aydın şəkildə görünürdü.*

**2.** İs. mənasında. *"8-ci **beşillik**lə müqayisədə 10-cu **beşillik** ərzində kənd təsərrüfatının rentabelliyi 5 dəfədən çox yüksəlmişdi."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il). *"M. Əzizbəyov adına teatrın görkəmli kollektivi başda olmaqla respublikanın teatrları ölkənin sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi illərində, ilk **beşillik**lər dövründə sosializm quruculuğunun tarixi vəzifələrini həyata keçirməkdə Partiyaya və xalqa fəal kömək edirdilər."* (Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il).

**BEŞİYİ BAŞINDA DAYANMAQ** – yaradılaraq formalaşdırılmasında bilavasitə iştirakçı olmaq. *"Kommunist Partiyasının öz Sovet dövlətinin görkəmli xadimləri*

*S.M.Kirov, Nəriman Nərimanov, Səməd Ağamalıoğlu, Ruhulla Axundov, Sultanməcid Əfəndiyev, Dadaş Bünyadzadə, Əliheydər Qarayev onun* [Bakı Dövlət Universitetinin] ***beşiyi başında dayanmışdılar.***" (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**BEYNƏLXALQ ALƏM** – dünyada mövcud olan beynəlxalq nüfuza malik dövlətlər toplusu. *"Azərbaycanın belə bir dövlətlə əməkdaşlıq etməsi, həm siyasi, iqtisadi sahələrdə, həm də elm, mədəniyyət sahəsində əlaqələr qurması respublikamızın* ***beynəlxalq aləm****də mövqeyinin möhkəmlənməsində böyük əhəmiyyətə malikdir."* (Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışı. 29 iyul 1994).

**BEYNƏLXALQ HÜQUQ** – silahlı toqquşmalar, münaqişələr, diplomatiya, iqtisadi münasibətlər və insan hüquqları da daxil olmaqla dövlətlər arasında beynəlxalq səviyyədə qəbul olunmuş qanun, norma və standart toplusu. *"Təbiidir ki, biz* ***beynəlxalq hüquq****a, demokratiyaya, insan hüquqlarına aid olan hər bir sənədə qoşulmağa həmişə hazırıq."* (BMT-nin insan hüquqları üzrə ali komissarı xanım Meri Robinson ilə görüşdə söhbəti. 7 sentyabr 2000).

**BEYNƏLXALQ NƏZARƏT** – dövlətin öz öhdəliklərini necə yerinə yetirdiyini yoxlamaq üçün beynəlxalq müqavilələr əsasında nəzarət, müqavilənin icrasının gedişatının monitorinqi və onun icrasının yoxlanılması, sonra öhdəliklərin vicdanla yerinə yetirilməsi üçün zəruri tədbirlərin görülməsi. *"Təbii ki, bu, Dağlıq Qarabağda erməni əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Dağlıq Qarabağa müvafiq status verilməsi,* ***beynəlxalq nəzarət*** *altında (bu bizim rəyimizdir) Dağlıq Qarabağla Ermənistan arasında Laçın rayonu vasitəsilə humanitar dəhlizin təmin edilməsindən ibarətdir."*(Moskvaya uçarkən təyyarədə "Delovoy mir" qəzetinin müxbirinə müsahibəsi. 8 sentyabr 1994).

**BEYNƏLXALQ NORMA** – dövlətlər və beynəlxalq hüququn digər subyektləri üçün hamılıqla məcburi olaraq qəbul edilmiş davranış qaydaları. *"Həm də biz* ***beynəlxalq norma****lara uyğun olaraq sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində Dünya Birliyinin köməyinə ümid bəsləyirik."* (BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 29 sentyabr 1994). *"Təəssüf ki, onların* ***beynəlxalq normaları*** *pozması və bu normalara tabe olmaması indiyədək cəzasız qalmışdır."* (Prezident Sarayında BMT-nin baş katibi Butros Butros-Qali ilə görüşdə çıxışı. 30 oktyabr 1994). *"Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara,* ***beynəlxalq normala****ra güvənərək bu gün televiziya*

*və radio vasitəsilə öz fikirlərimi onlara çatdırıram."* (Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar Respublika Milli Televiziya və Radiosu ilə xalqa müraciəti. 12 aprel 1994). *"Ona görə də biz öz xarici siyasətimizdə* ***beynəlxalq normaların*** *əsası olan prinsipi – hər bir müstəqil dövlətin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının qorunmasını müqəddəs prinsip kimi qəbul etmişik və edirik."* (İran İslam Respublikasına rəsmi səfər zamanı İran Xarici İşlər Nazirliyinin siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxışı. 2 iyul 1994).

**BEYNƏLXALQ NÜFUZ** – beynəlxalq arenada hər hansı bir dövlətin siyasi, iqtisadi və digər səbəblərdən qazandığı güc. *"Biz də böyük məmnunluq hissi ilə qeyd edirik ki, inqilabdan sonra ÇXR-in mövcud olduğu illər ərzində Çin xalqı dünya birliyində layiqli yer tutmuş, Çin Xalq Respublikası bütün dünyada böyük* ***beynəlxalq nüfuz*** *qazanmışdır və indi dünya miqyasında ictimai-siyasi inkişaf proseslərinə olduqca böyük təsir göstərir."*(Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Pekin İctimai Elmlər Akademiyasında çıxışı. 9 mart 1994).

**BEYNƏLXALQ TERRORİZM** – beynəlxalq qurumları, konkret dövlətlərin hakimiyyət orqanlarını və ya dövlət rəhbərlərini hər hansı qərarın qəbul edilməsinə, beynəlxalq hüquq əsasında müəyyən tədbirlərin hə-

yata keçirilməsindən çəkindirməyə məcbur etmək, beynəlxalq təhlükəsizliyi və ya dövlətlərarası münasibətləri pozmaq məqsədi ilə konkret şəxslərin öldürülməsi və s. *"Gündəlikdə **beynəlxalq terrorizm**ə qarşı mübarizə və digər məsələlər də vardır."* (Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün Moskvaya yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavabı. 20 iyun 2000). *"Çünki Azərbaycanla Amerika Birləşmiş Ştatlarının **beynəlxalq terrorizm**ə qarşı mübarizədə gördükləri müştərək işlər haqqında və Azərbaycanın ümumiyyətlə terrorizmə qarşı daim apardığı mübarizə barədə indi bu dəqiqə dediyiniz sözlər Dövlət Departamentinin buraxdığı məlumata tamamilə ziddir. Mən hesab edirəm ki, orada Azərbaycan haqqında heç bir şey yazılmamalı idi. Əgər yazılsa da, yazılmalı idi ki, Azərbaycan **beynəlxalq terrorizm**lə, ümumiyyətlə terrorizmlə daim mübarizə aparır və bu sahədə Amerika Birləşmiş Ştatları ilə də sıx əməkdaşlıq edir. Biz onsuz da işimizi görürük və **beynəlxalq terrorizml**ə, bütün terrorizmlə, separatizmlə mübarizə aparmışıq və axıra qədər də aparacağıq."* (ABŞ səfiri Stenli Eskuderonu qəbul edərkən söhbətindən. 3 avqust 2000).

**BEYNƏLMİLƏL** [*ər.* بين الملل] *sif.* B a x **beynəlmiləlçilik.** *"Azərbaycan Kommunist Partiyası bu sanlı zəhmətkeşləri davam etdirərək zəhmətkeşlərin **beynəlmiləl** tərbiyəsi sahəsində çox iş görür."* (İdeoloji ışı daha da gücləndir-

mək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi, 29 oktyabr 1971-ci il).

**BEYNƏLMİLƏLÇİLİK** *is.* – millətlər arasında dostluq və əməkdaşlığı, beynəlxalq həmrəyliyi, şovinizmə qarşı mübarizəni təbliğ edən ideologiya; internasionalizm. Marksizmə görə, proletar beynəlmiləlçilik proletariat ilə imperialist dövlətləri arasındakı ziddiyyətlə əlaqəlidir. Sosialist inqilabının qələbəsindən sonra internasionalizm yeni formalaşmış cəmiyyətin sosial təbəqələşməsi, sinifləri olmayan, milli dövlət anlayışının yox olduğu kommunizmə gəlib çatacağı bir ideologiyasına çevrilməli idi. *"Azərbaycan Kommunist Partiyasının və fəhlə sinfinin gözəl* ***beynəlmiləlçilik*** *ənənələrinin təməli inqilabdan əvvəlki illərdə, kapitalizmə və çarizmə qarsı mübarizə illərində qoyulmuşdur."* (İdeoloji işi daha da gücləndirmək sahəsində Respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi, 29 oktyabr 1971-ci il); *"Beynəlmiləlçilik ənənələri bizim çox böyük sosial və mənəvi sərvətimizdir."* (Azərbaycan yazıçılarının v qurultayında nitqi. 1 iyun 1972-ci il).

**BƏDİİ-REALİST** *sif.* – ədəbiyyatda həyati reallığını özünün tipik xüsusiyyətlərində canlandırmaq məqsədi daşıyan istiqamətlə bağlı. *Klassik Azərbaycan ədəbiyyatı*

*öz inkişafında insana böyük məhəbbətlə dolu olan ecazkar, fəlsəfi lirikanın, orta əsrlərin ictimai və mənəvi buxovları əleyhinə çevrilmiş üsyankar, azadfikirli şefinin parlaq yollarından keçmişdir, böyük rus ədəbiyyatının inqilabi-demokratik və* ***bədii-realist*** *nailiyyətlərini fəal surətdə öyrənib mənimsəmişdir və yalnız bu yolları qət etdikdən sonra XX əsrin ideya və estetik zirvələrinə yüksəlmişdir."* (Azərbaycan yazıçılarının VI qurultayında nitqi. 26 may 1976-cı il)

**BƏRABƏRHÜQUQLU** *sif.* – **1.** Azərbaycan Respublikasının diplomatik arenada digər dövlətlərlə eyni imtiyazlara malik olması. *"Lakin demokratikləşdirmə, siyasi plüralizm yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, bütün ölkələr – həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz bütün ölkələrlə* ***bərabərhüquqlu****, qarşılıqlı surətdə faydalı münasibətlər saxlamalıdır."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Alı Sovetinin sədri Heydər Əliyevin və ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri Mario Raffaellinin birgə mətbuat konfransında bəyanatı 14 iyul 1993-cü il); *"Vəzifə dünyanın bütün dövlətləri ilə* ***bərabərhüquqlu****, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də Respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək-*

*dən ibarətdir."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993);

**2.** Azərbaycan Respublikası vətəndaşlarının cinsindən, dinindən, irqindən, etnik mənsubiyyətindən asılı olmayaraq eyni hüquqlara malik olması. *"Hər bir şəxs* ***bərabərhüquqlu*** *vətəndaşdır."* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993); *"Biz hər şeyi edəcəyik ki, hər hansı millətdən olan Azərbaycan vətəndaşları özlərini nəinki* ***bərabərhüquqlu*** *hiss etsinlər, həm də özlərinin bu günü, sabahı üçün həqiqətən arxayın olsunlar."* (Milad bayramı münasibətilə Bakıdakı kamera musiqisi salonunda keçirilən mərasimdə respublikanın pravoslav xristianlarına müraciəti. *7 yanvar 1995*).

**BƏNƏZİR BHUTTO** [*sindh.* بينظير پٹو; *urdu.* بينظير بھٹو] *xüs.is.* – 1988-1990 və 1993-1996-cı illərdə Pakistan İslam Respublikasının baş naziri olmuş siyasi xadim (1953-2007). *"Pakistanın baş naziri xanım* ***Bənəzir Bhuttonu*** *respublikamıza səfərə dəvət etmişəm. Beləliklə, biz dövlətlərarası əlaqələri çox yüksək səviyyədə inkişaf etdirəcəyik."*(Pakistan prezidenti Fərrux Əhməd Xan Leqarinin Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinin yataqxanasında müvəqqəti məskunlaşmış Füzuli, Kəl-

bəcər. Zəngilan, Cəbrayıl qaçqınlar ilə görüşündə çıxışı. *11 oktyabr 1995*).

**BƏYANAT** [*ər.* بيانات] *is.* – hökumət və ya dövlət başçısının bir məsələ ilə bağlı media vasitəsilə verdiyi açıqlama, rəsmi olaraq verilən izahat və ya məlumat. *"Xram çayı üzərində olan, Ermənistanı Gürcüstanla birləşdirən körpünün partladılması ilə əlaqədar Ermənistan Respublikasının prezidenti cənab Levon Ter-Petrosyanın **bəyanatı** məni son dərəcə təəccübləndirdi. Mən baş verən hadisədə Azərbaycan Respublikasının əli olması barədə ittihamları qətiyyətlə rədd edirəm və bu **bəyanatı** tamamilə sübutsuz, heç bir əsası olmayan **bəyanat** sayıram."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

◊ **Bəyanat vermək –** bir məsələ ilə bağlı hökumət və ya dövlət başçısı tərəfindən rəsmi məlumat bildirmək. *"O vaxtlar Rusiya Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Nazirlər Soveti layiqli **bəyanat vermiş**, amma erməni tərəfi heç üzr də istəməmişdir."* (Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin əlahiddə tapşırıqlar üzrə səfiri V. Kazimirovla görüşdə çıxışı. 31 yanvar 1994); *"Onlar* [Ermənistan tərəfi] *Dağlıq Qarabağa yalnız və yalnız dövlət statusuvermək şərti ilə Azərbaycanın digər rayonlarının ərazisini işğaldan azad etmək haqda **bəyanat verirlər**."* (Kanada parlamentinin Xarici İşlər və beynəlxalq ticarət komitəsinin sədri bill qrehem başda olmaqla bu ölkənin nü-

mayəndə heyətini qəbul edərkən söhbətindən. 10 may 2000).

**BƏYANNAMƏ** [*ər.* bəyan بيان "açıqlama" + *fars.* نامه namə "məktub"] *is.* – dövlət və hökumət başçılarının ölkədaxili və ölkəxarici siyasət prinsiplərinə və ya xarici məsələlərə öz mövqeyini bildirmək üçün verdiyi bəyanat. *"Axı **bəyannamə**dən sonra növbə müqavilələrindir və əgər hər şey qaydasındadırsa, onda həmin müqavilələr imzalanacaqdır."* ("Mən sizə heç nə vəd etmirəm". "Sobesednik" qəzetinə müsahibəsi. 10 avqust 1993).

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI (BMT)** [*ing.* United Nations (UN)] *xüs.is.* – 1945-ci il oktyabrın 24-də San-Fransiskoda dünyanın 50 dövləti tərəfindən dünyada sülh və təhlükəsizliyin qorunması və dövlətlər arasında əlaqələrin inkişaf etdirilməsi məqsədilə yaradılmış təşkilat. Hazırda BMT-nin tərkibinə 193 ölkə daxildir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. Adıçəkilən təşkilatın Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalı ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələrində erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbləri öz əksini tapmışdır. *"Bundan sonrakı hadisələr, yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, **Birləşmiş Millətlər Təşkilatı** tərəfindən tanın-*

*ması təbii bir haldır və beynəlxalq dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il); *"**Birləşmiş Millətlər Təşkilatı** qərar qəbul etmişdir ki, Ermənistana köməklik göstərilsin."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında keçirilən müşavirədə çıxışı. 12 mart 1993-cü il); *"Bilirsiniz ki, yaxın günlərdə Amerika Birləşmiş Ştatlarında, Nyu-Yorkda **Birləşmiş Millətlər Təşkilatı** Baş Məclisinin sessiyası başlanacaqdır. Mən bu məclisdə iştirak etmək fikrindəyəm."* (Azərbaycan Milli Televiziyası və Radiosu ilə çıxışı. 22 sentyabr 1994).

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ MƏCLİSİ** [*ing.* The UN General Assembly (UNGA)] – Birləşmiş Millətlər Təşkilatının (BMT) əsas siyasət yürüdən orqanı. Təşkilati üzv dövlətlərin iştirakı ilə nizamnaməsinə daxil olan beynəlxalq məsələlərlə bağlı çoxtərəfli müzakirələr funksiyasını yerinə yetirir. *"Müstəqil Azərbaycan Respublikasının dövlət başçısı, prezidenti ilk dəfədir ki, Amerika Birləşmiş Ştatlarına, ən nüfuzlu beynəlxalq təşkilat olan **Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi**nin sessiyasında iştirak etməyə gəlmişdir."* (Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə çıxışı. 26 sentyabr 1994).

**BİRLİK** *is.* – həyat şəraitinin oxşarlığı, norma və dəyərlərlə, sosial identifikliyin dərk edilməsi və təşkilati münasibətlərlə bağlı olan insan toplumu. *"Bizim yeni **birliy**imiz - İttifaq **birliy**imiz də, şübhəsiz, bu cür parlaq nəticələr verəcəkdir."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Ancaq biz bu günlərdə nəyin bahasına olursa-olsun milli **birlik** yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır: bu milli **birlik** hansı platforma əsasında hasil ola bilər, hansı platforma əsasında biz buna nail ola bilərik?"* (Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı. 29 avqust 1991-ci il); *"İndi Azərbaycan Respublikası üçün, Azərbaycanın dövlətçiliyi üçün **birlik**, milli həmrəylik, milli **birlik**, vətəndaş **birliy**i hava, su kimi lazımdır."* (Azərbaycan milli televiziyası ilə xalqa müraciəti. 23 avqust 1993).

**BİRLİK DÖVLƏTLƏRİ** b a x **MDB**. *"Bizim qəti inamımız belədir ki, **Birlik dövlətləri**nin təhlükəsizliyi xarici sərhədlərin təhlükəsizliyindən daha çox ümumi evimizdə sülh və sabitlik olmasından asılıdır."* (MDB dövlət başçıları şurasının iclasında bəyanatı. 24 dekabr 1993); *"Bildiyiniz kimi, Aşqabatda Azərbaycan təklif etmişdi ki, **Birlik dövlətləri**ndə siyasi vəziyyəti sabitləşdirməyə və MDB üzvü olan dövlətlərdən hər birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı surətdə tanınmasını və bunlara hörmət olunmasını təmin etməyə yönəldilmiş ikitərəfli və çoxtərəfli sazişlər sistemi işlənib hazırlansın."*

(MDB dövlət başçıları şurasının iclasında Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində genişmiqyaslı hücumları ilə əlaqədar bəyanatı. 15 aprel 1994).

**BLOKADA** [*alm.* Blockade < *ing.* to block "bağlamaq"] *is.* – obyektin bütün xarici əlaqələrini kəsərək təcrid edilməsinə yönəldilmiş əməliyyat.*"Ermənistan-Azərbaycan münaqişəsi başlayandan Naxçıvan Muxtar Respublikası **blokada**dadır. Çünki Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən yollar Ermənistanın ərazisindən keçirdi. Dəmir yolu, avtomobil yolu, elektrik xətləri, qaz xətləri, telefon xətləri - hamısı kəsilibdir."* (Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000); *"Mən öz növbəmdə çatdırdım ki, əgər Ermənistanın **blokada**da olmasından danışırsınızsa, Naxçıvan ondan da pis vəziyyətdədir. Birləşmiş Millətlər Təşkilatı qərar qəbul etmişdir ki, Ermənistana köməklik göstərilsin. Əgər əsas səbəb **blokada** şəraitidirsə, deməli Naxçıvana da köməklik göstərilməlidir."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında keçirilən müşavirədə çıxışı. 12 mart 1993-cü il. Qayıdış: 1990-1993.-Bakı: Azərbaycan nəşriyyatı, 2008, s.397-399.); □ **İqtisadi blokada** – bir dövlətin havada və quruda olan sərhədlərinin qonşu dövlətlər tərəfindən təcrid vəziyyətinə salınması. *"Hörmətli cənab Prezident! 1992-ci ilin noyabr ayında Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş Ermənistan Respublikasının prezidenti L. Ter-Petrosyanın xahişinə cavab olaraq uzun müddət **iqtisadi bloka-***

***da*** *şəraitində olması ilə əlaqədar bu respublikaya humanitar yardım göstərilməsini qərara almışdır."* (Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintona müraciəti. 20 yanvar 1993-cü il); *"Naxçıvanı* ***iqtisadi blokada****dan çıxarmaq üçün Ermənistanın ərazisindən keçən Naxçıvan-Bakı dəmir yolunun, elektrik və qaz xətlərinin işinin bərpası sahəsində edilən cəhdlərimiz heç bir müsbət nəticə verməmişdir."*(Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintona müraciəti. 20 yanvar 1993-cü il. Bakı: Azərbaycan nəşriyyatı, 2008, s.756-757).

**BMT** b a x **Birləşmiş Millətlər Təşkilatı.** *"**BMT**-nin Təhlükəsizlik Şurası üç dəfə çox mühüm qətnamə qəbul etmişdir, ATƏM-in Minsk qrupu işğal qoşunlarının Azərbaycan ərazisindən çıxarılması haqqında bir neçə dəfə cədvəl tərtib etmişdir, gah Romada, gah Vyanada, gah da Cenevrədə və daha haradasa dəfələrlə iclaslar keçirmişdir. Özü də dünyanın ən böyük, nüfuzlu beynəlxalq təşkilatlarından – **BMT** və ATƏM-dən, Qarabağ münaqişəsi deyilən məsələnin həlli üçün ATƏM çərçivəsində xüsusi olaraq yaradılmış Minsk qrupundan söhbət gedir."* (ATƏM-in sədri İsveçin Xarici İşlər naziri Marqareta Af Uqlas ilə görüşdə çıxışı. 26 oktyabr 1993).

**BREJNEV** [*rus.* Леонид Ильич Брежнев] *xüs.is.* – Leonid İliç Brejnev (1906-1982). 18 il ərzində ölümünə qədər (1964-1982) Sov.İKP-də ən yüksək rəhbər vəzifəni

tutmuş sovet dövlət xadimi və partiya rəhbəri. *"Belə bir təcrübə formalaşmışdı ki, ölkə daxilində də, ölkə xaricində də Brejnevi təntənəli şəkildə qəbul edirdilər. Və birdən bu evin* [qonaq evi] *ətrafında hay-küy qaldırılır və "aydın olur" ki, bu, məxsusi olaraq* ***Brejnev*** *üçün tikilibdir."*("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**BOLŞEVİK** [*rus.* большеви́к] *is.* – **1.** 1903-cü ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) II qurultayında fikir ayrılığı nəticəsində yaranan radikal qanad (fraksiya). Burada Leninin ardınca gedən Sosial Demokrat Partiyasının inqilabi düşüncəli hissəsinin üzvləri çoxluq təşkil etdiyinə görə, "bolşevik", azlıq təşkil dən müxaliflər isə "menşeviklər" adlandırılmağa başlandı. *"1905-ci ildə N.Nərimanov Bakı bolşevik təşkilatının tərkib hissəsi olan və Bakı Partiya Komitəsinin rəhbərliyi altında işləyən "Hümmət" sosial-demokrat qrupuna daxil oldu. 1917-ci ilin iyun ayında "Hümmət"* ***bolşevik*** *təşkilatının yığıncağı N.Nərimanov başda olmaqla komitə seçdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**2.** Bolşevik Partiyasının üzvü, kommunist, bolşevizmin davamçısı. *"N.Nərimanov, M.B.Basin, A.N.Stopini və digər* ***bolşevik****lər xalq evinin idarə heyətinə seçildikdə xalq evi vasitəsilə də fəhlələr arasında fəal inqilabi iş aparmağa*

*başladılar. Çoxmillətli Bakı proletariatı sosialist inqilabının beşiyi olan Petroqrad şəhərində silahlı üsyanın qələbəsindən ruhlanaraq bu böyük hadisədən bir neçə gün sonra* ***bolşeviklər*** *başda olmaqla Bakıda Sovet hakimiyyəti elan etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**BOYKOT** [*ing.* boycott] *is.* – fiziki şəxs, təşkilat, müəssisə və ya dövlətlə münasibətlərə tam və ya qismən xitam verməyə istiqamətlənmiş siyasi və iqtisadi mübarizə forması. *"Deyirsiniz ki, referendumu* ***boykot*** *edirdiniz, buna görə də mitinq çağırmışdınız. Bu, demokratik hərəkətdir? Nə ixtiyarınız var idi ki, referendumu* ***boykot*** *edəsiniz, bir halda ki, Milli Məclis referendum haqqında qərar çıxarmışdı? Siz referenduma gedib öz səsinizi verə bilərdiniz, təbliğat apara bilərdiniz. Amma* ***boykot*** *etməyə ixtiyarınız yoxdur."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında Respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışı. 29 sentyabr 1993).

**BÖHRAN** [*ər.* بحران] *is.* – siyasi səbəblərdən iqtisadi sistemin dağılması, müharibə, məcburi köçkünlərin ölkəyə axın etməsi və s. nəticəsində respublika vətəndaşlarının rifahının aşağı düşməsi, yoxsulluğun artması, qida qıtlığının yaranması və s. *"Azərbaycanın coğrafi: siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas*

*fondları Respublikanı bu ağır* ***böhran****dan çıxarmağa imkan verir."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993); *"Ölkə ağır sosial-iqtisadi* ***böhran*** *içərisindədir. İqtisadiyyatımız nə qədər* ***böhran*** *keçirsə də, əhalinin başlıca tələbatının ödənilməsi ilə ciddi məşğul olmalıyıq."* (Cəbhəyanı bölgədə – İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**BÖYÜK BRİTANİYA** [*ing.* Great Britain və ya United Kingdom (UK)] *xüs.is.* – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı. Tərkibinə İngiltərə, Uels, Şotlandiya və Şimali İrlandiyanın daxil olduğu Avropanın şimal-qərb sahillərində yerləşən suveren dövlət. Birləşmiş Krallıq Böyük Britaniya adasını, İrlandiya adasının şimal-şərq hissəsini və daha kiçik Britaniya adalarının bir çoxunu əhatə edir. Böyük Britaniya unitar parlament demokratiyasına malikdir və konstitusiyalı monarx dövlətidir. *"Birinci dünya müharibəsindən sonra Azərbaycanda ilk demokratik respublika yaranarkən* ***Böyük Britaniya*** *1919-cu ildə Azərbaycanı müstəqil dövlət kimi ilk tanıyanlardan olmuşdur. Bundan sonrakı illərdə də* ***Böyük Britaniya*** *ilə Azərbaycan arasında iqtisadi, elmi-mədəni əlaqələr mövcud idi. 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etmiş və* ***Böyük Britaniya*** *yenə Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələrdəndir. Bundan sonra* ***Böyük Britaniya*** *ilə Azərbaycan arasında*

*əlaqələr daha da sürətlə inkişaf etmişdir və bu gün biz həmin əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edə bilərik."* (Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər və Birlik İşləri üzrə dövlət katibi Malkolm Rifkindin şərəfinə rəsmi ziyafətdə nitqi. 4 yanvar 1995).

**BÖYÜK MİLLƏT MƏCLİSİ** *xüs.is.* – Türkiyənin birpalatalı parlamentinin adı. *"**Böyük Millət Məclisi**nin zəngin bir tarixi var. Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, **Böyük Millət Məclisi**nin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum."* (Türkiyə Böyük Millət Məclisində çıxışı. 9 fevral 1994); *"Şükürlər olsun ki, biz artıq **Böyük Millət Məclisi**ni də görmüşük. Onun işində də iştirak etmişik. **Böyük Millət Məclisi**nin nümayəndələri bu gün bizim aramızdadırlar."*(Türkiyə prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan Respublikası Milli Məclisi üzvlərinin görüşündə nitqi. 8 dekabr 1995); *"Bu münasibətlə mən **Böyük Millət Məclisi**ni də təbrik edirəm, belə yekdilliklə dövlət başçısı seçdiyi üçün təşəkkür edirəm."* (Türkiyənin Xarici İşlər naziri İsmayıl Cəm ilə görüşdə söhbəti. 29 may 2000).

**BUNDESTAQ** [*alm.* Bundestag] *is.* – Almaniya Federativ Respublikasının xalq nümayəndəliyinin birpalatalı orqanı; Almaniyanın Milli Parlamenti. *"Sonra*

*Almaniya **bundestaq**ının üzvü cənab Vimmer mənimlə söhbət edəndə onlarda da bu qədər partiyanın olmadığını bildirdi."* (Böyük Britaniyanın Bakıdakı səfirliyinin yeni binasının açılışı mərasimində çıxışı. *24 avqust 1995*); *"Keçmiş xarici işlər naziri cənab Kinkel də Azərbaycanda olubdur, iqtisadiyyat naziri də, bir çox başqa nazirlər də və **bundestaq**ın deputatlarından da bir çoxu Azərbaycanda olubdur. Azərbaycana ən çox gələn deputatlardan cənab Vimmer yadımdadır."* (Almaniya bundestaqının deputatı, bundestaqin "Qafqaz qrupu"nun üzvü doktor xanım İrmqard İvaytseri qəbul edərkən söhbətindən. 17 iyul 2000).

**BURJUAZİYA** [*rus.* буржуазия < *fr.* Bourgeoisie] *is.* – mülkiyyətə, istehsalat vasitələrinə (pul vəsaiti, torpaqlar, patentə) sahib olan və bunlardan gələn gəlirlə varlanan sosial sinif. Marksist fəlsəfəyə görə, sənayeləşmə zamanı istehsalat vasitələrinin sahibinə çevrilən, sosial maraqları sahibkarlıq dəyərləri ilə ölçülən, cəmiyyətdə iqtisadi hakimiyyətini təmin etmək üçün kapitalını qoruyan sosial təbəqə. *"Birinci rus inqilabı dövründə yazdığı publisistik məqalələrində N.Nərimanov çarizm, kadetlərin və digər burjua partiyalarının əksinqilabi siyasətini, liberal **burjuaziya**nın canfəşanlıqla yaydığı konstitusiya xülyalarını amansızcasına ifşa etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

# C

**CƏBHƏÇİ(LƏR)** *is.* – Azərbaycan Xalq Cəbhəsinin üzvləri. B a x **Xalq Cəbhəsi.** *"Onlar güman edirdilər ki, **cəbhəçilər**in nümayəndələridirlərsə, deməli, istədiklərini edə bilərlər."* ("Mən sizə heç nə vəd etmirəm". "Sobesednik" qəzetinə müsahibəsi. 10 avqust 1993); *"Lakin buna baxmayaraq, **cəbhəçilər** BMP, BTR vasitəsilə televiziyanın qapısını və divarını dağıdaraq içəri soxulmuş və televiziyada olan bir milyon manat dəyərində avadanlığı dağıdaraq çıxıb getmişlər."* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il); *"Söz düşmüşkən, onu da deyim ki, mən Naxçıvanın rəhbəri olarkən xalq **cəbhəçilər**ini rəhbər vəzifələrə respublikada birinci olaraq təyin etmişdim."* ("Mən xalqa minnətdaram". "Rossiyski fermer" qəzetinin müxbiri ilə söhbəti. 3 avqust 1993).

**CƏNUBİ AZƏRBAYCAN** – günümüzdə İran İslam Respublikasının şimal əraziləri olan və etnik Azərbaycan türklərinin yaşadığı bölgələr. *"Şairin yeni əsərlərində də biz çox zaman **Cənubi Azərbaycan** mövzusuna rast gəlirik, bu əsərlər onun çoxmilyonlu xalqının arzu və istəklərini əks etdirir."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).

# Ç

**ÇARİZM** [*rus.* царизм < *lat.* Caesar] *is.* – Rusiya imperiyasının siyasi rejimini ifadə edən siyasi klişe. Burada ali hökmdarın – çarın, yəni imperatorun avtokratik rolu hökm sürmüşdür. *"Azərbaycan Kommunist Partiyasının və fəhlə sinfinin gözəl beynəlmiləlçilik ənənələrinin təməli inqilabdan əvvəlki illərdə, kapitalizmə və **çarizm**ə qarsı mübarizə illərində qoyulmuşdur."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Rusiyada bəzən başqa millətin nümayəndəsi – hələ **çarizm** vaxtında, Lenin bunu əsrin əvvəlində demişdi – digər millətdən olan insanlar ruslaşıb daha çox rus olurdular, necə deyərlər, "Roma papasının özündən də qatı katolik olmaq istəyirdilər".* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

**ÇAR QURULUŞU** – 1547-1721-1917-ci illər ərzində mövcud olmuş Rusiya İmperiyasının dövlət quruluşu. *"Biz Ukrayna proletariatını, **çar quruluşu**na hücum edən "Arsenal" inqilabçılarını əyani şəkildə təsəvvür etdik."* (Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçılarının şərəfinə qəbulda nitqindən. 10 oktyabr 1979-cu il).

**ÇERNOMIRDİN** [*rus.* Ви́ктор Степа́нович Черномы́рдин] *xüs.is.* – Viktor Stepanoviç Çernomırdin (1938-2010). Rusiya Federasiyası Nazirlər Şurasının sədri, Rusiya Federasiyası Hökumətinin sədri (1992-1998), Rusiya Federasiyası Prezidentinin səlahiyyətlərini icra edən (5-6 noyabr 1996-cı il), Rusiyanın Ukraynadakı səfiri (2001-2009). 11 iyun 2009-cu ildən ömrünün sonuna kimi Rusiya Federasiyası Prezidentinin müşaviri, Rusiya Federasiyası Prezidentinin MDB-yə üzv dövlətlərlə iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi. *"Mən B. Yeltsin və V. **Çernomırdin**lə, digər rəsmi şəxslərlə görüşmüşəm, biz bir sıra mühüm sənədlər imzalamışıq, MDB-yə daxil olmuşuq."* ("Rossiyskaya qazeta"nın müxbirinə müsahibəsi. 18 iyun 1994).

**ÇEVRİLİŞ** *is.* – dövlət çevrilişi, hakimiyyətin devrilməsinə silahlı cəhd. Azərbaycanda Heydər Əliyevə qarşı aşağıdakı sui-qəsd etməklə çevriliş cəhdi baş vermişdir: 1) 1994-cü ilin oktyabrında çevriliş; 2) 1995-ci ilin mart ayında çevriliş; 3) 1995-ci ildə Heydər Əliyev xarici səfərdən qayıdarkən onun mindiyi təyyarənin raketlə vurulması terroru; 4) 1996-cı ildə Bakıdan hava limanına gedən körpünü partlatmaq məqsədilə altına 200 kiloqramlıq trotil qoyma; 5) 1996-cı ilin dekabrında Prezident iqamətgahını zəbt etməyə cəhd göstərmə. *"Naxçıvanın Xalq Cəbhəsi yeganə məqsəd güdürdü: dövlət **çevrilişi***

*etmək və hakimiyyəti ələ keçirmək. Biz bu hadisəni Naxçıvan Ali Məclisində müzakirə etdik. Deputatlar onu dövlət çevrilişinə cəhd kimi qiymətləndirdilər."* ("Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxuram" "Nezavisimaya qazeta" müxbirinə müsahibəsi (27 yanvar 1993-cü il); *Bilirsiniz, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyi əldə edəndən burada üç dəfə silahlı dövlət* ***çevrilişi*** *cəhdi olmuşdur.* ("Nyu-York tayms" qəzetinin redaksiya heyətinin üzvləri ilə görüşdə söhbəti. 16 fevral 2000).

**ÇƏKİŞMƏ** *f.is.* – burada: hakimiyyət uğrunda münaqişə, mübarizə. *"Bir tərəfdən "Talış-Muğan Respublikası" yaratmaq istəyən quldur dəstələri, ikinci tərəfdən süni surətdə "ləzgi problemini" ortaya atan adamlar, üçüncü tərəfdən guya başqa etnik qrupların mənafeyini müdafiə edənlər – bunların hamısı dövlət rəhbərliyinin siyasətində böyük səhvlərin nəticəsində, eyni zamanda həmin rəhbərliyin daxilində gedən* ***çəkişmə****lərin nəticəsində, yenə də hakimiyyət uğrunda mübarizə nəticəsində meydana çıxdı."* (Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Milli Televiziya və Radio ilə xalqa müraciəti. 2 noyabr 1993).

**ÇİN** *xüs.is.* – Çin Xalq Respublikası (ÇXR). *"****Çin*** *ilə Azərbaycan arasında münasibətlər bu yaxınlarda yaradılmışdır."*(Azərbaycan Respublikası Prezidentinin İşlər İdarə-

sinin Pekin İctimai Elmlər Akademiyasında çıxışı. 9 mart 1994).

**ÇXR** B a x **Çin**. *"Biz də böyük məmnunluq hissi ilə qeyd edirik ki, inqilabdan sonra **ÇXR**-in mövcud olduğu illər ərzində Çin xalqı dünya birliyində layiqli yer tutmuş, Çin Xalq Respublikası bütün dünyada böyük beynəlxalq nüfuz qazanmışdır və indi dünya miqyasında ictimai-siyasi inkişaf proseslərinə olduqca böyük təsir göstərir."*(Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Pekin İctimai Elmlər Akademiyasında çıxışı. 9 mart 1994).

**ÇOXMİLLƏTLİ** *sif.* – 2-dən çox milləti olan. *"Bəli, bunu **çoxmillətli** ölkədə qəbul etmək olardı, lakin bir şərtlə ki, hər bir xalq öz dilini də inkişaf etdirsin."* (Ümum-Rusiya "Rifah" ic-timai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000); *"Azərbaycan zəhmətkeşləri üçün böyük qardaşımız böyük rus xalqının, çoxmillətli Rusiya Federasiyasının bütün xalqlarının elçilərindən daha əziz qonaq yoxdur və ola da bilməz."*(Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin açılışında nitqi (3 oktyabr 1972-ci il).

**ÇOXPARTİYALI CƏMİYYƏT** – demokratik təmayüllər nəticəsində cəmiyyətdə müxtəlif siyasi cərəyanların əmələ gəlməsi. *"Bunların yaranması və inkişaf etməsi üçün Azərbaycan dövləti bütün imkanları təmin edəcək-*

*dir və* ***çoxpartiyalı cəmiyyət****, demokratik prinsiplərin bərqərar olduğu cəmiyyət, şübhəsiz, Azərbaycanın müstəqil bir dövlət kimi inkişafına kömək edəcəkdir.* ***Çoxpartiyalı cəmiyyət****də müxalifətin də böyük rolu var."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993).

**COXPARTİYALILIQ** *is.* – bir dövlətdə vətəndaşların siyasi partiyalarda öz siyasi baxışlarına uyğun birləşmə hüququ. Azərbaycanda ilk dəfə 1991-ci il 18 oktyabr "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında bəyan edilmiş, 1995-ci il Azərbaycan Konstitusiyasında təsbit edilmişdir. *"İndi ümumiyyətlə bizim ölkədə, Sovet İttifaqında, o cümlədən, Azərbaycanda* ***çoxpartiyalılıq*** *prinsipi artıq həyata keçir."* (Heydər Əliyevlə müsahibə. Avqust, 1990); *"Biz isə* ***çoxpartiyalılıq*** *mərhələsinə yenicə yaxınlaşmışıq, madam ki, söhbət siyasi mənzərədən gedir, onda kəmiyyət göstəriciləri yalnız kənar, qeyri-peşəkar müşahidəçiləri razı sala bilər."* ("Nezavisimaya qazeta"ya müsahibəsi. 30 avqust 1993); *"Mən elə o vaxtlar da* ***çoxpartiyalılıq*** *tərəfdarı olmuşdum."* (Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994).

**ÇOXPARTİYALI SİSTEM** – siyasi proseslərdə real şəkildə iştirak etmək imkanına malik bir və ya ikidən

artıq çoxlu sayda partiyanın mövcudluğu. *"Azərbaycanda siyasi plüralizm, **çoxpartiyalı sistem** əsasında demokratik dövlət qurmaq niyyətindəyik."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993); *"Özümün siyasi fəaliyyətdən kənar olduğum vaxtlarda, indi isə Azərbaycanın prezidenti kimi mən Azərbaycanda **çoxpartiyalı sistem**in bərqərar olması üçün şərait yaratmağa çalışıram və hesab edirəm ki, Azərbaycanda çox partiyalı sistem olmalıdır, Azərbaycan **çoxpartiyalı sistem** şəraitində demokratik cəmiyyət, demokratik dövlət, hüquqi dövlət qurmaq yolu ilə getməlidir."* (Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumruspublika müşavirəsində nitqi. 19 noyabr 1994).

**ÇÜRÜMÜŞ ÇARİZM** *məc.* – XX əsrin əvvəllərində hakimiyyət mövqelərini itirən Çar Rusiyası. *"Ukrayna xalqının zəngin tarixi, onun sosial və milli qurtuluş uğrunda mübarizəsinin mərhələləri, **çürümüş çarizm**lə inqilabi çarpışma illəri, gizli inqilabi fəaliyyət illəri, inqilab illəri sizin yaradıcılığınız vasitəsilə gözlərimiz qarşısında canlanırdı."* (Heydər Əliyevə "oraq və çəkic" qızıl medalının təqdim edilməsi mərasimində çıxışı. 6 sentyabr 1979-cu il).

# D

**DAĞLIQ QARABAĞ VİLAYƏTİ** *xüs.is.* – Dağlıq Qarabağ Muxtar Vilayəti. Azərbaycan SSR-nin Dağlıq Qarabağ bölgəsində 7 iyul 1923-cü ildə yaradılmış və mövcudluğunu 26 noyabr 1991-ci il tarixinədək davam etdirmiş inzibati ərazi vahidi. *"Biz Ermənistanın bir metr də olsa ərazisini tutmamışıq, amma erməni silahlı birləşmələri – Siz hərbi adamsınız, bunu çox yaxşı bilirsiniz – Azərbaycan ərazisinin, o cümlədən onun keçmiş **Dağlıq Qarabağ Vilayəti**nin hüdudlarından kənardakı ərazisinin təxminən 20 faizini işğal etmişlər."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**DAXİLİ İŞLƏR NAZİRLİYİ** *xüs.is.* – Respublikada cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, asayişin, əmin-amanlığın təminatı ilə məşğul olan dövlət orqanı. *"**Daxili İşlər Nazirliyi**, polis orqanları gərək həm güclü, həm mənəviyyatca sağlam, həm də dəmir nizam-intizamlı bir təşkilat olsun."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**DAXİLİ SABİTLİK** – bir dövlətin sərhədləri çərçivəsində daxili və xarici müdaxilələr olmadan vətəndaşların təhlükəsiz və stabil həyat tərzi. *"Bu ilin iyun ayında Azərbaycanda **daxili sabitlik** tam pozulmuş, Respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, separatçı qüvvələrin Respublikanı parçalamaq meyllərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993); *"Əgər son iki il ərzində, Azərbaycanın müstəqil dövlət olduğu dövrdə respublikanı etibarlı müdafiə etmək üçün lazımi silahlı qüvvələr yaransaydı, **daxili sabitlik** olsaydı və bütün qüvvələr torpaqlarımızı qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə yönəldilsəydi, indi bu günə düşməzdik."* (Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışı. 4 noyabr 1993).

**DAXİLİ SİYASƏT** – dövlət siyasətinin ölkə sərhədləri daxilində olan bütün problem və fəaliyyətlərinin (qanunlar, inzibati qərarlar, hökumət proqramları və s.) həllinə, səhiyyə, hüquq-mühafizə, biznes, enerji, kənd təsərrüfatı, təhsil, maliyyə və vergilər, təbii ehtiyatlar, sosial təminat və şəxsi hüquq və azadlıqlar kimi geniş sahələrin idarəsinə yönəlmiş strateji proqramı. *"Bizim **daxili siyasət**imiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında gedəcəkdir."* (Azərbaycan Respublikasının Prezidentinin an-

diçmə mərasimində nitqi. 10 oktyabr 1993); *"Hansı dövlətin daxili quruluşu,* ***daxili siyasət****i hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993).

**DAXİLİ SİYASİ GƏRGİNLİK** – siyasi qüvvələrin ölkə daxilində sabitliyi və asayişi pozması, dövləti parçalamağa və ya dövlət çevrilişinə cəhd göstərməsi. *"Son günlər görülən tədbirlər nəticəsində xalqımız üçün çox təhlükəli olan vətəndaş müharibəsinin qarşısı alınmış və ölkəmizdə* ***daxili siyasi gərginlik*** *müəyyən qədər azalmışdır."*(Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 2 iyul 1993).

**DAXİLİ SİYASİ İQLİM** – dövlətin sərhədləri çərçivəsində mövcud olan siyasi mühit. *"Lakin Ermənistan tərəfdən Azərbaycan Respublikasına qarşı aparılan müharibə və xüsusən də son günlərdə həmsərhəd rayonlara edilən hərbi hücumlar* ***daxili siyasi iqlim****ə güclü təsir göstərir."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 2 iyul 1993)

**DAXİLİ SİYASİ VƏZİYYƏT** B a x **daxili siyasi iqlim.** *"Dünən Moskvadan gecə saat 12-də "Novosti"proqra-*

*mında belə bir xəbər verildi ki, Dağlıq Qarabağda Minsk konfransının, cənab Raffaellinin nümayəndə heyətinin təklifləri ilə razılaşmayıblar və məsələlərin həllini guya Azərbaycanda **daxili siyasi vəziyyət**in sabit olmaması ilə əlaqədar bir aylığa təxirə salıblar."* ("Mən xalqa minnətdaram". "Rossiyski fermer" qəzetinin müxbiri ilə söhbəti. 3 avqust 1993); *"Bununla bərabər, mən cənab Raffaelliyə də demişəm, bu gün burada bildirirəm ki, hamının xəbəri olsun: əlbəttə, iyunun 4-də Gəncədə baş vermiş hadisələrdən sonra Azərbaycanda daxili siyasi vəziyyət mürəkkəbləşmişdir, amma heç vəchlə demək olmaz ki, sabitlik yoxdur, buna görə də problemi həll etmək olmaz, yaxud bu məsələlərin həlli üçün şərait yoxdur."* ("Mən xalqa minnətdaram". "Rossiyski fermer" qəzetinin müxbiri ilə söhbəti. 3 avqust 1993).

**DANIŞIQ(LAR)** *is.* – siyasi sahəyə aid hər hansı bir məsələni müzakirə etmək və ya həll yolu tapmaq üçün dövlətlərin səlahiyyətli nümayəndələri arasında aparılan siyasi dialoq. *"Burada bəzi natiqlər deyirlər ki, **danışıq** aparmaq lazımdır, filan eləmək lazımdır. Bəli, mən də belə fikirdəyəm."*(Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993). *"Dünən prezident Əbülfəz Elçibəylə **danışıqlar**ımız olub, Gəncədə də mən **danışıqlar** aparmışam, mənimlə gedən şəxslərlə birlikdə və təkbətək. Bu gərginlik, qarşıdurma ancaq sülh*

*yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə,* ***danışıqlar*** *yolu ilə həll olunmalıdır."*(Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993). *"Boris Yeltsinlə görüşlər,* ***danışıqlar****, başqa şəxslərlə görüşlər,* ***danışıqlar*** *oldu."*(Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994). *"Ona görə də hörmətli Büləd Ecevitlə bizim* ***danışıqlar****ımız, əsasən, bu məzmunda olubdur."* (İsveçrədən Bakıya qayıdarkən Binə hava limanında jurnalistlərin suallarına cavabı. 30 yanvar 2000).

**DE-FAKTO** [*lat.* de facto "faktiki olaraq"] *is.* – natamam tanınma. Bir dövlətin yalnız mövcudluq faktının tanınması. Bu zaman diplomatik münasibətlər yaradılmasa da, iş əlaqələri qurulur. De-fakto tanınmış dövlətlər yalnız qeyri-rəsmi diplomatik nümayəndələr mübadiləsi edə bilərlər. *"Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, Azərbaycan sərhədlərinin toxunulmazlığı pozulmuşdur. Lakin bu,* ***de-fakto****dur."* ("Həqiqət anı" televiziya proqramının aparıcısı Andrey Karaulov ilə müsahibəsi. 21 iyun 2000). *"1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**DEKRET** [*lat.* decretum] *is.* – ali hakimiyyətin hansısa məsələyə dair qanuni qüvvəyə malik olan qərarı. *"N.Nərimanov o dövrdə xalq təsərrüfatının bərpa və inkişafına rəhbərlik sahəsində dövlət orqanlarının və idarələrinin fəaliyyətinin bir çox cəhətlərini müəyyən edən ən mühüm **dekret**lərin, qərarların, müraciətnamələrin işlənib hazırlanmasında iştirak edir və yorulmadan çalışırdı ki, partiyanın və hökumətin **dekret**ləri həyata keçirilsin."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Həmin yaradıcılıq kollektivi 1920-ci il iyulun 10-da Dövlət simfonik orkestri yaradılması haqqında **dekret** qəbul edildiyi gün dünyaya gəlmişdir."*(Azərbaycan Dövlət Simfonik Orkestrinin yaranmasının 60 illik yubileyində nitqi. 17 iyul 1982-ci il); *"Ancaq ondan bir il sonra 1920-ci ilin noyabr ayında Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun **dekret**i ilə Azərbaycanda yeni bir ali məktəb, ali təhsil ocağı yaranmışdır."* (Azərbaycan Dövlət Neft Akademiyasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitqi. 15 dekabr 2000).

**DELİMİTASİYA** [*lat. delimitatio*] *is.* – dövlət sərhədi xəttinin müqavilə ilə təyin edilməsi. *"Tərəflər Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin **delimitasiya** və demarkasiyasının mühüm əhəmiyyətini qeyd etmiş və dövlət komissiyalarının işinin davam etdirilməsinin zəruriliyini təsdiq etmişlər."* (Azərbaycan–Gürcüstan

sənədlərinin imzalanması mərasimindən sonra birgə bəyanat və mətbuat konfransi. 22 mart 2000).

**DEMARKASİYA** [*ing.* demarcation] *is.* – sərhədin delimitasiyası haqqında müqavilələrə, onlara əlavə edilən xəritə və təsvirlərə müvafiq olaraq dövlət sərhədi xəttinin yerində müəyyən və qeyd edilməsi. *"Tərəflər Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiya və **demarkasiya**sının mühüm əhəmiyyətini qeyd etmiş və dövlət komissiyalarının işinin davam etdirilməsinin zəruriliyini təsdiq etmişlər."* (Azərbaycan–Gürcüstan sənədlərinin imzalanması mərasimindən sonra birgə bəyanat və mətbuat konfransi. 22 mart 2000).

**DEMOKRATİK** [*yun.* demokratia δημοκρατία "xalq hakimiyyəti" + *yun.* qrafo γράφω "yazıram" + *ing. və fr.* -ic, -ique, < *lat.* –icus *sifət düzəldici şəkilçi*] *sif.* – vətəndaşlara geniş siyasi və sosial-iqtisadi hüquq azadlığını nəzərdə tutan və təminat verən. *"Azərbaycan bundan sonra öz dövlətini **demokratik** prinsiplər əsasında qurmalıdır və dövlət orqanları cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması üçün təminat yaratmalıdırlar."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**DEMOKRATİK CÜMHURİYYƏT** – burada: 1918-ci ilin 28 mayından 1920-ci ilin 28 aprelinə qədər

mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti. *"Son əsrdə ilk dəfə 1918-ci ildə bu, xalqımıza nəsib olmuş, Azərbaycanda ilk* ***demokratik cümhuriyyət*** *yaranmışdır. Azərbaycanın ilk demokratik cümhuriyyəti Şərqdə sivilizasiyalı bir dövlət kimi dünyada tanınmışdır."* (Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə çıxışı. 26 sentyabr 1994).

**DEMOKRATİK DÖVLƏT** – vətəndaş cəmiyyətinə xidmət edən, fərdi, milli, sinfi və mədəni ziddiyyətləri tənzim edən, sosial mənafelərin müdafiəsi və reallaşdırılmasına şərait yaradan, münaqişələri konsensus yolu ilə həll edən hüquqi dövlət. *"Azərbaycanda siyasi plüralizm, çoxpartiyalı sistem əsasında* ***demokratik dövlət*** *qurmaq niyyətindəyik."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993). *O* [Azərbaycan Xalq Cümhuriyyəti]*,* ***demokratik dövlət*** *quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır."*(Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**DEMOKRATİKLƏŞDİRMƏ** *f.is.* – demokratik cəmiyyətin yaradılması və möhkəmləndirilməsinə yönəl-

dilmiş çoxistiqamətli siyasi dəyişikliklər prosesi. *"Ali Məclis tərəfindən qəbul edilmiş bütün sənədlər və **demokratikləşdirmə** prosesləri muxtar respublika əhalisi tərəfindən bəyənilir və müdafiə edilir."* (RSFSR prezidenti B.N.Yeltsinə, RSFSR Ali Sovetinə müraciəti. 9 sentyabr 1991-ci il); *"Lakin **demokratikləşdirmə**, siyasi plüralizm yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, bütün ölkələr – həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər saxlamalıdır."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Alı Sovetinin sədri Heydər Əliyevin və ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri Mario Raffaellinin birgə mətbuat konfransında bəyanatı. 14 iyul 1993-cü il).

**DEMOKRATİYA** [*yun.* δημοκρατία "xalq hakimiyyəti"] *is.* – vətəndaşların irqindən, etnik mənsubiyyətindən, dini və siyasi görüşlərindən asılı olmayaraq söz azadlıqlarının bərqərar olduğu və hüquqlarının qorunduğu dövlət idarə-üsulu forması. *"Biz **demokratiya**nı inkişaf etdirərək, siyasi plüralizmə şərait yaradaraq, demokratik dövlət qurmaq əzmində olaraq, eyni zamanda həm cəmiyyətdə, həm də dövlətdə nizam-intizamı möhkəmlətməliyik."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993-cü il); *Azərbaycan Respublikası **demokratiya** yolu ilə getməlidir və heç vaxt to-*

*talitar sistemə, kommunist rejiminə qayıtmamalıdır."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında Respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışı. 29 sentyabr 1993-cü il); *"Mən artıq çoxdan, Azərbaycana gələn kimi elan etmişəm ki, respublikamız demokratikləşmə, demokratik hüquqi dövlət quruculuğu yolu ilə dünya* ***demokratiya****sının təcrübəsindən istifadə etməklə,* ***demokratiya****nın bütün atributları ilə demokratik cəmiyyət quruculuğu yolu ilə getməlidir."*(Moskvaya uçarkən təyyarədə "Delovoy mir" qəzetinin müxbirinə müsahibəsi. 8 sentyabr 1994).

**DEMOQRAFİK** [*yun.* dimos δῆμος "xalq" + *yun.* qrafo γράφω "yazıram" + *ing. və fr.* -ic, -ique, < *lat.* -icus *sifət düzəldici şəkilçi*] *sif.* – əhalinin reproduktiv (vəziyyəti). *"Ermənistan münaqişənin başlanmasınadək Dağlıq Qarabağda mövcud olmuş* ***demoqrafik*** *vəziyyətin bərpasını və azərbaycanlı əhalinin oraya qaytarılmasını, o cümlədən Azərbaycan mədəniyyətinin ən qədim mərkəzlərindən biri olan Şuşaya qaytarılmasını tamamilə istisna edir."* (BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 29 sentyabr 1994).

**DEPARTAMENT** [*fr.* Département "bölmə"] *is.* – burada: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti [*ing.* United States Department of State *və ya* State Department)], federal icra orqanı, ABŞ Federal Höku-

mətinin tərkibində beynəlxalq siyasətin aparılması və həyata keçirilməsinə cavabdeh olan nazirlik. *"Bundan əlavə, son vaxtlar ABŞ Dövlət **Departament**i, Türkiyə rəhbərliyi, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi bəyanatlar vermişlər."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Respublika Ali Sovetinin sədri Heydər Əliyevin mətbuat konfransında bəyanatı. 10 sentyabr 1993); *"Mən Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə, İstanbulda ABŞ-ın dövlət katibi cənab Kristoferlə, Bakıda cənab Klintonun xüsusi nümayəndəsi, onun kabinetinin üzvü xanım Olbraytla, Dövlət **Departament**i rəhbərinin müavini cənab Talbott ilə, həmin departamentin yüksək vəzifəli işçisi cənab Kollinzlə görüşmüşəm."* (Respublika Milli Televiziyası və Radiosu ilə çıxışı. 3 oktyabr 1994); *"Amerika Birləşmiş Ştatlarının Dövlət **Departament**i, İngiltərənin Xarici İşlər Nazirliyi, Fransanın, İranın və başqa ölkələrin xarici siyasət orqanları öz dövlətləri adından bəyanatlar veriblər."* (Ümumrespublika həmrəylik mitinqində çıxışı. 5 oktyabr 1994).

**DEPUTAT TOXUNULMAZLIĞI** – Azərbaycan Konstitusiyasına görə, deputatın müstəqil fəaliyyətinin hüquqi təminatı. Milli Məclis deputatının şəxsiyyəti, evi, mənzili, əşyaları, şəxsi və xidməti nəqliyyat vasitələri, istifadə etdiyi rabitə vasitələri, ona məxsus sənədləri, yazışmaları səlahiyyət müddəti ərzində toxunulmazdır. Bu, deputatın heç nədən, heç bir orqandan və heç

kimdən çəkinmədən fəaliyyət göstərə bilməsi üçündür. *"Sonra Milli Məclisin sessiyası çağırıldı. Əsas müqəssirlər* ***deputat toxunulmazlığı****ndan məhrum edildi və həbsə alındılar."*(Yazıçı Aleksandr Proxanovla müsahibəsi. 12 avqust 1993).

**DESTRUKTİV** [*lat.* destructio "dağılma"] *sif.* – bir şeyin məhvinə aparan, dağıdıcı, məhvedici, fəlakətə sürükləyən, viranedici, qovğalı, fəlakətli; səmərəsiz. *"Ancaq Ermənistanın daim* ***destruktiv*** *mövqe tutması, Azərbaycanın torpaqlarını işğal etdiyinə görə özünü haqlı, üstün hesab etməsi və beynəlxalq təşkilatların, Minsk qrupunun, onun həmsədrləri Rusiyanın, Amerika Birləşmiş Ştatlarının, Fransanın Ermənistana lazımi təsir göstərə bilməməsi bu problemin indiyə qədər həll olunmasına imkan verməyibdir."* (28 may – Respublika günü münasibətilə keçirilən təntənəli mərasimdə nitqi. 27 may 2000).

**DESTRUKTURİZASİYA** [*ing.* destructuration] *is.* – strukturun ləğv olunması prosesi. *"Bununla bərabər, daha da çox önəmli – sizin Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi, ümumiyyətlə,* ***destrukturizasiya*** *problemlərinin həll olunması sahəsində bizə yardımınız, məsləhətləriniz bizim üçün çox əhəmiyyətlidir."* (Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri David Oyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbəti. 31 yanvar 2000).

**DEZİNFORMASİYA** [*fr.* des "inkaretə" + inforamtion "məlumat"] *is.* – bilərəkdən yanlış və ya əsassız məlumatların yayılması. *"O məqalələrin müəllifləri çalışırlar sübut etsinlər ki, Xəzər dənizinin neft ehtiyatları deyilən qədər deyil. .. Amma sizin yanlış məlumatlarınız,* ***dezinformasiya****nız heç vaxt bizim bu işlərin qarşısını ala bilməyəcəkdir."* (Qafqaz və Xəzər regionu ölkələrində ABŞ-ın səfirlərini, Amerikanın müxtəlif nazirliklərinin yüksək vəzifəli şəxslərini qəbul edərkən söhbətindən. 20 yanvar 2000); *"Aşkar* ***dezinformasiya****, böhtan, şantaj, şişirdilmiş sensasiyalı ifşalarla birlikdə bu cür siyasi nihilizm cəmiyyətə, insanların mənəvi sağlamlığına, demokratiya mədəniyyətinin özünə ağır ziyan vurur."* ("Jurnalist" jurnalinin baş redaktoru Gennadi Maltsevə müsahibəsi. 18 may 2000); *"İnformasiya qıtlığı var və Rusiyanın kütləvi informasiya vasitələrində həddindən çox* ***dezinformasiya*** *verilir."* (Rusiya Federasiyasının və Moskva şəhərinin Azərbaycanda keçirilən mədəniyyət günlərində iştirak etmək üçün Bakıya gəlmiş Rusiya nümayəndə heyətinin rəhbərləri ilə görüşdə söhbəti. 26 iyun 2000).

**DE-YURE** [*lat.* de iure, de jure "hüquqi, qanuna əsaslanan"] *is.* – işlərin formallaşdırılması, fakt və ya vəziyyətin hüquqi təmsili. Dövlətçilikdə: tam şəkildə diplomatik münasibətlərin yaradılması, qarşılıqlı razılıq əsasında səfirliklərin təsis edilməsi, qarşılıqlı sərfəli əla-

qələrin inkişafı ilə tanınması. *"**De-yure** isə biz bununla razılaşa bilmərik."*("Həqiqət anı" televiziya proqramının aparıcısı Andrey Karaulov ilə müsahibəsi. 21 iyun 2000).

**DƏYƏR** *is. məc.* – **1.** Bir şeyin pulla ifadə olunan qiyməti, qarşılığı. *"Biz belə hesab edirik ki, Ermənistan hökuməti bu maddi ziyanın **dəyər**ini tamamilə ödəməlidir."* (Ermənistan Respublikası Ali Sovetinin sədri Levon Ter-Petrosyana müraciəti. 20 sentyabr 1991-ci il); *"Lakin buna baxmayaraq, cəbhəçilər BMP, BTR vasitəsilə televiziyanın qapısını və divarını dağıdaraq içəri soxulmuş və televiziyada olan bir milyon manat **dəyər**ində avadanlığı dağıdaraq çıxıb getmişlər."* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il).

**2.** *məc*. Qiymət, əhəmiyyət, ləyaqət, keyfiyyət. *"Onların* [yazıçıların] *ideya-siyasi yetkinliyi, yaradılan əsərlərin məzmunu və bədii **dəyəri** üçün məsuliyyəti artmışdır."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il); *"Axı, rəssamları xalqın salnaməçiləri adlandırarkən biz nəzərdə tuturuq ki, sizin hər birinizin yaratdığı əsərlərdə dövrümüzün, inkişafımızın iri miqyaslı bədii mənzərəsi, həm bugünkü nəsil üçün, həm də gələcək nəsil üçün çox böyük **dəyər**i olan bir mənzərə mozaikada olduğu kimi canlanmalıdır."* (Azərbaycan rəssamlarının IX qurultayında se-

çilmiş idarə heyətinin üzvləri ilə görüşdə nitqi. 12 oktyabr 1982-ci il)

**3.** *məc.* Bir xalqın dili, tarixi, milli kökləri, adət-ənənəsi və s. *"Tutduğumuz yol bizim mənəvi **dəyər**lərimizə, adət-ənənələrimizə, dinimizə, dilimizə, tariximizə sədaqətimizdir."* Xocalı soyqırımının üçüncü ildönümü ilə əlaqədar keçirilən mərasimdə çıxışı. *26 fevral 1995*); *"Odur ki, məsələn, əgər sovet hakimiyyətinin ilk dövrlərində insanları xalqların əsrlər boyu topladığı **dəyər**lərdən zorla məhrum etməyə çalışırdılarsa, indi bütün bunların bərpası prosesi gedir."* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000). □

**Ümumbəşəri dəyərlər** – dünyadakı bütün insanlar üçün bərabər əhəmiyyət kəsb edən dəyərlər: azadlıq, insani məziyyətlər, əxlaq, etika və sosial bərabərlik. *"Orada ermənilər də, azərbaycanlılar da yaşayırdılar. Ancaq baxmayaraq ki, guya biz inkişaf etdik, irəliyə getdik və **ümumbəşəri dəyərlər**i mənimsəməyə başladıq, bunlar gətirib bax belə qanlı hadisələrə çıxardı."* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il); *"Cəmiyyətimizdə həqiqi sivilizasiyalı şərait yaratmaq, **ümumbəşəri dəyərlər**dən faydalanan dünyəvi cəmiyyət yaratmaq üçün hələ çox işləməliyik."* (Respublikada yaşayan ləzgi ictimaiyyətinin nümayəndələri ilə görüşdə giriş və yekun sözü. 20 fevral 1995).

**DƏYƏRLİ** *sif.* – *məc.* Qiymətli, ləyaqətli, əhəmiyyətli, çox yararlı, çox lazımlı. *"Professor Əli Musayevi götürün. Çox **dəyərli** insandır."* (Respublikada yaşayan ləzgi ictimaiyyətinin nümayəndələri ilə görüşdə giriş və yekun sözü. *20 fevral 1995*); *"Əlbəttə ki, "Bir dəfə qalxan bayraq bir daha enməz" fikri **dəyərli** sözlərdir."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**DFVK** [*rus.* Госуда́рственный комите́т по чрезвыча́йному положе́нию (ГКЧП)] *abr.* – Dövlət Fövqəladə Vəziyyət Komitəsi. SSRİ-də 1991-ci ilin 18-21 avqust tarixləri arasında o dövrdə SSRİ-nin prezidenti M.Qorbaçovun "yenidənqurma" siyasətinə və yeni ittifaq müqaviləsinin imzalanmasına əsasən SSRİ-nin 15 ittifaq respublikasından yalnız 9-nun daxil edilməsini nəzərdə tutan Konfederal Suveren Dövlətlər İttifaqına qarşı çıxış edərək hakimiyyəti ələ almış 8 nəfər yüksək vəzifəli şəxsdən ibarət qurum. Sonradan "Avqust qiyamı" adı ilə tanınan və dövlət çevrilişi kimi qiymətləndirilən bu qurumun hakimiyyət dövrü cəmi 3 gün davam etmişdir. Qurumu təşkil edənlərdən, intihar etmiş 1 nəfər istisna olmaqla, yerdə qalan digərləri həbs olunsalar da, həbs olunanlardan hamısı daha sonra amnistiya ilə azadlığa buraxılmış və onlardan biri məhkəmə hökmü ilə bəraət almışdır. *"Azərbaycan Prezidenti, Sov. İKP MK*

*üzvü, Azərbaycan KP MK-nın birinci katibi A. Mütəllibovun və Azərbaycan rəhbərliyinin hərbi xunta - üzdəniraq **DFVK** tərəfindən həyata keçirilmiş dövlət çevrilişi ilə bağlı mövqeyi və fəaliyyəti müzakirə olunsun və obyektiv qiymət verilsin.""Ancaq, şübhəsiz, 1991-ci ilin avqust hadisələri İttifaqın dağılması proseslərini sürətləndirən kulminasiya nöqtəsi idi. Mən Dövlət Fövqəladə Vəziyyət Komitəsi (**DFVK**) üzvlərinin hərəkətlərini dərhal, özü də çox kəskin şəkildə pislədim. Xatirimdədir, televizorda onlara baxırdım və yazığım gəlirdi. Azərbaycanın o vaxtkı rəhbərliyi isə qiyamçıları dəstəklədi. O günlərdə bütün respublikada **DFVK**-nı dəstəkləmək üçün yığıncaqlar keçirilirdi, yüksək vəzifəli şəxslərin kabinetlərində isə tələm-tələsik Qorbaçovun portretlərini çıxarırdılar..."* ("Obşaya qazeta", 16 avqust, 2001-ci il).

**DİASPOR** [*yun.* διασπορά "səpələnmə"] *is.* – vətənindən kənarda yaşayan, yaşadıqları ölkədə sıx əlaqədə olub sabit etnik qruplar formalaşdıran, öz şəxsiyyətini və icmasını qorumaq və inkişaf etdirmək üçün sosial institutlara malik olan xalqın (etnosun) bir hissəsi. *"Ermənistanın hələ böyük dövlətlər tərəfindən aldığı dəstəkdən savayı, nə qədər böyük **diaspor**u var: Avropada, Amerikada, Rusiyada, Moskvanın özündə, Rusiyanın hər yerində."*(Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994); □ **Azərbaycan diasporu** – Ümummilli Lider Heydər Əliyev Azərbaycan diasporu-

nun yaradılmasında böyük xidmətlər göstərmişdir. Məhz onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli Dünya azərbaycanlılarının günü kimi keçirilməsi barədə fərman verdi. Bu fərmana əsasən Azərbaycan Respublikasının Ali Sovetinin Milli Şurası Naxçıvan MR Ali Məclisinin qərarını təsdiq etdi. Heydər Əliyevin ayrı-ayrı ölkələrdə azərbaycanlılar qarşısında çıxışları və apardığı təbliğat dünyada Azərbaycan diasporunun formalaşmasında əsaslı rol oynamışdır. Məhz onun Prezident olduğu dövrdə 2001-ci il noyabr 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qiriltayı keçirildi. Burada 35 xarici dövlətlərdə yaşayan həmvətənlər iştirak etmişdi. *"Ancaq reallıq bundan ibarətdir ki, başqa ölkələrdə erməni lobbisi, erməni diasporu kimi Azərbaycan lobbisi,* ***Azərbaycan diasporu*** *yaratmaq mümkün deyildir. .. Belə hesab edirəm ki, xaricdə* ***Azərbaycan diasporu*** *formalaşır, o, gündən-günə inkişaf edəcək və Azərbaycana, öz vətəninə köməyini heç kəs əsirgəməyəcəkdir."* (Londonun "Hilton" Otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışı. 23 fevral 1994); "**Eməni diasporu** – Ermənistandan kənarda yaşayan erməni icmaları. Erməni diasporunun ümumi sayının 12-16 milyon nəfər olduğu təxmin edilir. *"Ona görə də böyük dövlətlərin rəsmi dairələrində və ictimai fikrində məsələnin ədalətsiz olaraq ermənilərin xeyrinə qəbul edilməsində erməni* ***diaspor****unun, erməni lobbisinin çox böyük rolu olmuşdur."* (Londonun "Hilton" Otelində Böyük

Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışı. 23 fevral 1994).

**DİKTATOR** [*lat.* dictator] *is.* – mütləq hakimiyyətə malik olan siyasi lider. *"Bu əsərlərin bir çoxu milli azadlıq hərəkatına, Asiya, Afrika və Latın Amerikası xalqlarının zülmə, müstəmləkəçiliyə və yeni müstəmləkəçiliyə qarşı,* ***diktator*** *rejimlərinə qarşı mübarizəsinə həsr olunmuşdur."* (Şuşada Vaqifin məqbərəsinin açılışı mərasimində çıxışından (14 yanvar 1982-ci il); *"Azərbaycanda Kommunist Partiyasının fəaliyyəti, onun Mərkəzi Komitəsinin* ***diktator*** *rejimi davam edir."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəyanatı. 6 sentyabr 1991-ci il)

**DİKTATORLUQ** *is.* – ölkə vətəndaşlarına qarşı müxtəlif zorakılıq üsulları həyata keçirən, kənar nəzarət və faktiki məhdudiyyətlər olmadığı halda hakimiyyətin bir şəxsin və ya bir qrup şəxsin əlində cəmləşdiyi siyasi rejim forması. *"Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun* ***diktatorluq*** *meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 20 noyabr 1990-ci il)

**DİNİ DÖZÜMLÜLÜK** – digər inanc və əqidələrə dözümlü yanaşma; tolerantlıq. *"Bu müqəddəs, işıqlı gündə, bu xoş bayram günündə sizi sülhə, həmrəyliyə, **dini dözümlülüyə**, dostluğa və qardaşlığa çağırıram."* (Milad bayramı münasibətilə Bakıdakı kamera musiqisi salonunda keçirilən mərasimdə respublikanın pravoslav xristianlarına müraciəti. *7 yanvar 1995*).

**DİPLOMAT** [*lat.* diplomat] *is.* – Beynəlxalq hüquqda konkret bir dövlətin və ya səlahiyyətli beynəlxalq təşkilatın maraqlarını təmsil edən vəzifəli şəxs. Diplomatın əsas funksiyaları öz ölkəsinin və vətəndaşlarının maraqlarını təmsil edərək qorumaq, məlumat toplamaq, ölkələr arasında dostluq və digər əlaqələr yaratmaqdır. *"Cənab Baş katib Butros Qali, biz və bütün Azərbaycan xalqı sizi böyük bir **diplomat**, dünya siyasətində böyük xidmətləri olan bir şəxs kimi tanıyırıq."* (Prezident Sarayında BMT-nin baş katibi Butros Butros-Qali ilə görüşdə çıxışı (30 oktyabr 1994). *"Mən Minsk qrupunun yeni sədri, çox təcrübəli **diplomat** Yan Eliasson ilə görüşərək danışıqlar aparmışam."* (Prezident Sarayında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədə nitqi. 4 mart 1994).

**DİPLOMATİK** [*yen.lat.* diplomaticus < *lat.* diplomat, diploma + *ing. və fr.* -ic, -ique, < *lat.* –icus *sifət düzəldici şəkilçi*] *sif.* – diplomatiyaya aid olan, diplomatiya ilə

əlaqədar olan, diplomatiyaya xidmət edən. *"O, özünün bütün **diplomatik** səylərini, şairlik istedadını bu işə həsr etmişdir."* (Xankəndində (Stepanakertdə) Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya fəallarının yığıncağında nitqindən (14 yanvar 1982-ci il); *"Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar. Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən **diplomatik** səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz."* (Türkiyə ilə Naxçıvan arasında müqavilənin imzalanması mərasimi çıxışı. 24 mart 1992-ci il); *"Bu fikirlərimi sizə çatdıraraq qeyd etmək istəyirəm ki, biz öz **diplomatik**, siyasi fəaliyyətimizi də davam etdiririk və davam etdirəcəyik."*(Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Milli Televiziya və Radio ilə xalqa müraciəti. 2 noyabr 1993).

**DİPLOMATİK ADDIM** – siyasi gediş. *"Əgər böyük siyasi, **diplomatik addım**lar ayrı-ayrı agentliklərin yaydığı qeyri-mötəbər və yoxlanılmamış informasiyalar əsasında qəbul olunursa bu, sadəcə olaraq, bizdə təəccüb doğurur və bunu anlaya bilmirik."* (Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 5 iyul 1993).

**DİPLOMATİK ƏLAQƏ** – Suveren dövlətlər arasında, habelə dövlətlərlə beynəlxalq ictimai hüququn digər subyektləri arasında beynəlxalq hüquq normalarına və beynəlxalq ünsiyyət təcrübəsinə uyğun olaraq rəsmi münasibətlərin saxlanmasının əsas forması. Hər bir ölkənin diplomatik əlaqələri milli maraqlar çərçivəsində dövlətlər arasında dostluq münasibətlərinin inkişafına, sülhün və təhlükəsizliyin qorunmasına xidmət edir. *"Çünki bilirsiniz ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyinə görə, Türkiyənin bu ölkə ilə indiyə qədər nə* ***diplomatik əlaqə****si var, nə sərhədlərinin açılmasına yol verirlər, nə yolların açılmasına yol verirlər."* (Türkiyə nümayəndə heyəti ilə görüşdə söhbəti. 6 yanvar 2000); *"Çünki bu müqaviləyə görə, Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə, yəni* ***diplomatik əlaqə****, ticarət əlaqəsi yoxdur."* (Türkiyənin səhiyyə naziri Osman Durmuş ilə görüşdə söhbəti. 19 aprel 2000); *"Hazırda Azərbaycan 137 ölkə ilə* ***diplomatik əlaqə*** *qurmuşdur."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**DİPLOMATİK KORPUS** [*fr.* corps diplomatique] – ölkədə fəaliyyət göstərən səfirliklərin bütün diplomatik nümayəndələrinin cəmi. Dövlət tədbirlərində və mərasimlərində iştirak etməyə dəvət olunmuş diplomatik korpusa (dar çərçivədə) tədbirdə iştirak edən dövlət, yaxud hökumət başçısının bilavasitə yaxınlığında, adətən,

hörmətli və xüsusi yer ayrılır. *"Azərbaycandakı **diplomatik korpus**un nümayəndələrini, hörmətli səfirləri, beynəlxalq təşkilatların nümayəndələrini və rəhbərlərini salamlayıram."*(Xəzər şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində nitqi. 20 sentyabr 1994).

**DİPLOMATİK MİSSİYA** – elçi tərəfindən idarə olunan diplomatik nümayəndəlik. *"Mən sizə deyim ki, bu son günlərdə respublikamızda yaranmış vəziyyət Azərbaycanın beynəlxalq aləmdə imicinə, nüfuzuna çox mənfi təsir göstərməyə başladı. Ayrı-ayrı ölkələrdə öz **diplomatik missiya**larına göstəriş verdilər ki, onların əməkdaşları buradan çıxıb getsinlər."* (1995-ci il mart dövlət çevrilişinə cəhdin beş illiyinin tamam olması ilə əlaqədar keçirilmiş müşavirədə çıxışı. 17 mart 2000).

**DİPLOMATİK MÜNASİBƏTLƏR** – iki dövlət arasında qarşılıqlı razılıq əsasında səfirliklərin təsis edilməsi, qarşılıqlı sərfəli əlaqələrin tanınması. *"Beynəlxalq həyatda mühüm rol oynayan, respublikamızın dövlət müstəqilliyini birincilər sırasında tanımış və onunla **diplomatik münasibətlər** yaratmış bu ölkə ilə əlaqələrin sıxlaşdırılmasına Azərbaycan həmişə xüsusi maraq göstərir. O vaxtdan bəri bizim aramızda diplomatik münasibətlər yaradılmışdır, indi Azərbaycanın Çində səfirliyi və Çinin Azərbaycanda səfirliyi*

*var."* (Ümum-Çin Xalq Nümayəndələri Məclisi daimi komitəsinin sədri Li Pen ilə təkbətək görüşdə söhbəti. 23 iyun 2000); *"1991-ci ilin axırlarında Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən dərhal sonra Çin Azərbaycanın dövlət müstəqilliyini tanıdı və tezliklə ölkələrimiz arasında* ***diplomatik münasibət****lər yaradıldı."* (Bakıda Çin Xalq Respublikası səfirliyinin yeni binasının özülünün qoyulması mərasimində nitqi. 23 iyun 2000);*"Biz keçmişdə olanları lazımınca qiymətləndiririk. Lakin bununla yanaşı, biz azadlıq əldə etdikdən, müstəqillik qazandıqdan sonra vəziyyət tamamilə dəyişmişdir və müstəqilliyin ilk günlərindən Özbəkistanla Azərbaycan arasında dövlətlərarası münasibətlər,* ***diplomatik münasibət****lər yaradılmışdır, Azərbaycanın Daşkənddə, Özbəkistanın Bakıda səfirlikləri var."*(Özbəkistanın Müstəqillik günü münasibətilə Özbəkistanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi.1 sentyabr 2000).

**DİPLOMATİK NÜMAYƏNDƏLİK** – bir dövlətin digər dövlətdə yerləşən daimi dövlət xarici əlaqələr orqanı. *"Bu günlərdə respublikamıza böyük maraq göstərmiş, dövlətçiliyimizin qorunması sarıdan narahat olmuş və bizi dəstəkləmiş xarici ölkələrin rəhbərlərinə, onların* ***diplomatik nümayəndəlik****lərinə, səfirliklərinə təşəkkürümü, minnətdarlığımı bildirirəm."* (1995-ci il mart dövlət çevrilişinə cəhdin beş illiyinin tamam olması ilə əlaqədar keçirilmiş müşavirədə çıxışı. 17 mart 2000); *"Azərbaycan öz dövlət*

*müstəqilliyini alandan sonra hansı ölkədə bir **diplomatik nümayəndəlik** yaratmağa çalışırsa, səfirlik açmaq istəyirsə, birinci növbədə Türkiyənin səfirliyinə gəlibdir, Türkiyənin səfirliyində yerləşibdir."*(Türkiyənin NATO-dakı daimi nümayəndəsi səfir Onur Öyməni qəbul edərkən söhbətindən. 25 aprel 2000).

**DİPLOMATİK POÇT** – yalnız rəsmi istifadə üçün nəzərdə tutulan diplomatik sənədlər və mallar. *"Bu kitablar ağırdır, sizin yükünüzü ağırlaşdırmaq istəmirəm. Ona görə də onları Norveçin Azərbaycandakı səfirliyinə təqdim edirəm. Təbiidir ki, siz buradan başqa yerlərə də gedəcəksiniz. Amma mən Norveç səfirliyindən xahiş edirəm ki, bunları **diplomatik poçt**la Osloya, sizə göndərsinlər."*(Norveç səyyahı Tur Heyerdal və onu müşayiət edən şəxsləri qəbul edərkən söhbətindən. 2 sentyabr 2000).

**DİPLOMATİK TƏDBİR** B a x **diplomatik addım.** *"Bilirsiniz ki, bəzi **diplomatik tədbir**lərimiz nəticəsində son vaxtlar döyüş bölgələrində atəşin dayandırılmasına nail olmuşuq."*(Bakı Kondisioner zavodunda paytaxtın sənaye müəssisələri əmək kollektivləri nümayəndələrinin mitinqində çıxışı. 28 sentyabr 1993); *"Siyasi tədbirlər, diplomatik tədbirlər çox görülmüş, beynəlxalq təşkilatların – BMT-nin, ATƏM-in, onun Minsk qrupunun imkanlarından faydalı istifadə etməyə çalışmışıq."* (Cəbhəyanı bölgədə – İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında

və Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**DİPLOMATİK VASİTƏLƏR** – iki dövlət arasında diplomatik danışıqlar. *"Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, o biri tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və **diplomatik vasitələr** işə salınmışdı."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**DİREKTİV** [*lat.* directivus] *sif.* – **1.** Bir işi yerinə yetirmək üçün ali orqan tərəfindən aşağı orqanlara verilən göstəriş, əmr, təlimat və s. *"Qəzet və efir, partiya və hökumətin fərmanlarını, **direktivlərini** auditoriyaya çatdırır, növbəti təbliğat-təşviqat müddəalarını adamların şüuruna yeridir, "sosialist yarışı"nın gedişinə nəzarət edir, "xalq düşmənləri"ni gözdən qoymur və şəxsiyyətə pərəstiĢin xronikasını yaradırdı."* ("Jurnalist" jurnalının baş redaktoru Gennadi Maltsevə müsahibəsi. 18 may 2000)

**2.** *sif.* Əmr, təlimat, göstəriş mahiyyətində olan. Bir işi yerinə yetirmək üçün ali orqan tərəfindən aşağı orqanlara verilən göstəriş, əmr, təlimat və s. *"Mətbuatın rəhbərlik və idarəetmənin sırf ideoloji (çox vaxt da birbaşa, **direktiv** şəkildə idarəetmə) vasitəsinə, ictimai şüurun manipulyasiya edilməsi mexanizminə çevrilməsi mətbuatı defor-*

*masiyaya uğratmaya, onu başlıca sosial vəzifədən – cəmiyyətdə gedən proseslər barədə məlumat vermək, auditoriyanı maksimum tam həcmdə xəbərlərlə təmin etmək vəzifəsindən məhrum etməyə bilməzdi."* ("Jurnalist" jurnalının baş redaktoru Gennadi Maltsevə müsahibəsi. 18 may 2000);

**DİSKUSSİYA** [*lat.* Discussio "araşdırma"] *is.* – hər hansı bir mübahisəli məsələnin iclasda, mətbuatda və s.-də azad, açıq müzakirəsi. *"MK-nın bürosunda, katibliyin iclaslarında diskussiyalar tam sərbəst keçirilirdi."*("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**DİSSİDENT** [*ing.* və *fr.* dissident < *lat*. dissidens (dissidentis)] *is.* – ölkədə, cəmiyyətdə hakim ideologiya ilə razılaşmayan. *"Ayrılıqda götürdükdə bizdə **dissident**lər olmayıb. Lakin, bəlkə də, **dissident**lər ona görə olmayıb ki, biz onları ümumiyyətlə axtarmırdıq."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**DQMV** b a x **Dağlıq Qarabağ Vilayəti**. *"Bir çox incəsənət xadimlərinə Azərbaycanın xalq və əməkdar artisti fəxri adları verilirdi, hər il **DQMV** gənclərinin Azərbaycanın ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aparılırdı. Konflikt başlanandan artıq iki il keçsə də, **DQMV**-də vəziyyət nəinki yaxşılaşmayıb, hətta ciddi şəkildə pisləşib."* ("Mən hə-

mişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA BƏYANNAMƏ** *is.* – dövlət suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət, daxili işlərə qarışmamaq, iqtisadi və digər üsullarla təzyiq göstərilməməsi şərtilə siyasi, iqtisadi, elmi-texniki, ekoloji, informasiya, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin yaradılması haqqında rəsmi sənəd. *"1994-cü ilin fevralında Londonda Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında* ***dostluq və əməkdaşlıq haqqında bəyannamə,*** *bir çox başqa sənədlər imzalanmışdır."* (Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər və Birlik İşləri üzrə dövlət katibi Malkolm Rifkindin şərəfinə rəsmi ziyafətdə nitqi. *4 yanvar 1995*).

**DÖVLƏT BAŞÇILARI** – bir ölkənin hakim dairələrində liderlik fəaliyyətini icra edən şəxs və ya şəxslər. *"Mən Davosda bir çox* ***dövlət başçıları*** *ilə görüşdüm."* (İsveçrədəki Azərbaycan Cəmiyyəti İdarə Heyətinin bir qrup üzvü ilə görüşdə çıxışı. 30 yanvar 2000).

**DÖVLƏTÇİLİK** – b a x **Azərbaycan dövlətçiliyi.**

**DÖVLƏT DEPARTAMENTİ** [*ing.* United States Department of State] – Amerika Birləşmiş Ştatlarının

Dövlət Departamenti. 1789-cu ildən ABŞ-da xarici işlər nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasi orqan. Departamentə dövlət katibi başçılıq edir. Orqan ABŞ prezidentinin və Konqresin hazırladığı xarici siyasət xəttini həyata keçirir. *"Çünki Azərbaycanla Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı mübarizədə gördükləri müştərək işlər haqqında və Azərbaycanın ümumiyyətlə terrorizmə qarşı daim apardığı mübarizə barədə indi bu dəqiqə dediyiniz sözlər **Dövlət Departamenti**nin buraxdığı məlumata tamamilə ziddir. Mən hesab edirəm ki, orada Azərbaycan haqqında heç bir şey yazılmamalı idi. **Dövlət Departamenti**nin o böyük yazısı bütün dünyaya yayılıbdır və necə deyərlər, bütün arxivlərdə qalacaqdır. **Dövlət Departamenti**nin verdiyi yeni bəyanat o böyük yazını heç də tamamilə ləğv etmir."* (ABŞ səfiri Stenli Eskuderonu qəbul edərkən söhbətindən. 3 avqust 2000).

**DÖVLƏT KATİBİ** – 1992-ci ildə Azərbaycan Respublikasının Dövlət Müdafiə Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Şurasının tərkibində olmuş rəsmi dövlət vəzifəsi. Dövlət katibi Dövlət Şurasının işini təşkil etmək və üzvlərinin fəaliyyətini əlaqələndirmək, Azərbaycan Respublikasının Prezidenti olmayanda və ya onun tapşırığı ilə Dövlət Şurasının iclaslarında sədrlik etmək səlahiyyətlərinə malik idi. *"**Dövlət katibi** Lalə-Şövkət Hacıyeva Gürcüstana xüsusi olaraq səfər etdi."*Zaqafqaziyadakı Rusiya qoşunla-

rının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı (6 yanvar 1994).

**DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR** – dövlətlər arasında qarşılıqlı siyasi, diplomatik, iqtisadi, mədəni və s. əlaqələr. *"Biz keçmişdə olanları lazımınca qiymətləndiririk. Lakin bununla yanaşı, biz azadlıq əldə etdikdən, müstəqillik qazandıqdan sonra vəziyyət tamamilə dəyişmişdir və müstəqilliyin ilk günlərindən Özbəkistanla Azərbaycan arasında **dövlətlərarası münasibətlər**,diplomatik münasibətlər yaradılmışdır, Azərbaycanın Daşkənddə, Özbəkistanın Bakıda səfirlikləri var."* (Özbəkistanın Müstəqillik günü münasibətilə Özbəkistanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi. 1 sentyabr 2000).

**DÖVLƏT STATUSU** – hüquqi dövlət. *"Onun irəli sürdüyü şərtlər Azərbaycan ərazisində hərbi əməliyyat meydanı yaratmış Ermənistan Respublikasının işğal etdiyi əraziləri Dağlıq Qarabağ üçün müstəqil **dövlət statusu**na dəyişmək, yəni əslində Azərbaycan Respublikasını parçalamaq məqsədi daşıyır."*(MDB dövlət başçıları şurasının iclasında Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində genişmiqyaslı hücumları ilə əlaqədar bəyanatı. 15 aprel 1994).

◊ **Dövlət statusu vermək** – hüquqi dövlət imtiyazlarını bərqərar etmək. *"Amma Ermənistan tərəfi bununla razı olmadı. Onlar Dağlıq Qarabağa yalnız və yalnız **dövlət***

***statusu vermək*** *şərti ilə Azərbaycanın digər rayonlarının ərazisini işğaldan azad etmək haqda bəyanat verirlər."* (Kanada parlamentinin Xarici İşlər və beynəlxalq ticarət komitəsinin sədri Bill Qrehem başda olmaqla bu ölkənin nümayəndə heyətini qəbul edərkən söhbətindən. 10 may 2000).

**DÖVLƏT STRUKTURU** – hakimiyyət orqanlarının formalaşması qaydası normalarını, onların səlahiyyətlərini, münasibətləri, inzibati-ərazi quruluşuna nəzarəti özündə əxz edən konstitusiyalı hüquqi institut, dövlət hakimiyyəti orqanları sistemi. *"İstəyir* ***dövlət strukturu****nda olsun, istəyir kənarda olsun, istəyirsə də mühacirətdə yaşasın, fərqi yoxdur, biz heç kəsə bunun üçün imkan verməyəcəyik."* (Prezident Sarayında Respublikanın ali və orta ixtisas məktəblərinə qəbulla əlaqədar keçirilən müşavirədə giriş və yekun sözü. 2 avqust 1994).

**DÜNYA BİRLİYİ** – müxtəlif iqtisadi, siyasi və ideoloji xüsusiyyətlərə görə birləşən müxtəlif dövlət və ölkə qrupları. *"Fərq ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı* ***dünya birliyi****ndə özünəlayiq nüfuzlu yer tutur, bu ölkənin islam aləmində görkəmli yeri var, dünya siyasətinə təsiri böyükdür."* (Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışı. 29 iyul 1994); *"Lakin* ***dünya birliyi****ndə, dünya xalqları arasında onun tarixini, mədəniyyətini, milli ənənələrini təbliğ etmək,*

*yaymaq, sübut etmək üçün belə yubileylər həmişə böyük bir vasitədir."* (Prezident Sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasında giriş və yekun sözü. 1 avqust 1994).

**DÜNYA İCTİMAİYYƏTİ** – dünyanın müxtəlif ölkələrində baş verən hadisələrə söz demə, münasibət bildirmə hüququndan istifadə edən sosial qruplar. *"Ancaq eyni zamanda, həqiqət naminə, bütün beynəlxalq təşkilatların, **dünya ictimaiyyəti**nin Azərbaycanda olan qaçqınların vəziyyətinə daha yaxından münasibət göstərməsi üçün bunu da bildirmək istəyirəm: təəssüf ki, Azərbaycanın belə vəziyyəti dünya ictimaiyyətinin bütün təbəqələrində məlum deyil."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**DÜNYA SİYASƏTİ** – beynəlxalq münasibətlər sisteminin bir hissəsi olan, dövlətlərin beynəlxalq münasibətlər sahəsində yaranan problemlərin həllində öz maraqlarını təmin etmək üzrə fəaliyyəti, dünya birliyinin həyatına təsir edən qərarların hazırlanması, qəbulu və həyata keçirilməsi prosesləri. *"İngiltərə həm keçmiş tarixinə, həm də bugünkü mövqeyinə görə **dünya siyasəti**nə və iqtisadiyyatına çox güclü təsir göstərən bir ölkədir. "*(Böyük Britaniyaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə Hava Limanında jurnalistlərə müsahibəsi. 22 fevral

1994); *"Fərq ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı dünya birliyində özünəlayiq nüfuzlu yer tutur, bu ölkənin islam aləmində görkəmli yeri var,* ***dünya siyasəti****nə təsiri böyükdür."* (Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışı. 29 iyul 1994).

**DÜNYƏVİ DÖVLƏT** – dövlət idarəetməsindən dinin təsiri və qanuniliyinin azad edilməsi yolu ilə müəyyənləşən dövlət forması. *"Gənc və müstəqil Azərbaycan Respublikası hüquqi, demokratik,* ***dünyəvi dövlət*** *kimi öz həyatını, daxili qanunlarını bu beynəlxalq normalara, qanunlara uyğunlasdırmağa çalışır."* (BMT-nin insan hüquqları üzrə ali komissarı xanım Meri Robinson ilə görüşdə söhbəti. 7 sentyabr 2000).

**DÜŞMƏN** *is.* – kiminləsə ədavət, düşmənçilik edən, kiməsə pislik arzulayan. Burada: erməni qəsbkarları. *"Ona görə də* ***düşmən****in Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, buna sinə gərmək üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının bir məqsədi olmalı idi: o vaxt da, 1988-ci ildə də, ondan sonrakı illərdə də birləşib xalqımızı bu vəziyyətdən çıxarmaq, ümumi* ***düşmən****in, təcavüzkarın, Azərbaycanı parçalamaq istəyən* ***düşmən****lərin qarşısına çıxmaq,onların qarşısını almaq."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

# E

**EDUARD AMVROSİYEVİÇ ŞEVARDNADZE** *xüs.is.* – SSRİ-nin və Gürcüstanın siyasi və dövlət xadimi (1928-2013). 1972-1985-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1995-2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. *"Bəzi əlamətlər bizi çox narahat edir. Mən bunu **Eduard Amvrosiyeviç Şevardnadzeyə** demişəm."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994). *"Respublikamızın mənafeləri ilə bağlı məsələləri aramızda yaxşı münasibət olan Gürcüstan Respublikası ilə qarşılıqlı surətdə həll etmək üçün mən **Eduard Şevardnadze** və bu respublikanın digər rəhbərləri ilə görüşmüşəm."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994). *"Gürcüstan da bizim qonşumuzdur, orada 600 min azərbaycanlı yaşayır, prezident Şevardnadze də ölkəmizə səfər etmişdir."* ("Rossiyskaya qazeta"nın müxbirinə müsahibəsi. 18 iyun 1994).

**EKSTREMAL** [*lat*. extremus "ifrat"] *sif.* – qeyri-adi, ifrat; fövqəladə. *"Sizə deyə bilərəm ki, elə bu gün də müşavirə **ekstremal** bir şəraitdə keçirilir."* (Prezident Sara-

yında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədə nitqi. 4 mart 1994). *"Qaçqınlar ilə əlaqədar **ekstremal** vəziyyətin aradan qaldırılması Azərbaycan dövlətinin başlıca qayğılarından birinə çevrilmişdir.* (BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 29 sentyabr 1994).

**EKSTREMİST** [*fr.* extrémiste < *lat.* extremus] – **1.** *is.* İfrat və radikal baxışların, fəaliyyət üsullarının tərəfdarı və icraçısı. *"Buna görə də biz orada baş verən hadisələri narahatlıq hissi ilə izləyir, sevinirik ki, Özbəkistan dövləti kifayət qədər güclü qüvvəyə malikdir və quldur basqınlarını, separatçı hərəkətləri dəf etməyə, öz ölkəsinin ərazisini hər cür terrorçu və **ekstremist**lərdən təmizləməyə qadirdir."* (Özbəkistanın Müstəqillik günü münasibətilə Özbəkistanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi. 1 sentyabr 2000). *"Ancaq bizi məyus edən odur ki, son vaxtlar Özbəkistanın Cənubunda gərginlik mənbəyi meydana gəlmişdir, terrorçular, terrorçu quldur dəstələri, islam **ekstremist**ləri çətinliklər törədirlər."* (Özbəkistanın Müstəqillik günü münasibətilə Özbəkistanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi. 1 sentyabr 2000).

**2.** *sif.* Estremist fəaliyyətə aid olan. *"Təəssüf ki, ayrı-ayrı **ekstremist**, millətçi, avantürist qruplar, şəxsi məqsədlərinə nail olmağa çalışan qruplar xalqlarımızı bu münaqişəyə cəlb etmişlər və dediyim kimi, həmin münaqişə böyük bir müharibə şəklini almışdır.* (Özbəkistanın Müstəqillik Günü

münasibətilə Özbəkistanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi. 1 sentyabr 2000). □ **Estremist qüvvələr** – ekstremist fəaliyyətlə məşğul olan siyasi insan qrupları. *"Biz istəyirik ki, müharibə qurtarsın, o demək olar, altı ildir ara vermir. .. Bu müharibə Ermənistandakı **ekstremist qüvvələr**in ümid etdikləri nəticələri verməyəcəkdir."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**EKSTREMİZM** [*lat.* extremus] *is.* – ifrat və radikal baxışlara, fəaliyyət üsullarına sadiqlik, öz məqsədlərinə çatmaq üçün ekstremal tədbirlərdən (o cümlədən terror aktları və girov götürmə) istifadə etmə. *"Terrorizmə, narkotiklərə, **ekstremizm**ə, separatizmə qarşı mübarizə bu gün çox aktualdır, çünki bu hallar dünyanın müxtəlif bölgələrində, o cümlədən, Rusiyada və Azərbaycanda, Qafqazda təzahür edir."* (Rusiyanın Daxili İşlər naziri Vladimir Ruşaylonu qəbul edərkən söhbətindən. 4 fevral 2000).

**ELÇİBƏY** b a x **Əbülfəz Elçibəy.**

**ELİASSON** [*isv*. Jan Kenneth Eliasson] *xüs.is.* – ATƏT-in Minsk qrupunun həmsədri İsveçdən olan diplomat Yan Eliasson. İsveçin sosial-demokrat siyasətçisi və diplomatıdır. 2005-2006-cı illərdə BMT Baş Məclisinin prezidenti vəzifəsini yerinə yetirmişdir. 2006-cı il-

dən İsveç Xarici İşlər Naziri. *"Biz Minsk qrupunun yeni sədri cənab **Eliasson**un fəaliyyətə başlamasını yeni sülhsevər addımla əlamətdar etməyə hazırıq."* (Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin əlahiddə tapşırıqlar üzrə səfiri V. Kazimirovla görüşdə çıxışı. 31 yanvar 1994); *"O biri həmsədrlik, əgər bundan öncə İsveç idisə – Yan **Eliasson** rəhbərlik edirdi, – indi Finlandiyaya keçdi – cənab Talvitiye rəhbərlik edir."* ("Azərbaycanda investisiya imkanları" beynəlxalq konfransında yekun nitqi. *30 noyabr 1995*); *"Bu müddətdə Minsk qrupunun, tərkibi üç dəfə dəyişilib: bir dəfə, mən buraya təzə gələndə, İtaliyadan Mario Raffaelli, ondan sonra İsveçdən Yan **Eliasson** və nəhayət, Finlandiya və Rusiya nümayəndələri."* (Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışı. 10 noyabr 1995).

**ENERGETİKA XƏTLƏRİ** – neft və qaz boru kəmərləri. *"Azərbaycanı Naxçıvanla birləşdirən kommunikasiyalar – dəmiryolu, avtomagistral, telefon rabitəsi, **energetika xətləri** və digər xətlər Ermənistan ərazisindən keçir və onların hamısı kəsilmişdir."*(Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı. 23 fevral 1994).

**ENERGETİKA SAHƏSİ** – xam neft və neft məhsulları, qaz, elektrik və istilik enerjisi. *"Yalnız onu qeyd etmək istəyirəm ki, biz cənab Con Meycorla **energetika sahəsi**ndə, o cümlədən neft sənayesi sahəsində əməkdaşlıq haqqında me-*

*morandum da imzalamışıq."* (Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı. 23 fevral 1994).

**ERMƏNİPƏRƏST** – Ermənistanın siyasi və etnik maraqlarının tərəfində olan. *"Bu gün də Amerika parlamentində olduqca çox **ermənipərəst** konqresmenlər var."* (Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000); *"**Ermənipərəst** konqresmenlər o dərəcəyə çatıblar ki, Türkiyə kimi böyük bir dövlət haqqında Konqresə Qətnamə layihəsi çıxarıblar."* (Milli Olimpiya Komitəsinin Bakıda yeni idman-sağlamliq kompleksinin təntənəli açılışı mərasimində nitqi. 21 oktyabr 2000).

**ETNİK İCMA** B a x **etnik qrup**. *"Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir **etnik icma**nın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir."*(BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 29 sentyabr 1994).

**ETNİK QRUP** – müəyyən dil, dini, psixoloji və qədim qohumluq əlaqələri olan ictimai birlik. *"Partiyanın Siyasi Şurasına Azərbaycanda yaşayan bütün millətlərin və **etnik qrup**ların nümayəndələri - rus, yəhudi, talış, ləzgi, kürd, avar və başqaları daxil olmuşdur."* ("Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxuram" "Nezavisimaya qaze-

ta" müxbirinə müsahibəsi. 27 yanvar 1993-cü il); *"Ermənistan Respublikası Azərbaycan Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin **etnik qrup**unun öz müqəddəratını təyin etmək hüququnu reallaşdırması bəhanəsi ilə dövlətimizin ərazilərinin ilhaqı, onun dövlət sərhədlərinin zorakılıqla dəyişdirilməsi və azərbaycanlı əhalinin öz doğma ev-eşiyindən qovulması planlarını açıq-aşkar həyata keçirir."* (BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 29 sentyabr 1994); *"Təəssüf ki, gərginliyi yaradan səbəblərdən biri də Azərbaycanda uzun illər bir yerdə yaşayan millətlər, etnik qruplar arasındakı münasibətlərin bir qədər pozulmasıdır."* (Azərbaycan Respublikasi Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993-cü il).

**ETNİK PROBLEM** – müəyyən dil, dini, psixoloji və qədim qohumluq əlaqələri olan ictimai birlik. *"Bu, həm dövlətlər arasında gedən münaqişələr, həm də ayrı-ayrı regionlarda milli və **etnik problem**lərlə bağlı münaqişələr nəticəsində baş verir."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**ETNİK TƏMİZLƏMƏ** – fərqli etnik mənsubiyyətə malik insanların müəyyən ərazidən zorla qovulmasına yönəlmiş siyasət. Etnik təmizləmə etnik qrupların kütləvi şəkildə köçürülməsindən və məcburi mühacirətdən tutmuş deportasiya və soyqırıma qədər müxtəlif formalarda ola bilər. *"Miloşeviç Kosovoda **etnik təmizlə-***

***mə** aparırdı. Çünki o cür vəhşicəsinə həyata keçirilən **etnik təmizləmə**nin qarşısını siz ala bilmədiniz, güc tətbiq etdiniz.""Dağlıq Qarabağdan bütün azərbaycanlıları çıxarıb, **etnik təmizləmə** aparıblar, xalqımıza qarşı soyqırımı ediblər, ondan sonra müharibəni genişləndiriblər."*(Almaniya Federativ Respublikası bundestaqının xarici əlaqələr komissiyasının sədri Hans-Ulrix Klozenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbəti. 28 aprel 2000); *"İşğal olunmuş bu ərazilərdən bir milyona qədər azərbaycanlı zorla çıxarılıb, demək, **etnik təmizləmə** tədbiri həyata keçirilibdir."* (Kanada parlamentinin Xarici İşlər və beynəlxalq ticarət komitəsinin sədri bill qrehem başda olmaqla bu ölkənin nümayəndə heyətini qəbul edərkən söhbətindən. 10 may 2000); *"İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıb, yerlərindən-yurdlarından məhrum olub və həmin ərazilərdə **etnik təmizləmə** həyata keçirilibdir."* (ATƏT-in Parlament Assambleyasının prezidenti xanım Helle Dayn Başda olmaqla bu təşkilatin nümayəndə heyətini qəbul edərkən söhbətindən. 1 iyun 2000).

**ETNİK TƏRKİB** – əhalinin etnik (milli) mənsubiyyətinə görə bölgüsünü xarakterizə edən əhalinin əsas sosial-demoqrafik xüsusiyyətlərindən biri. *"Çünki hər bir xalqın öz tarixi, öz kökləri, öz **etnik tərkib**i var, hər bir xalq öz əcdadlarının dininə mənsubdur."* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

# Ə

**ƏBÜLFƏZ ELÇİBƏY** *xüs.is.* – Əbülfəz Qədirqulu oğlu Əliyev (1938-2000). Azərbaycan Xalq Cəbhəsinin lideri və Azərbaycan Respublikasının ikinci prezidenti (1992–1993). 1993-cü ildə ölkə vətəndaş müharibəsi həddinə çatmışdı. Prezident Əbülfəz Elçibəy iyun ayının 17-dən 18-nə keçən gecə Bakı şəhərində gözlənilən qırğının qarşısını almaq və öz təhlükəsizliyini təmin etmək məqsədilə vəzifəsinin icrasını heç kimə həvalə etmədən Bakının Binə aeroportundan Naxçıvana uçmuşdu. Azərbaycan dövlətçiliyi üçün yaranmış təhlükəni və vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmaq, idarəetmə sisteminin fəaliyyətini bərpa etmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 121-7-ci maddəsini rəhbər tutaraq 24 iyun tarixli (№ 630) qərarı ilə Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəyin) Azərbaycan Respublikasının Prezidenti vəzifələrini daha icra edə bilməməsini təsdiq etmiş, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə keçmişdir. *"Sonra **Elçibəy** müxalifət bloku yaratdı."* ("Mən sizə heç nə vəd etmirəm". "Sobesednik" qəzetinə müsahibəsi. 10 avqust 1993); *"Orda-burda şayiə yayırlar ki, Heydər Əliyevlə **Əbülfəz El-***

***çibəy*** *arasında qarşıdurma var."* (Culfa Rayon Təşkilatının təsis konfransında çıxışı. 7 fevral 1993-cü il); *"Dünən prezident* ***Əbülfəz Elçibəy****lə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə birlikdə və təkbətək. Bu gərginlik, qarşıdurma ancaq sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993); *"Mən razılaşmırdım, yalnız* ***Əbülfəz Elçibəy****in özü belə fərman verdikdən sonra razılaşdım."* ("Ostankino" Dövlətlərarası Televiziya şirkətinə müsahibəsi. 6 iyul 1993); *"Dünən prezident* ***Əbülfəz Elçibəy****lə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə birlikdə və təkbətək. Bu gərginlik, qarşıdurma ancaq sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır."*(Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993).

**ƏKSİNQİLABİ** *sif.* – bolşevik hərəkatına qarşı. *"Birinci rus inqilabı dövründə yazdığı publisistik məqalələrində N.Nərimanov çarizm, kadetlərin və digər burjua partiyalarının* ***əksinqilabi*** *siyasətini, liberal burjuaziyanın canfəşanlıqla yaydığı konstitusiya xülyalarını amansızcasına ifşa etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi.29 iyun 1972-ci il).

**ƏLAQƏ QURMAQ (YARATMAQ)** – dövlətlər arasında siyasi, iqtisadi, elmi-mədəni və digər sahələrdə münasibətlər yaratmaq. *"Azərbaycanın belə bir dövlətlə əməkdaşlıq etməsi, həm siyasi, iqtisadi sahələrdə, həm də elm, mədəniyyət sahəsində* ***əlaqələr qurması*** *respublikamızın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsində böyük əhəmiyyətə malikdir."* (Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışı. 29 iyul 1994).

**ƏMƏKDAŞLIQ** *is.* – dövlətlər arasında siyasi, iqtisadi, elmi-texniki, ekoloji, informasiya, humanitar və digər sahələrdə ikitərəfli münasibətlər mübadiləsi. *"1994-cü ilin fevralında Londonda Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında dostluq və* ***əməkdaşlıq*** *haqqında bəyannamə, bir çox başqa sənədlər imzalanmışdır. Bu sənədlər ölkələrimiz arasında* ***əməkdaşlığ****ın inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. Biz bu* ***əməkdaşlığ****ın əməli nəticələrini artıq görürük."* (Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər və Birlik İşləri üzrə dövlət katibi Malkolm Rifkindin şərəfinə rəsmi ziyafətdə nitqi. *4 yanvar 1995*).

**ƏMİN-AMANLIQ** *is.* – asayiş, sakitlik, qaydaqanunun hökm sürdüyü hal. *"Buna görə də sağlam düşüncəli, sağlam fikirli gənclər öz yolundan sapmış gəncləri*

*düz yola çəkməli, düz yola çağırmalı, ayrı-ayrı qanunsuz hərəkətlərdən uzaqlaşdırmalı və respublikada, o cümlədən Bakı şəhərində* ***əmin-amanlıq*** *yaranmasına çalışmalıdırlar."*(Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993); *"Orada bir çox ümumi məsələlər var ki, onlar indi heç cür həll edilmir, lakin onları hər hansı məqamları gücləndirmədən, yalnız qarşılıqlı fəaliyyət rejimində və* ***əmin-amanlıq*** *şəraitində həll etmək lazımdır.* (Ermənistan Respublikasının prezidenti Robert Koçaryan ilə təkbətək görüşdəki söhbətdən. 24 yanvar 2000).

**ƏRAZİ BÜTÖVLÜYÜ** – bir dövlətin beynəlxalq səviyyədə de-yure tanınmış ərazilərinin toxunulmazlığı. 1975-ci il avqustun 1-də Helsinkidə ABŞ, Kanada və Avropanın 33 dövlətinin dövlət və hökumət başçılarının müşavirəsində imzalanan aktında sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü prinsipləri öz əksini tapmışdır. "[Mixail Qorbaçov MK plenumunda fevralın 5-də etdiyi məruzəsində] *Yenə də aydın bir şey söyləmədi, bircə onu dedi ki, indi ona, sən demə, aydın olub ki, DQMV-nə dair məsələni Azərbaycanın* ***ərazi bütövlüyü*** *çərçivəsində həll etmək lazımdır."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il); *"Ancaq indi bizim qarşımızda duran vəzifə Azərbaycanın 1988-ci ildən indiyə qədər Ermənistan tərəfindən, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsidir, Azərbay-*

*can Respublikasının beynəlxalq hüquq normaları əsasında tanınmış, qəbul olunmuş sərhədlərinin toxunulmazlığının, Azərbaycanın **ərazi bütövlüyü**nün təmin edilməsidir. Çalışırıq ki, respublikamızın **ərazi bütövlüyü**nün təmin olunması şərtləri ilə bu məsələ həll edilsin. Ancaq bütün bunlar ən mühüm şərt daxilində – Azərbaycan Respublikasının **ərazi bütövlüyü**nün, sərhədlərinin toxunulmazlığının təmin edilməsi və ölkəmizin didərgin düşmüş vətəndaşlarının hər birinin öz yerinə qayıtması şərti ilə həll edilməlidir."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**ƏSRİN MÜQAVİLƏSİ** – 1994-cü il sentyabrın 20-də "Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Günəşli", "Çıraq" yataqlarının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 8 ölkəsinin böyük neft şirkətləri ilə bağlanmış 30 illik müqavilə. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmiş və 12 dekabr 1994-cü ildə qüvvəyə minmişdir. *"Bu müqavilənin imzalanması tarixi hadisədir, həmin sənəd "**Əsrin müqaviləsi"**dir və xarakterinə görə çox nadir müqavilədir. Bir çoxları bunu "**Əsrin müqaviləsi**" adlandırır və onlar tamamilə haqlıdırlar, çünki bu, həqiqətən nadir sənəddir."*(Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı

icmasının nümayəndələri ilə görüşdə çıxışı. 26 sentyabr 1994-cü il); *"Xarici siyasətimizin uğurları, müharibədə atəşkəsin əldə edilməsi, nüfuzlu neft şirkətləri konsorsiumu ilə "**Əsrin müqaviləsi**"nə imza atılması, ölkədə siyasi sabitliyin bərqərar edilməsi uğurlu dövlət quruculuğunun gələcək perspektivlərindən xəbər verir."* (Milli Dirçəliş günü münasibətilə Azərbaycan xalqına müraciəti 16 noyabr 1994-cü il); *"Otuz il müddətinə bağlanan bu müqavilə tarixi bir hadisədir, yəni "**Əsrin müqaviləsi**" kimi qiymətləndirilir." "Mənim Amerikaya səfərimdən öncə, sentyabrın 20-də Bakıda böyük bir tarixi hadisə baş verdi: Azərbaycandakı neft yataqlarının işlənməsi barədə xarici ölkələrin iri neft şirkətləri ilə 30 il müddətinə müqavilə imzalandı. Bu, tarixi müqavilədir və onu haqlı olaraq "**Əsrin müqaviləsi**" adlandırırlar."* (ABŞ-a səfərdən vətənə qayıdarkən İstanbulda Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəllə görüşdən sonra jurnalistlərə bəyanatı. 1 oktyabr 1994-cü il).

# F

**FEDERASİYA** [*lat.* foederātiō "birlik, ittifaq"] *is.* Burada: müstəqil dövlətləri özündə birləşdirən dövlət. *"Əgər bu **federasiya**, ittifaq dövlətidirsə – deməli, ittifaq dövləti öz fikrini dərhal ifadə etməlidir."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il)

**FƏHLƏ AİLƏSİ** – ata və ana fəhlə olan ailə. *"Süleyman Rüstəm **fəhlə ailəsi**ndə anadan olmuş və böyümüşdür, onun dünyagörüşü və bədii yaradıcılığı proletar Bakısında, fəhlə sinfinin inqilabi hərəkatının təsiri altında da formalaşmışdır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).

**FƏHLƏ SİNFİ** – keçmiş SSRİ-də hakim sinif; proletariat. *"Azərbaycan Kommunist Partiyasının və fəhlə sinfinin gözəl beynəlmiləlçilik ənənələrinin təməli inqilabdan əvvəlki illərdə, kapitalizmə və çarizmi qarsı mübarizə illərində qoyulmuşdur."* (İdeoloji ışı daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi. 29 oktyabr 1971-ci il); *"Süleyman*

*Rüstəm fəhlə ailəsində anadan olmuş və böyümüşdür, onun dünyagörüşü və bədii yaradıcılığı proletar Bakısında, fəhlə sinfinin inqilabi hərəkatının təsiri altında da formalaşmışdır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981).

**FƏRMAN** [*fars.* فرمان] *is.* – ali hakimiyyət orqanının qanun qüvvəsində olan qərarı, sərəncamı. *"Mən razılaşmırdım, yalnız Əbülfəz Elçibəyin özü belə **fərman** verdikdən sonra razılaşdım."*("Ostankino" Dövlətlərarası Televiziya şirkətinə müsahibəsi. 6 iyul 1993); *"Ancaq eyni zamanda (acı-acı gülümsəyir—A.F.) məni təəccübləndirən məsələ odur ki, bu böyüklükdə ölkənin prezidenti **fərman** verir, 15 gün o **fərman**ın icrasına vaxt qoyur. Ermənistan respublikasında bu **fərman**ın əleyhinə qərar qəbul olunur və Ermənistan respublikasının Ali Soveti qərara alır ki, SSRİ prezidentinin **fərman**ı Ermənistanda qüvvədə olmamalıdır."* (Heydər Əliyevlə müsahibə. Avqust, 1990). □ **Fəxri fərman** – hər hansı bir nailiyyətə, xidmətə görə iftixar, ehtiram əlaməti olaraq verilən sərəncam. *"Bu gün mənə tapşırılmış vəzifəni böyük məmnuniyyət hissi ilə yerinə yetirərək sevimli şairimiz Süleyman Rüstəmə Respublika Ali Soveti Rəyasət Heyətinin **Fəxri Fərman**ını təqdim edirəm."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981).

**FƏRRUX ƏHMƏD XAN LEQARİ** *xüs.is.* – Sərdar Fərrux Əhməd Xan Leqari (1940- 2010). Pakistanın dövlət xadimi, 1993-cü ildən 1997-ci ilə qədər Pakistanın prezidenti olmuşdur. *"İndi Pakistan prezidenti cənab **Fərrux Əhməd xan Leqari** ölkəmizə səfərə gəlibdir. Sonra mən Pakistana rəsmi səfərə gedəcəyəm. Pakistanın baş naziri xanım Bənəzir Bhuttonu respublikamıza səfərə dəvət etmişəm. Beləliklə, biz dövlətlərarası əlaqələri çox yüksək səviyyədə inkişaf etdirəcəyik."* (Pakistan prezidenti Fərrux Əhməd Xan Leqarinin Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinin yataqxanasında müvəqqəti məskunlaşmış Füzuli, Kəlbəcər. Zəngilan, Cəbrayıl qaçqınlar ilə görüşündə çıxışı. *11 oktyabr 1995*); *"Pakistan Respublikasının prezidenti cənab Fərrux Əhməd xan Leqari ilə danışıqlarımızda, söhbətlərimizdə bu mövzu, yəni Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması və yerlərindən didərgin düşmüş adamların öz torpaqlarına qayıtması ən əsas mövzulardan biri olubdur."* (Pakistan prezidenti Fərrux Əhməd Xan Leqarinin Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinin yataqxanasında müvəqqəti məskunlaşmış Füzuli, Kəlbəcər. Zəngilan, Cəbrayıl qaçqınlar ilə görüşündə çıxışı. *11 oktyabr 1995*).

**FÖVQƏLADƏ VƏZİYYƏT** – xarici və ya daxili təhlükələrdən qorunmaq, ictimai asayişi qorumaq məqsədilə ölkədə və ya onun ayrı-ayrı regionlarında dövlət

hakimiyyəti və idarələrinin, müəssisə, idarə və təşkilatların fəaliyyəti üçün tətbiq edilən xüsusi hüquqi rejim. Fövqəladə vəziyyət vətəndaşların, hüquqi şəxslərin hüquq və azadlıqlarının məhdudlaşdırılmasını, habelə onların üzərinə əlavə vəzifələrin qoyulmasını nəzərdə tutur. *"Hüquq-mühafizə orqanlarımız **fövqəladə vəziyyət** haqqında qanunu əsas tutaraq asayişi pozanlara qarşı sərt tədbirlər görülməsinə təkidlə çalışırdılar."* ("Nezavisimaya qazeta"ya müsahibəsi. 30 avqust 1993); *"Biz parlamentin son iclasında, yəni ayın 20-də Azərbaycanda **fövqəladə vəziyyət** rejiminin götürülməsi haqqında qərar qəbul etdik. Bu gündən respublikada **fövqəladə vəziyyət** rejimi götürülübdür. Fövqəladə vəziyyət rejiminin götürülməsi hüquq-mühafizə orqanlarının işinin bundan sonra daha da möhkəmlənməsini tələb edir. Lakin yaxşı olardı ki, vətəndaşların özləri hüquq normalarına, dövlətin qayda-qanunlarına, dövlət intizamına riayət etsinlər. Onlar elə etsinlər ki, biz bir daha **fövqəladə vəziyyət** rejiminə dönməyək. Düzdür, müharibə aparan respublika üçün, dövlət üçün **fövqəladə vəziyyət** adi bir haldır. Bəziləri bizdən tələb edirlər ki, respublikada hərbi vəziyyət elan edək, bir çox şeylərə məhdudiyyət qoyaq. Lakin biz demokratik prinsiplər yolu ilə getdiyimizə görə və bunu əsas yol hesab etdiyimizə görə respublikada nəinki hərbi vəziyyət rejimi tətbiq etmək istəmirik, hətta **fövqəladə vəziyyət** rejimini götürməyi qərara aldıq."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993).

# G

**GƏNCƏ HADİSƏLƏRİ** – 1993-cü ilin fevralında keçmiş korpus komandiri Surət Hüseynovun rəhbərliyi altında olan və Gəncədə yerləşən 709 saylı hərbi hissənin o vaxt ölkənin prezidenti olmuş prezident Əbülfəz Əliyev (Elçibəy) tərəfindən ləğv edilməsi haqqında sərəncama tabe olmaması nəticəsində faciə ilə nəticələnən qarşıdurma. Sərəncamda 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında əmr öz əksini tapmışdı. Əmrə tabe olmaqdan imtina edən Surət Hüseynovun göstərişi ilə Gəncəyə gələn hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri girov götürülmüşdü. Bundan sonra hakimiyyət 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı növbəti qərar qəbul etdi. İyunun 4-də Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi, nəticədə 35 nəfər həlak oldu. *"**Gəncə hadisələri**ndə bizim üç nəfər gənc əsgərimiz həlak oldu."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994); *"Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu ağsaqqallar mənə müraciət etmişlər."*("Ostankino" Dövlətlərarası Televiziya şirkətinə müsahibəsi. 6 iyul 1993);

*"**Gəncə hadisələri**ni təhqiq etmək üçün komissiya yaradıldı və komissiya belə bir qənaətə gəldi: Xalq Cəbhəsi özünün liderləri simasında cinayət törətmişdir."* (Yazıçı Aleksandr Proxanovla müsahibəsi. 12 avqust 1993); *"**Gəncə hadisələri** başladıqda, Xalq Cəbhəsinin özü qanunu pozmağa və mitinqlər toplamağa başladı, doğrudur, mitinqlərə az adam gəlirdi – onlara, bir qayda olaraq, ən çox iki-üç min adam toplaşırdı."* ("Nezavisimaya qazeta"ya müsahibəsi. 30 avqust 1993).

**GÖRÜŞ(LƏR)** *is.* – dövlətlərin səlahiyyətli nümayəndələrinin siyasi sahəyə aid hər hansı bir məsələni müzakirə etmək və ya həll yolu tapmaq üçün bir araya gəldiyi fəaliyyət. *"Boris Yeltsinlə **görüşlər**, danışıqlar, başqa şəxslərlə **görüşlər**, danışıqlar oldu."*(Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994); *"Biz ABŞ-ın Azərbaycandakı səfirliyi ilə daim əlaqə saxlayırıq,Amerika BirləşmişŞtatlarının rəhbər xadimləri ilə bir sıra **görüşlər** olmuşdur."*(Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994). □ **Görüş keçirmək** – b a x **Görüşmək.** *"Ona görə ki, əlaqə olduqda, **görüşlər keçirildikdə** məsələləri həll etmək dahaasandır, əlaqə olmadıqda isə hər hansı kiçik məsələ böyüyüb iri problemə çevrilir, halbuki, ola bilsin, onun heç o qədər də əhəmiyyəti yoxdur."*(Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**GÖRÜŞMƏK** *f.* – dövlətlərin səlahiyyətli nümayəndələrinin siyasi sahəyə aid hər hansı bir məsələni müzakirə etməsi və həll etməsi üçün bir araya gəlməsi. *"Doğrudur, aramızda telefon söhbətləri olmuşdur, nümayəndələrimizsizinlə* ***görüşmüşlər****."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**GUÖAM** *abr.* – günümüzdə GUAM olaraq bilinən, əsası 10 oktyabr 1997-ci ildə Strasburq şəhərində iqtisadi məsələlər üzrə mövqeləri üst-üstə düşən dövlətlərin əməkdaşlığını inkişaf etdirmək məqsədilə yaradılmış birlik. Bu təşkilatın əməkdaşlığında dövlətlərarası informasiya təhlil sistemi, ticarət və nəqliyyat sahələri ön plana çıxır. Təşkilatın adı üzv ölkələrin adlarının baş hərflərindən götürülmüşdür. Onun üzvləri dörd ölkə – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadır. 24 aprel 1999-cu il tarixində Özbəkistan bu təşkilata qoşulmuş, lakin 2005-ci ildə üzvlükdən ayrılmışdır. *"Ümidvaram ki, bu görüş* ***GUÖAM****-ın fəaliyyətinin artıq yeni mərhələsinin bünövrəsini qoyur və bu mərhələdə işlər konkret surətdə planlaşdırılacaq və fəaliyyətimiz konkret olaraq, əsasən, Leonid Daniloviçin dediyi üç istiqamətdə həyata keçiriləcəkdir."* (GUÖAM dövlətləri başçılarının zirvə görüşü. 6 sentyabr 2000. İmzalanma mərasimindən sonra dövlət başçılarının jurnalistlərin suallarına cavabları).

# H

**HELSİNKİ (YEKUN) AKTI** – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə ABŞ, Kanada və Avropanın 33 dövlətinin dövlət və hökumət başçılarının müşavirəsində imzalanan Avropada Təhlükəsizlik və Əməkdaşlıq haqqında zirvə aktı. Bu müşavirədə 10 əsas prinsip qəbul olunmuşdur. *"1975-ci ildə **Helsinki**də ATƏM-in **Yekun Aktı**nın imzalanması dünya proseslərinin gedişinə uzunmüddətli müsbət təsir göstərmiş, son illərdə dünyada baş verən əsaslı dəyişikliklərin ilk əlamətlərindən biri olmuşdur."*(ATƏM-in üzvü olan ölkələrin dövlət başçılarının zirvə toplantısında iştirak etmək üçün Budapeşt şəhərinə yola düşməzdən əvvəl Binə Hava Limanında jurnalistlərə müsahibəsi. 4 dekabr 1994); *"Beynəlxalq hüquq normaları, o cümlədən 1975-ci ildə qəbul olunmuş **Helsinki aktı** onu göstərir ki, hər bir ölkənin ərazi bütövlüyü qorunmalıdır və hər bir millətə də öz müqəddəratını təyin etmək imkanı verilməlidir."* (Cons Hopkins Vaşinqton universitetində görüşdə nitqi. 15 fevral 2000).

**HƏMSƏDR** *is.* – təşkilatın bərabərhüquqlu sədr üzvü olan ölkə. *"Bilirsiniz ki, bu üç ölkə* [ABŞ, Fransa, Rusiya] *Minsk qrupunun **həmsədr**ləridir."* (Amerika Birləşmiş Ştatlarının keçmiş dövlət katibi, tanınmış ictimai-si-

yasi xadim Lourens İqlberger ilə görüşdə söhbəti. 16 fevral 2000).

**HƏRBİ** [*ər.* حربى] *sif.* – orduda xidmət və müharibə ehtiyaclarına aid olan. *"Əgər belə zərurət var idisə, orada yerləşən **hərbi** hissələrdən də istifadə etmək olardı."*(1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı. 21 yanvar 1990-cı il); *"Daha sonra Azərbaycanda bu il yanvarın 19-20-də törədilən cinayət, buraya böyük miqdarda **hərbi** qüvvə yeridilməsi və bunun da öz növbəsində xeyli insan tələfatına səbəb olması mənə çox pis təsir etdi. Mən daha susa bilməzdim"*. (1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı. 21 yanvar 1990-cı il); *"Ermənistanda dünya ictimaiyyətinin gözləri qarşısında son iki ildə qeyri-qanuni hərbi birləşmələr yaradılır."* □ **Hərbi qulluqçu** – dövlətin silahlı birləşmələrində həqiqi hərbi xidmətdə olan şəxs. *"Yeri gəlmişkən deyim ki, ölənlər arasında **hərbi qulluqçu**ların olması haqqında da məlumatlar daxil olur."* (1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı. 21 yanvar 1990-cı il). **Hərbi birləşmə(lər)** – qanunsuz silahlı dəstələr. *"Ermənistanda dünya ictimaiyyətinin gözləri qarşısında son iki ildə qeyri-qanuni **hərbi birləşmələr** yaradılır. Bu birləşmələr artıq yaradıldıqdan, yaxşıca silahlandırıldıqdan sonra (həm də məlum-*

*dur ki, silah onlara xaricdən gəlir), bu dəstələrin əsgər və komandirlərinə təntənəli şəkildə üzvlük biletləri verildikdən sonra ölkə prezidenti qeyri-qanuni* ***hərbi birləşmələr****in tərksilah edilməsinə dair fərman imzalayır."*("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il). **Hərbi müdaxilə** – dövlətin (xalqın) suverenliyini pozan və ya açıq-aşkar təhlükə yaradan hərbi qüvvənin köməyi ilə onun daxili işlərinə birbaşa və ya dolayı yolla müdaxilə. *"Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən* ***hərbi müdaxilə*** *üçün də zəmin yaranmazdı."* (1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı. 21 yanvar 1990-cı il). **Hərbi təcavüz** – bir ölkənin digərinə müharibə yolu ilə hücum edərək vətəndaşlarını qətlə yetirməsi, divan tutması və torpaqlarını işğal etməsi. *"Bu gün biz bir daha qeyd etməliyik ki, Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün ən ağır bəla ölkəmizin* ***hərbi təcavüz****ə məruz qalmasıdır, müharibə şəraitində olmasıdır, altı ildən artıq gedən müharibədə Azərbaycanın böyük itkiləri, torpaqlarının işğal olunmasıdır, bir milyondan çox əhalisinin qaçqın vəziyyətinə düşməsidir."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994). **Hərbi vəziyyət**– xarici təca-

vüz və ya onun təhlükəsi qarşısında tətbiq edilən xüsusi hüquqi rejim. Bununla o, daxili təhlükə – dövlət çevrilişinə cəhd, iğtişaşlar və ya fəlakətlər zamanı tətbiq edilən fövqəladə vəziyyətdən fərqlənir. *"Bəziləri bizdən tələb edirlər ki, respublikada **hərbi vəziyyət** elan edək, bir çox şeylərə məhdudiyyət qoyaq. Lakin biz demokratik prinsiplər yolu ilə getdiyimizə görə və bunu əsas yol hesab etdiyimizə görə respublikada nəinki **hərbi vəziyyət** rejimi tətbiq etmək istəmirik, hətta fövqəladə vəziyyət rejimini götürməyi qərara aldıq."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993).

**HÜQUQ** *is.* [*ər.* حقوق] – **1.** Dövlət tərəfindən qəbul edilmiş,ictimai münasibətləri tənzimləyən məcburi davranış qaydaları sistemi. *"Bu gün ədəbiyyatın böyük insanpərvərlik vəzifəsini nəzərdə tutaraq yazıçılardan müasir həyat hadisələrinin dərin ictimai-bədii tədqiqini gözləyirik, yetkin sosializm cəmiyyətində ümumi və şəxsi mənafelərin dialektikasını, şəxsiyyətin **hüquq** və vəzifələrinin dialektikasını açan əsərlər gözləyirik."* (Azərbaycan yazıçılarının VII qurultayında nitqi (12 iyun 1981-ci il). □ **Hüquq bərabərliyi** – dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi. *"İstibdadın və əsarətin, qatı isla-*

*mın və dini fanatizmin tam hökmran olduğu bir şəraitdə öz dahi yaradıcılarının şəxsində ədəbiyyat xalqın istək-arzularının ən mühüm ifadə forması, azadlıq və istiqlaliyyət uğrunda, sosialist ədalət və* ***hüquq bərabərliyi*** *uğrunda açıq və "üstüörtülü" mübarizənin başlıca vasitələrindən biri idi."*(Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il); *"Azərbaycanın xarici siyasəti bütün dövlətlərlə* ***hüquq bərabərliyi****nə əsaslanan və qarşılıqlı surətdə faydalı olan əlaqələr yaratmaqdan ibarətdir."* (Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında çıxışı. 22 fevral 1994); *"Elə bir cəmiyyət ki,vətəndaşların hamısına bütün azadlıqları: söz azadlığı, vicdan azadlığı, sahibkarlıq azadlığı versin, insan hüquqlarının etibarlı şəkildə müdafiə olunmasını, milli mənsubiyyətindən və siyasi əqidələrindən asılıolmayaraq bütün Azərbaycan vətəndaşlarının* ***hüquq bərabərliyi****ni, siyasi plüralizmi, çoxpartiyalı sistemi,mətbuat azadlığını təmin etsin – Azərbaycanda formalaşmaqda olan demokratik hüquqi cəmiyyətin əsas cəhətləri məhz bunlardır."* (Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı. 23 fevral 1994) **Hüquq normaları** – ümumi xarakter daşıyan, rəsmiləşdirilmiş, davranış qaydalarını müəyyən edən, dövlət tərəfindən qeydə alınmaqla tanınan, zəruri olduqda icrası dövlət məcburiyyət tədbirləri ilə təmin edilən, ictimai münasibətlərin iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən qaydalar. *"Beynəlxalq* ***hüquq normaları****, o cümlədən 1975-ci ildə qəbul olunmuş Helsinki aktı onu göstərir ki, hər bir ölkənin ərazi bütövlüyü*

*qorunmalıdır və hər bir millətə də öz müqəddəratını təyin etmək imkanı verilməlidir."* (Cons Hopkins Vaşinqton universitetində görüşdə nitqi. 15 fevral 2000); *Fövqəladə vəziyyət rejiminin götürülməsi hüquq-mühafizə orqanlarının işinin bundan sonra daha da möhkəmlənməsini tələb edir. Lakin yaxşı olardı ki, vətəndaşların özləri* ***hüquq normaları****na, dövlətin qayda-qanunlarına, dövlət intizamına riayət etsinlər."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993); *"Ancaq indi bizim qarşımızda duran vəzifə Azərbaycanın 1988-ci ildən indiyə qədər Ermənistan tərəfindən, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsidir, Azərbaycan Respublikasının beynəlxalq* ***hüquq normaları*** *əsasında tanınmış, qəbul olunmuş sərhədlərinin toxunulmazlığının, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994); *"Bundan sonrakı hadisələr, yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq dövlətlərarası* ***hüquq normaları****nın qanunauyğun təzahürüdür."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il); *"Ona görə də beynəlxalq* ***hüquq normaları*** *əsasında, hüquqi normalar əsasında sizə belə bir xahişlə müraciət etməyə ixtiyarım var ki, siz öz nüfuzunuzdan istifadə edəsiniz, müvafiq*

*tədbirlər görəsiniz."*(Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**2.** *məc.* İnsanın vicdanı qarşısında götürdüyü öhdəlik. *"Bununla əlaqədar olaraq mən yazıçının mənəvi* ***hüquq*** *və mənəvi məsuliyyəti məsələsi üzərində dayanmağı lazım görürəm."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il).

**HÜQUQİ CƏMİYYƏT** – dövlət qanunları ilə idarə olunan konstitusiyalı insan birliyi. *"Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin,* ***hüquqi cəmiyyət****in yaradılması hərtərəfli, genişplanlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir."*(Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il).

**HÜQUQİ DEMOKRATİK CƏMİYYƏT** b a x **hüquqi cəmiyyət.** *"Azərbaycanda demokratik dövlət,* ***hüquqi demokratik cəmiyyət*** *qurmaq prosesi çox əzmlə inkişaf edir."* (Türkiyə Cümhuriyyəti prezidentinin iqamətgahı "Çankaya" köşkündə rəsmi qarşılanma mərasimində nitqi. 8 fevral 1994)

**HÜQUQLU** *sif.* – hüququ olan. *"Rusiya Federasiyası azad və bərabər* ***hüquqlu*** *xalqların dövlət halında birləşmə-*

*sinin tarixdə hələ misli görüşməmiş formasının - SSR İttifaqının timsalı olmuşdur."*(Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin açılışında nitqi (3 oktyabr 1972-ci il); *"Onlar bütün yazıçıların yaradıcılığının işıqlandırılması, yaradıcılıq problemlərinin, tənqidi çıxışların sərbəst müzakirəsi, ədəbi əsərlərin prinsipial təhlili üçün ən əlverişli, eyni* ***hüquqlu*** *şərait yaratmalıdırlar."* (Azərbaycan yazıçılarının VII qurultayında nitqi. 12 iyun 1981-ci il).

**HÜQUQ-MÜHAFİZƏ ORQANLARI** – hüquq qaydalarının vəqanunçuluğun təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, əməkkollektivlərinin, dövlət və qeyri-dövlət təşkilatlarının hüquq və qanuni mənafelərinin mühafizəsi, cinayətkarlıqla və digər xətalarla mübarizə vəzifələrini təmin edən dövlət təşkilatları. Azərbaycanda səkkiz hüquq mühafizə orqanı vardır. Əsas hüquq mühafizə orqanları Azərbaycan Respublikasının Prokurorluğu, ölkə polisinə rəhbərlik edən Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyidir. *"****Hüquq-mühafizə orqanları****, maliyyə orqanları, vergi sistemi və bu sahələrləməşğul olan bütün başqa orqanlar belə mənfi halların qarşısını almalıdırlar."*(Prezident Sarayında kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədə nitqi. 4 mart 1994).

**HÜQUQSUZ** *sif.* – hüququ əlindən alınmış, hüquqlardan məhrum, siyasi və vətəndaşlıq hüququ olma-

yan. *"Rus ədəbiyyatının tarixi xidməti bundan ibarətdir ki, o, həmişə məzlumların və binəsiblərin, alçaldılanların və təhqir edilənlərin tərəfində durmuş,* ***hüquqsuz*** *xalqları mərdliklə müdafiə etmiş, onları azadlıq mübarizəsinə qaldırmış, Ümumrusiya inqilabi hərəkatına qoşmuşdur."* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il).

**HÜQUQSUZLUQ** *is.* – siyasi və ictimai hüququn olmadığı hal, hüquqsuz adamın hal və vəziyyəti. *"Gənc müəllim ictimai ədalətsizliklə ilk dəfə olaraq yaxından üz-üzə gəlmiş, kəndlilərin tam* ***hüquqsuzluğ****u və dəhşətli yoxsulluğu onu sarsıtmışdı."*(Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Dini ehkamlar və məhrumiyyətlər, əhalinin böyük bir qisminin* ***hüquqsuzluğ****u, savadsızlığı bəşəriyyətə Nizami və Nəsimi, Füzuli və Vaqif kimi dühalar vermiş bir xalqı mənəvi düşkünlüyə məhkum edirdi."*(Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin təntənəli açılışı mərasimindəki nitqindən. 9 may 1973-cü il).

**HÜMMƏT** [*ər.* همّت] *xüs.is.* – "Hümmət" Müsəlman Sosial Demokrat təşkilatı. 1904-cü ildə bir qrup azərbaycanlı demokrat ziyalının – Nəriman Nərimanov, Sultanməcid Əfəndiyev, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Məşədi Əzizbəyov və b. təşəbbüsü ilə Bakı Komitəsi (Bakı bolşevik təşkilatı) nəzdində yaradıl-

mışdır. 1920-ci ildə "Hümmət" digər sosial-demokratik partiyalarla – RSDFP-nin Bakı Komitəsi və "Ədalət"lə birləşərək, Azərbaycan Kommunist Partiyasını təşkil etdilər. *"1905-ci ildə N.Nərimanov Bakı Bolşevik Təşkilatının tərkib hissəsi olan və Bakı Partiya Komitəsinin rəhbərliyi altında işləyən "**Hümmət**" sosial-demokrat qrupuna daxil oldu."* (Nəriman Nərimanovun 100 illik yubileyi mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

# X

**XALQ** [*ər.* خلق] *is.* – bir ölkənin müxtəlif etnik qruplardan, millətlərdən ibarət əhalisi, sakinləri. *"**Xalq**ın əksəriyyəti, – bu gün mən bunu ürəyimdə olan sözlər kimi demək istəyirəm, çünki həmin bu illərin bir hissəsini öz doğma torpağında olmasam da, bu dərdlərlə yaşamışam. Digər hissəsini isə **xalq**ımla bir yerdəyəm, – xalqın tam əksəriyyəti həmişə bu hisslərlə, bu duyğularla yaşamışdır, yəni başqa bir məqsədi, fikri olmamışdır. Ancaq təəssüflər olsun ki, 1988-ci ildə başlanmış proseslərdə – **xalq**ın əksər hissəsinin sağlam əhval-ruhiyyədə, Vətənini, torpağını qorumaq əzmində olduğu bir vaxtda **xalq**ın içərisində bu dövrün, şəraitin, proseslərin imkanlarından istifadə edərək öz şəxsi məqsədlərinə nail olmaq istəyənlər vardır."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**XALQ CƏBHƏSİ** – Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP). Azərbaycanda 1993-cü ilə qədərki dövrün Milli Azadlıq hərəkatının aparıcı ictimai-siyasi təşkilatı. 1995-ci ildən Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) olaraq təsis edilmişdir. *"Həmin qüvvələr, birinci növbədə **Xalq Cəbhəsi**nin qüvvələri və başqa qüvvələr orduda təxribatla məşğul olmuş, cəbhəyanı rayonlara gedərək*

*əhalini yalandan qorxudub geri çəkilməyə məcbur etmişlər. Son günlər alınan məlumatlar göstərir ki,* ***Xalq Cəbhəsi****nin bəzi dəstələri, bəzi təşkilatlar yerlərdə adamlara silah paylayırlar və silahlı üsyan qaldırmaq fikrinə düşüblər, hakimiyyəti ələ keçirmək niyyətindədirlər."* (Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışı. 4 noyabr 1993); *"Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də* ***Xalq Cəbhəsi****nin xidməti saymaq olmaz."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il); *"****Xalq Cəbhəsi*** *Azərbaycanın sərvətlərini – qızılını, neftini, var-yoxunu xalq üçün qətiyyən sərfəli olmayan şərtlərlə, dəyər-dəyməzinə satırdı."*(Yazıçı Aleksandr Proxanovla müsahibəsi. 12 avqust 1993).

**XALQ CÜMHURİYYƏTİ** B a x **AzərbaycanXalq Cümhuriyyəti.** *"Son günlər ölkəmizdə bir neçə ictimai-siyasi tədbir keçirilmişdir. Əgər bir az əvvəlki günləri götürsək,* ***Xalq Cümhuriyyəti****nin 85 illiyi ilə əlaqədar tədbirlər, indi Qurtuluş günü ilə əlaqədar tədbirlər və başqa tədbirlər keçirilmişdir."* (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müşavirədə çıxışı. 16 iyun 2003-cü il).

**XALQ KOMİSSARLARI SOVETİ (I)** [*rus.* Совет народных комиссаров, ixtisarı: Совнарком, СНК] *xüs.is.* – 1918-ci il mart soyqırımından sonra aprelin

25-də Bakıda bolşeviklərin ali icra və inzibati hakimiyyət orqanı funksiyasını yerinə yetirən Bakı Xalq Komissarları Soveti. *"Azərbaycanda və Zaqafqaziyada Sovet hakimiyyətinin ilk səlahiyyətli orqanı – qəhrəman Bakı kommunasının Xalq Komissarları Soveti qısa müddət ərzində xalq maarifi sahəsində də bir çox mühüm inqilabi islahat həyata keçirdi."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**XALQ KOMİSSARLARI SOVETİ (II)** *xüs.is.* – 1922-ci ildə dörd sovet sosialist respublikaları (Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR), Ukrayna Sovet Sosialist Respublikası (USSR), Belarusiya Sovet Sosialist Respublikası (BSSR) və Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı (ZSSRFİ)) arasında SSRİ adı altında ittifaqda birləşmələri haqqında bağlanmış müqaviləyə əsasən yaradılmış təşkilat. *"Həmin sessiya* [SSRİ MİK ikinci sessiyası] *ilk İttifaq hökumətini – V.İ.Lenin başda olmaqla Sovet Sosialist Respublikaları İttifaqı* ***Xalq Komissarları Soveti****ni yaratmışdı."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Azərbaycanda və Zaqafqaziyada Sovet hakimiyyətinin ilk səlahiyyətli orqanı - qəhrəman Bakı kommunasının* ***Xalq Komissarları Soveti*** *qısa müddət ərzində xalq maarifi sahəsində də bir çox mühüm inqilabi islahat həyata keçirdi."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə

həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**XARİCİ İŞLƏR NAZİRİ** *xüs.is.* – ölkənin xarici siyasət rəhbəri. *"Bu, Türkiyənin baş naziri hörmətli Tansu Çillərin Azərbaycana qayğısıdır. Qeyd etdiyim kimi,* ***xarici işlər naziri*** *hörmətli Hikmət Çətin bu sahədə xüsusi xidmətlər göstərib." "Mən ATƏM-in sədri, İsveçin xarici işlər naziri xanım "Marqareta af Uqlası və nümayəndə heyətinin üzvlərini salamlayır, Azərbaycanda olduqları müddətdə onlara səmərəli fəaliyyət və bizdən ötrü mühüm və çox zəruri olan bu missiyaya uğurlu nəticələr arzulayıram."* (ATƏM-in sədri İsveçin Xarici İşlər naziri Marqareta Af Uqlas ilə görüşdə çıxışı. 26 oktyabr 1993). *"Bu gün mən Fransanın* ***xarici işlər naziri*** *cənab Alen Jüppe ilə görüşdüm. Aramızda çox səmərəli söhbət oldu. Biz prezidentlə də,* ***xarici işlər naziri*** *ilə də Fransa ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi, bölgəmizdəki münaqişəli vəziyyətin aradan qaldırılması məsələlərini, xüsusən Ermənistan silahlı birləşmələrinin Azərbaycanda təcavüzü və bununla əlaqədar Azərbaycan Respublikasının vəziyyəti ilə bağlı məsələləri müzakirə etdik. Biz razılığa gəldik ki, Fransa, o cümlədən prezident Fransua Mitteran cənabları və* ***xarici işlər naziri*** *cənab Alen Jüppe öz imkanlarından istifadə edərək, bu münaqişənin dinc vasitələrlə aradan qaldırılmasına kömək göstərəcəklər."* (Fransaya rəsmi səfər zamani Parisdə mətbuat konfransında bəyanatı. 21 dekabr 1993).

**XRUŞŞOV** [*rus.* Никúта Сергéевич Хрущёв] *xüs.is.* – Nikita Sergeyeviç Xruşşov (1894-1971). 1953-cü ildən 1964-cü ilə kimi Sovet İttifaqı Kommunist Partiyası MK Baş katibi, 1958-ci ildən 1964-cü ilə kimi SSRİ Nazirlər Sovetinin sədri. *"Yeri gəlmişkən, mən **Xruşşov**un 1960-cı ildə Bakıya səfərini xatırlayıram."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİR** – Xarici İşlər Nazirliyində diplomatik xidmət vəzifəsi. *"Qarabağ probleminin həllində Rusiyanın vasitəçilik missiyası ilə əlaqədar **xüsusi tapşırıqlar üzrə səfir** Vladimir Kazimirovla görüşlərimiz, danışıqlarımız olmuşdur."*(Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993). *"Şəxsən mən bilavasitə Ermənistan Respublikasının rəhbərləri ilə, Rusiyanın **xüsusi tapşırıqlar üzrə səfiri** V. Kazimirovla, ABŞ və Türkiyənin Azərbaycandakı səfirləri ilə telefon danışıqları aparmışam, təcavüzün dərhal dayandırılmasını xahiş etmişəm, məsələnin asudə, sülh yolu ilə həllinə dəvət etmişəm."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 5 iyul 1993).

# İ

**İCLAS** [*ər.* اجلاس] *is.* – bir məsələni müzakirə etmək üçün hər hansı bir təşkilat üzvlərinin bir yerə yığılması; yığıncaq. *"Bəzi yoldaşlara belə gəlirdi ki, biz həddən artıq iclas keçiririk."*("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**İCTİMAİ FİKİR** – hansısa bir məsələ ilə bağlı təbliğat yolu ilə cəmiyyətdə yaradılan münasibət. *"Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının* ***ictimai fikr****inin, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Şayiə yaymaqla* ***ictimai fikir*** *formalaşdırmaq lazım deyil."* (Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993); *"Avropada, Amerikada, Rusiyada bu məsələ ilə əlaqədar* ***ictimai fikr****in ermənilərin xeyrinə formalaşmasında Ermənistanın təbliğatı çox böyük rol oynamışdır."*(Londonun "Hilton" Otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışı. 23 fevral 1994); *"Onlar hamısı dəvət olunub ki, biz*

**ictimai fikri** *və xüsusən bizim elm sahəsində, ədəbiyyat sahəsində olan mütəxəssislərin fikrini öyrənək."* (Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında giriş və yekun sözü. 2 noyabr 1995).

**İCTİMAİ-SİYASİ** [*ər.* اجتماعی + *ər.* سیاسی] *sif.* – sosial həyat və siyasi məsələlərlə bağlı. *"Sizə məlumdur ki, son iki il ərzində respublikamızın* ***ictimai-siyasi*** *və təsərrüfat həyatında mühüm dəyişikliklər baş vermişdir. Biz istəyirik ki, yazıçılarımızın yaradıcılığı respublikanın* ***ictimai-siyasi*** *həyatı ilə sıx bağla olsun, onlar həyatdan ayrılmasınlar, kəskin problemlərdən və məsələlərdən kənara çəkilməsinlər, əksinə, həmişə hadisələrin qaynağında olsunlar, partiya və xalq qarşısında məsuliyyət daşıdıqlarını heç vaxt unutmasınlar."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il). *".. bu bayramı Azərbaycanda, o cümlədən Naxçıvanda mövcud olan gərgin sosial-iqtisadi,* ***ictimai-siyasi*** *vəziyyət şəraitində keçiririk."* (Hüseyn Cavidin anadan olmasının 110 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirində çıxışı. 23 oktyabr 1992-ci il). *"Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada* ***ictimai-siyasi*** *və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifa-*

*qında və bütün dünyada gedən* ***ictimai-siyasi*** *proseslərin zəruri nəticəsidir."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il). *"Bu hissiyyatlarla mən Sizi bir daha salamlayıram, Sizə öz hörmət və ehtiramımı bildirirəm və badələri Birləşmiş Millətlər Təşkilatının Baş katibi, dünya miqyasında tanınmış* ***ictimai-siyasi*** *xadim, böyük alim, Azərbaycan xalqının dostu olan cənab Butros Butros-Qalinin şərəfinə qaldırmağı rica edirəm."*(BMT-nin baş katibi Butros Butros-Qalinin şərəfinə verilən ziyafətdə çıxışı. 30 oktyabr 1994).

**İDEOLOJİ** [*fr*. idéologie = idéo- ideo- + -logie -logy] *sif.* – ideologiya ilə bağlı olan, ideologiyaya aid olan. *"Fəal vətəndaşlıq mövqeyinin yaradılması dövrümüzdə bütün* ***ideoloji*** *işin özəyidir."*(Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il). □ **İdeoloji iş** – partiya ideyalarının təbliğatı. *"Bu barədə danışarkən H.Ə.Əliyev xüsusi qeyd etmişdir ki, telefilmləri daha da təkmilləşdirmək tədbiri kimi Bakı festivalının keçirilməsi Kommunist Partiyasının tələblərinə, "İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" Sov.İKP MK-nın qərarına tamamilə uyğundur."* (Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçılarının şərəfinə qəbulda nitqindən. 10 oktyabr 1979-cu il). **İdeoloji işçilər** – burada: Kommunist Partiyası ideyalarının təbliğatını həyata keçirən üzvləri. *"İdeoloji işçi-*

*lərin Ümumittifaq müşavirəsində M.A.Suslov yoldaşın qeyd etdiyi kimi, bu qərar uzunmüddətli proqram xarakteri daşıyır."* (Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçılarının şərəfinə qəbulda nitqindən. 10 oktyabr 1979-cu il).

**İQTİDAR** [*ər.* اقتدار] *is.* – hakimiyyətdə olan siyasi qüvvə. *"Birincisi, ideoloji prinsip əsasında: müxalifətdəki qüvvələr **iqtidar**da olan qüvvələrə ideoloji prinsip əsasında müxalif mövqe tutaraq **iqtidar**ın ideologiyası ilə razılaşmır, onu hakimiyyətdən salır və öz ideologiyasını həyata keçirirlər."* (Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993).

**İQTİDAR-MÜXALİFƏT** [*ər.* اقتدار + *ər.* مخالفات] *sif.* – hakimiyyətdə olan qüvvələrlə müxalifətdə olan əks-qüvvələrin münasibətləri. *"Bir dövlət ki, beş ildir müharibə şəraitindədir, beş ildir torpaqları əldən gedir, orada **iqtidar-müxalifət** söhbətləri nə vaxta qədər olacaq? **İqtidar-müxalifət** məsələsi adətən iki prinsip əsasında olur. Ona görə də burada, müharibə gedən ölkəmizdə **iqtidar-müxalifət** söhbəti salmağın əsası yoxdur və olmamalıdır."* (Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993).

**İNQİLAB** [*ər.* انقلاب] *is.* – qısa zaman ərzində reallaşan, həyatın axarını dəyişə biləcək böyük və əhəmiy-

yətli dəyişikliyə keçid. *"Ədəbiyyatın şərəfli vəzifəsi ondan ibarətdir ki, yetkin sosializm cəmiyyətinin yüksəlişinə, elmi-texniki **inqilab** şəraitində iqtisadiyyatın inkişafına yönəldilmiş fəaliyyətin, öz məqsədləri və mahiyyəti etibarı ilə novator xarakterli böyük və nəhəng fəaliyyətinin mürəkkəbliyini, dərinliyini, partiyamızın sülh və xalqların təhlükəsizliyi uğrunda mübarizəsinin bütün əzəmətini hərtərəfli və yüksək bədii boyalarla göstərsin."*(Azərbaycan yazıçılarının VI qurultayında nitqi. 26 may 1976-cı il). 2. 1917-ci ildə Rusiyada baş vermiş bolşevik inqilabı və onun təsiri ilə Azərbaycanda 1920-ci il aprelin 28-də əsasən qeyri millətlərdən ibarət olan Bakı bolşeviklərinin üsyanı. *"**İnqilab**ın özündən doğan "tənqid-təbliğ teatrı" öz şərəfli vəzifəsini layiqincə yerinə yetirirdi."* (Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il). *"Yazıçılarımız bu ictimai sifarişi **inqilab**ın ilk günlərində almışlar."* (Azərbaycanda sovet ədəbiyyatı günlərinə həsr olunmuş mərasimdəki nitqi (2 oktyabr 1975-ci il). □ **Böyük inqilab –** Böyük Oktyabr sosialist inqilabı. Bu ifadə ilk dəfə 1917- ci ildə bolşevik fraksiyası adından F.F.Raskolnikov tərəfindən işlənilmiş, 1930-cu illərin sonunda sovet rəsmi tarixşünaslığında bir termin olaraq təsdiqlənmişdir. *"Bakı Sovetinin iclasında onun məruzəsi əsasında qəbul edilmiş qətnamədə Bakı proletariatı və bütün zəhmətkeş kütlələri adından qeyd edilmişdi ki, ... sovet nümayəndə heyəti Genuya konfransında fəhlə-kəndli kütlələrinin mənafeyini və **böyük inqilab**ın bütün nailiyyətlərini şərəflə qorumuş-*

*dur.* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**İNQİLABİ** [*ər.* انقلابى] *sif.* – burada: bolşevik üsyanı ilə əlaqəli. B a x **inqilab**. *"Görkəmli partiya və dövlət xadimi Nəriman Nəcəf oğlu Nərimanovun adı Azərbaycanda **inqilabi** mübarizə salnaməsinə həmişəlik daxil olmuşdur."*(Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il). *"Süleyman Rüstəm fəhlə ailəsində anadan olmuş və böyümüşdür, onun dünyagörüşü və bədii yaradıcılığı proletar Bakısında, fəhlə sinfinin **inqilabi** hərəkatının təsiri altında da formalaşmışdır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).*"Həmin şeirlərin əsasını şah istibdadına, sosial zülmə və milli istismara qarşı mübarizə motivləri təşkil edir, bu şeirlər **inqilabi** mübarizə ruhu ilə aşılanmışdır."*(Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).*"Səməd Vurğunun **inqilabi** pafos və ehtirasla dolu misraları bu dərin mənalı sözlərlə, sovet adamlarının arzu və əməlləri ilə necə də səslənir."* (Azər baycanda sovet ədəbiyyatı günlərinə həsr olunmuş mərasimdəki nitqi (2 oktyabr 1975-ci il). *Azərbaycan ədəbiyyatı bu **inqilabi** mərhələyə öz inkişafının bu ən mühüm dövrünə zəngin bədii ənənələrlə daxil olmuşdur."* (Azərbaycan yazıçılarının VI qurultayında nitqi. 26 may 1976-cı il). *"Azər-*

*baycan ədəbiyyatı bu inqilabi mərhələyə, öz inkişafının bu ən mühüm dövrünə zəngin bədii ənənələrlə daxil olmuşdur."*(SSR İttifaqı böyük teatrın 200 illiyinə həsr olunmuş təntənəli iclasda nitqindən. 27 may 1976-cı il).

**İNQİLABİ-BƏDİİ** [*ər.* انقلابى + *ər.* بديعى] *sif.* – Bolşevik inqilabı ilə bağlı ədəbi cərəyana aid. *"Budur, yarım əsrə yaxındır ki, Azərbaycan sovet ədəbiyyatı "Qorki ilə birlikdə" addımlayır,* ***inqilabi-bədii*** *cəbhənin ön mövqelərindədir."* (Azərbaycan yazıçılarının VI qurultayında nitqi. 26 may 1976-cı il).

**İNQİLABİ-DEMOKRATİK** [*ər.* انقلاب + *yun.* δημοκρατία] *sif.* – radikal dəyişikliklərə meyilli və azadfikirli. *"XX əsr Azərbaycan ədəbiyyatının tarixinə Sabir, Cəlil Məmmədquluzadə və* ***inqilabi-demokratik*** *"Molla Nəsrəddin" jurnalı ətrafında birləşərək Rusiyanın ictimai-siyasi, mədəni həyatının səmərəli təsiri altında doğulmuş maarifçilik və demokratik ənənələri davam və inkişaf etdirən digər yazıçıların parlaq adlarını yazmışdır. Klassik Azərbaycan ədəbiyyatı öz inkişafında insana böyük məhəbbətlə dolu olan ecazkar, fəlsəfi lirikanın, orta əsrlərin ictimai və mənəvi buxovları əleyhinə çevrilmiş üsyankar, azadfikirli şefinin parlaq yollarından keçmişdir, böyük rus ədəbiyyatının* ***inqilabi-demokratik*** *və bədii-realist nailiyyətlərini fəal surətdə öyrənib mənimsəmişdir və yalnız bu yolları qət etdikdən sonra XX əsrin ideya və*

*estetik zirvələrinə yüksəlmişdir."* (Azərbaycan yazıçılarının VI qurultayında nitqi. 26 may 1976-cı il).

**İRTİCA** [*ər.* ارتجاع] *is.* – geriyə dönmə ideyaları olan ictimai qüvvələr. *"Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli **irtica** və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrinin, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**İSTEFA** [*ər.* استعفاء] *is.* – öz istəyi ilə işindən, vəzifəsindən getmə, əl çəkmə. ◊ **İstefa vermək –** öz istəyi ilə vəzifəsindən getmək. *"İyunun 11-də İsa Qəmbərov Ali Sovetin sədri vəzifəsindən **istefa verdi**, deputatlar mənə bu vəzifəni tutmağı təklif etdilər."*(Yazıçı Aleksandr Proxanovla müsahibəsi. 12 avqust 1993).

**İSTİQLALİYYƏT** [*ər.* استقلاليّة] *is.* – siyasi azadlıq, müstəqillik; başqa dövlətdən asılı olmayıb, özbaşına yaşama. *"Azərbaycan Respublikası öz istiqlaliyyətini elan etmişdir və bazar **iqtisadiyyat**ına, çoxpartiyalı sistemə, insan hüquqlarını və şəxsiyyətin azadlığını təmin edən qanunlara malik demokratik dövlət yaradılması yolunda inamla irəliləyir."*(ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt goruşündə çıxışı. 6 dekabr 1994).

**İŞĞAL** [*ər.* اشغال] *is.* – hər hansı bir dövlətin hərbi qüvvələri tərəfindən başqa dövlətin torpağının tutulması. *"Biz üz-üzə durmuşuq, amma eyni vəziyyətdə deyilik. Birinci ona görə ki, Ermənistanı müdafiə edən qüvvələr bizi müdafiə edən qüvvələrdən qat-qat çoxdur. İkinci ona görə ki, üstünlük onlardadır, torpaqlarımızın 20 faizini **işğal** ediblər. Nə üçün **işğal** ediblər?"* (Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994). *"Torpaqların bir qismi **işğal** olunmuşdur, bir milyondan artıq qaçqın var, respublikanın sosial-iqtisadi vəziyyəti çətinləşir, böhran içindəyik, böhran dərinləşir, insanların həyat tərzi ağırlaşır."* (Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi. 26 noyabr 1994). *"Azərbaycan xalqı – öz tarixində milli qəhrəmanlıq nümunələri göstərmiş və bu gün də qəhrəmanlıq əhval-ruhiyyəsi ilə yaşayan Azərbaycan xalqı erməni qəsbkarlarının, erməni işğalçılarının təcavüzkar hərəkətlərinə lazımi cavab verə bilməyib və torpaqlarımızın bir qismi **işğal** olunub, insanlarımızın bir qismi həlak olubdur, özyerlərindən, obalarından, yurdlarından didərgin düşübdür. Ərazimizin 20 faizi erməni silahlı qüvvələrinin **işğalı** altındadır, bir milyondan artıq soydaşımız, Azərbaycan vətəndaşı öz ölkəsində qaçqın vəziyyətində yaşayır."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**İŞĞALÇI** *is.* – özgə torpaqlarını zorla tutan, işğalçılıq siyasəti yeridən (adam, dövlət və s.). *"*[Gənclərin] *Bir qismi hazırda ordu sıralarında, torpaqlarımızın keşiyində dayanmışdır, müstəqilliyimizi, Azərbaycanın ərazi bütövlüyünü qoruyurlar, Azərbaycanı erməni* ***işğalçı****larından qoruyurlar."* (Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi. 26 noyabr 1994). *"Azərbaycan xalqı – öz tarixində milli qəhrəmanlıq nümunələri göstərmiş və bu gün də qəhrəmanlıq əhval-ruhiyyəsi ilə yaşayan Azərbaycan xalqı erməni qəsbkarlarının, erməni işğalçılarının təcavüzkar hərəkətlərinə lazımi cavab verə bilməyib və torpaqlarımızın bir qismi* ***işğal*** *olunub, insanlarımızın bir qismi həlak olubdur, öz yerlərindən, obalarından, yurdlarından didərgin düşübdür."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**20 YANVAR FACİƏSİ** – 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da SSRİ-nin qoşun hissələri tərəfindən Bakının dinc əhalisinin kütləvi qırğını. *"Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının prezidenti kimi bu məsələlərin araşdırılmasında və* ***20 Yanvar faciəsi****nə siyasi-hüquqi qiymət verilməsində öz səylərimi davam etdirəcəyəm."*(Bakıda 1990-cı ilin faciəli yanvar hadisələri zamanı şəhid olanların ailə üzvləri və həmin günlərdə yaralanıb əlil olanların bir qrupu ilə görüşdə çıxışı. 19 yanvar 1994).

# K

**KADET(LƏR)** *is.* [*fr.* cadet "kiçik"] – inqilabdan əvvəlki Rusiyada zadəganların və zabitlərin uşaqları üçün 7 illik kurs olan orta hərbi təhsil müəssisələrində təhsil almış müdavimlər. *"Birinci rus inqilabı dövründə yazdığı publisistik məqalələrində N.Nərimanov çarizm, **kadet**lərin və digər burjua partiyalarının əksinqilabi siyasətini, liberal burjuaziyanın canfəşanlıqla yaydığı konstitusiya xülyalarını amansızcasına ifşa etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**KOLLEKTİVLƏŞMƏ** [*rus.* коллективиза́ция-dan kalka] *f.is.* SSRİ-də 1928-1937-ci illərdə (ölkənin qərb hissəsində - 1950-ci ilə qədər) həyata keçirilən ayrı-ayrı kəndli təsərrüfatlarının kolxoz və sovxozlara birləşdirilməsi siyasəti.Bolşeviklərin SSRİ kənd təsərrüfatında apardıqları iki böyük iqtisadi islahatdan ikincisi. B a x **sənayeləşdirmə.** "[Süleyman Rüstəm] *Hələ ilk şeirlərində, hekayələrində, satirik pyeslərində, "Komsomol" və "Yaxşı yoldaş" kimi gözəl poemalarında o, qaynar həyatımızı, Sovet hakimiyyətinin təşəkkülü çağındakı növrağı, şəhərdə və kənddə gedən dərin sosial prosesləri, fəhlə sinfinin və kəndlilərin yeni həyat uğrunda, sənayeləşdirmə, kənd təsərrüfatının **kollektivləşməsi** uğrunda ardıcıl mübarizəsini böyük bədii qüv-*

*və ilə əks etdirmişdir."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).

**KOLLEKTİV TƏHLÜKƏSİZLİK** [*rus.* Организация договора о коллективной безопастности (ОДКБ)] *xüs.is.* – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. 15 may 1992-ci ildə MDB dövlətləri arasında yaradılmış hərbi ittifaq. *"Bunu Sizə ona görə deyirəm ki,* ***Kollektiv Təhlükəsizlik*** *haqqında müqaviləni imzalayarkən biz Birliyin bütün ölkələrinin, o cümlədən də Azərbaycanın və Rusiyanın, başqa dövlətlərin silahlı qüvvələrinin əməkdaşlığının məhz bu prinsipini əsas götürmüşük. Aşqabatda verdiyim bəyanatda qeyd etmişdim ki, sentyabrın 24-də Azərbaycan MDB tərkibinə daxil olduqdan və* ***Kollektiv Təhlükəsizlik*** *haqqında müqaviləni imzaladıqdan sonra Azərbaycanın 4 rayonu işğal olunmuşdur."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**KOMMUNİST** – Kommunist partiyasının üzvü. Fəhlə və kəndli sinfinin dövlətdə hakim sinif olmasına tərəfdar olan. *"Bəstəkar, pedaqoq, alim, rəhbər, ictimai-siyasi xadim olan Qara Qarayev həmişə və hər işdə ən əvvəl* ***kommunist****dir, alovlu musiqiçi-tribundur."* ("Bakı" qəzeti, 1982, 20 may, s. 2).

**KOMMUNİST HAKİMİYYƏTİ** – b a x **kommunist rejimi.** *"Ancaq yanvar hadisələrini, Yanvar faciəsini bütün bu faciələrdən, bu dərdlərdən fərqləndirən odur ki, o gecə illər boyu hakimiyyəti altında olduğumuz SSRİ dövləti, Sovet hakimiyyəti və Azərbaycan* ***kommunist hakimiyyəti*** *tərəfindən Azərbaycan xalqına qarşı kütləvi təcavüz edilmişdir."* (20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ümumrespublika mərasimində nitqi. 19 yanvar 2000).

**KOMMUNİST İDEOLOGİYASI** – kommunist düşüncə tərzi. *"Fikir verin,* ***kommunist ideologiyası*** *səhnədən gedən kimi, Sovetlər İttifaqı dağılan kimi, əvvəla, müttəfiq respublikalar öz dövlət müstəqilliyini, öz azadlıqlarını elan etdilər, ikincisi isə, hər bir insan öz köklərinə, tarixi, milli köklərinə qayıtmağa başladı."* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

**KOMMUNİST REJİMİ** – kommunist partiyasının hakimiyyəti. *"Sovet hökumətinin,* ***kommunist rejimi****nin öz xalqına qarşı bu qədər dəhşətli terror, təcavüz əməliyyatı buna qədər heç vaxt keçirilməmişdir."* (Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Stenli Eskudero ilə görüşdəki söhbətdən. 13 yanvar 2000).

**KOMMUNİZM** [*lat.* commūnis "ümumi"] *is.* – sosial ədalət və bərabərliyin təminatı üçün istehsalat vasi-

tələri üzərində ictimai sahibkarlığın bərqərar olmasına əsaslanan nəzəri, ictimai və iqtisadi sistem. *"Sovet hakimiyyətinin 50 ili ərzində Kommunist Partiyasının rəhbərliyi altında Azərbaycan xalqının qazandığı bütün nailiyyətlər, onun haqlı olaraq fəxr etdiyi hər şey İliçin adı ilə, sosializm və* ***kommunizm*** *quruculuğu haqqında onun ölməz ideyaları ilə bağlıdır."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il). *"Ədəbiyyatçılar müasirlərimizin ən gözəl keyfiyyətlərini öz varlığında toplamış, yüksək intellekt sahibi kimi, elmi-texniki tərəqqinin fəal iştirakçısı olan, geriliyə qarşı cəsarətlə mübarizə edən, yeniliyə, qabaqcıl qüvvələrə yol açan,* ***kommunizm*** *ideallarının təntənəsi üçün yaşayıb çalışan sovet adamının parlaq obrazını yaratmalıdırlar."* (Azərbaycan yazıçılarının v qurultayında nitqi. 1 iyun 1972-ci il)

**KOMPROMİS** [*lat*. compromissum] *is.* – qarşılıqlı güzəşt əsasında əldə edilən razılaşma. *"Biz bu* ***kompromis****lər barəsində hər dəfə danışırıq, amma şəxsən mən hələlik* ***kompromis****lər haqqında razılığa gələ bildiyimizi deyə bilmərəm. Qarşılıqlı* ***kompromis****lərə getməli olduğumuzu biz çoxdan həll etmişik."* (Ermənistan prezidenti Robert Köçəryanla təkbətək görüşündən sonra bəyanatı (7 sentyabr 2000). *"İkimiz də* [Heydər Əliyev və Robert Köçəryan] *belə fikirdə olduq ki, gərək qarşılıqlı* ***kompromis****lər olsun. Azərbaycan* ***kompromis****ə getdi, Ermənistan da müəyyən* ***kompromis****ə getdi."* (Amerikanın nüfuzlu yəhudi

təşkilatlarının – yəhudi komitəsinin, prezidentlər konfransının, yəhudi konqresinin, sovet yəhudiləri milli komitəsinin rəhbərləri ilə görüşdə çıxışı. 8 sentyabr 2000)

**KOMSOMOL** [*rus.* Коммунистический союз молодежи] *is.* – SSRİ-də siyasi gənclər təşkilatı olan "Gənclərin Kommunist İttifaqı"nın rus dilində olan "Коммунистический союз молодежи" adının ixtisarı. İlk dəfə 29 oktyabr 1918-ci ildə yaradılmış, 1924-cü ildə təşkilata V.İ.Leninin adı verilmiş, 1926-cı ildə isə 1922-ci il SSRİ-nin yaranması ilə əlaqədar Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı (*rus.* Всесою́зный ле́нинский коммунисти́ческий сою́з молодёжи (ВЛКСМ)) adlandırılmışdır. *"O vaxtlar biz Tver bulvarındakı teatra – yeni Moskva Bədaye Akademik Teatrına keçdik, hamını oraya topladıq və mən Moskvanın rəhbərindən tutmuş bütün Moskva rəhbərliyini, ali təhsil nazirini və **komsomol**un mərkəzi komitəsinin rəhbərliyini və sair, Sov. İKP MK-nın işçilərini, məsul işçiləri dəvət etdim. Orada görüş oldu."* (Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000). *"Uzun illər ərzində mənim Azərbaycanda, sizin isə* [Lyudmila Şvetsova] ***komsomol**da birgə işimizə şadam, xatirimdədir, siz buraya gəlirdiniz..."* (Rusiya nümayəndə heyəti ilə görüşdə söhbəti. 30 iyun 2000).

**KONFEDERASİYA** [*lat.* confoederatio] *is.* – burada: ümumi bir məqsədi həyata keçirmək üçün (öz müstəqilliklərini saxlamaq şərtilə) birləşmiş dövlətlərin ittifaqı. *"Bir qism fikir söyləyənlər, o cümlədən rəsmi dairələr belə fikirdədirlər ki, guya ittifaq* ***konfederasiya*** *şəklində olsa, biz ona daxil ola bilərik. Bu fikirlərin hamısı səhvdir. Əgər bunlardan* ***konfederasiya****nı mütərəqqi hesab etsək, - mən belə hesab edirəm ki, indi bu barədə də söhbət gedə bilməz. Burada çıxış edən deputatlar tam əsaslı dedilər ki,* ***konfederasiya*** *yalnız o vaxt ola bilər ki, hər bir müttəfiq respublika tam müstəqil olsun və tam müstəqil dövlət kimi öz mənafelərinə nail olmaq üçün, öz hüquqlarını daha da müvəffəqiyyətlə həyata keçirmək üçün, öz dövlətini daha da sürətlə inkişaf etdirmək üçün başqa dövlətlərlə* ***konfederasiya*** *əlaqələrinə girə bilsin. Ona görə mən hesab edirəm ki,* ***konfederasiya*** *əlaqələri haqqında da heç söhbət ola bilməz."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 14 yanvar 1991-ci il)

**KONFLİKT** [*lat.* conflictus "toqquşan"] *is.* – toqquşma, ciddi fikir ayrılığı, mübahisə. *"Bakıda ermənilərlə azərbaycanlılar arasındakı bütün* ***konflikt****lər bu faciəli gecəyə hələ bir neçə gün qalmış bitmişdi və şəhərdə heç bir erməni qalmamışdı."* ("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il)

**KONSEPSİYA** [*lat.* conceptio "anlayışlar sistemi"] *is.* – problemin sistemli həlli yolları; bir-biri ilə əlaqəli və vahid sistem təşkil edən hansısa bir məsələ ilə bağlı baxışlar toplusu.*"Bir il bundan əvvəl olduğu kimi bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın **konsepsiya**sı və lazımi hərbi-siyasi strategiyası yoxdur."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il). *"Bir il bundan əvvəlki kimi, bu gün də Azərbaycan rəhbərliyinin Qarabağ problemi haqqında konkret və dəqiq konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur."* ("Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxuram" "Nezavisimaya qazeta" müxbirinə müsahibəsi (27 yanvar 1993-cü il). *"Çoxlu qurbanlar veririk. Lakin bu günədək müharibədən çıxmaq üçün respublika rəhbərliyinin **konsepsiya**sı yoxdur. Müharibəni qurtarmaq proqramı yoxdur."* ("Şərq qapısı" qəzeti, 10 fevral 1993-cü il).

**KONSERVATOR** [*lat.* conservo "qoruyuram, saxlayıram"] *is.* – milli adət-ənənə dəyərlərinə və qaydalarına, sosial və dini doktrinalara ideoloji sadiqlik. Burada: keçmiş üsul-idarə sisteminə sadiqlik mənasında. *"Demokratiyadan çəkinmirdim, həm də ona görə ki, təbiətim etibarilə, mənşəyim etibarilə mən **konservator** deyiləm. Amma onlar... başa düşmürlər. Və ümumiyyətlə, indiki halda mənim üçün kimin **konservator** olduğunu, kimin olmadığını söyləmək çətindir."* ("Mən kimsə, kiminləsə olmaq istəmi-

rəm...” Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il).

**KONSORSİUM** [*lat*. consortium “iştirakçılıq, icma”] *is.* – müstəqil müəssisə və təşkilatların sahibkarlıq fəaliyyətini əlaqələndirmək məqsədi ilə yaradılan müvəqqəti birlik. *“Demək, bu **konsorsium** həm yeddi neft şirkətini, həm də Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı kimi ölkələri təmsil edir.”*(Azərbaycan Milli Televiziyası və Radiosu ilə çıxışı. 22 sentyabr 1994) *“Bu, xüsusən Azərbaycanın neft və qaz yataqlarının müştərək işlənməsində Böyük Britaniyanın “Britiş Petroleum” şirkətinin **konsorsium**da tutduğu yer ilə əlaqədardır.”*(Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər və Birlik İşləri üzrə dövlət katibi Malkolm Rifkindin şərəfinə rəsmi ziyafətdə nitqi. *4 yanvar 1995*).

**KONSTİTUSİYA** [*lat*. constitutio “yerləşdirmə, qurma”] *is.* – dövlətin ali qanunu, ən yüksək hüquqi qüvvəyə malik olan xüsusi normativ hüquqi akt. *“Dağlıq Qarabağ məsələsini SSRİ **Konstitusiya**sı əsasında orada deyildiyi kimi, “hər bir müttəfiq respublikanın suverenliyi toxunulmazdır” - prinsipi ilə həll etmək əvəzinə mərkəz anlaşılmaz mövqe tutdu.”* (“Şərq qapısı” qəzeti, 2 sentyabr 1990-cı il). *“Naxçıvanın **Konstitusiya**sı daimidir və daimi də qalacaq.”* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş

dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il). *"Toplantı iştirakçıları qəti tələb edirlər ki, yeni Azərbaycan **Konstitusiya**sı qəbul edilənədək mövcud **Konstitusiya**da heç bir dəyişiklik aparılmasın."* (Naxçıvan Muxtar Respublikası ictimaiyyəti nümayəndələrinin 28 oktyabr 1992-ci il tarixli toplantısının bəyanatı. 28 oktyabr 1992-ci il).

**KONSTRUKTİV ƏMƏKDAŞLIQ** [*rus.* "конструктивное сотрудничество"-dan kalka edilmiş termin] – faydalı əməkdaşlığı inkişaf etdirmək üçün çatışmayan cəhətlərin aradan qaldırılması. *"Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr **konstruktiv əməkdaşlıq** mövqeyindən çıxış edəcəklər və bu da Azərbaycanda həqiqi demokratiyanın inkişafı üçün daha geniş imkanlar yaradacaqdır. Bir sözlə, biz Azərbaycanda müxtəlif qüvvələr olmasını təbii bir hal hesab edirik, eyni zamanda dövlət müxalif qüvvələrlə **konstruktiv əməkdaşlığ**a həmişə hazır olduğunu bildirir."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993).

**KONSULLUQ** *is.* **–** digər dövlətdə yaşayan çoxlu sayda vətəndaşların və ya konkret ticarət və ya digər

maraqların olduğu yerlərdə fəaliyyət göstərən səfirliyin nümayəndəliyi. *"Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında* ***konsulluq*** *münasibətləri yaradılmışdır. Öz növbəsində Azərbaycanın 21 xarici ölkədə səfirlik, baş konsulluq və daimi nümayəndəlikləri fəaliyyət göstərir."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000). *"Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**KÖÇKÜN** – b a x **məcburi köçkün**. *"Ölkəmizdə qaçqınların,* ***köçkün****lərin əmələ gəlməsi səbəbləri də başqa regionlardakından çox fərqlidir və bunlar hamısı Azərbaycan Respublikası üçün – kiçik bir ölkə, dövlət üçün olduqca çətin və ağır problemlər yaradır."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**KURATOR** [*lat*. curātor] *is.* – müəyyən işin gedişinə, icrasına nəzarət etməli olan şəxs, təşkilat.*"Mən Nazirlər Soveti sədrinin birinci müavini olarkən bir çox sahələrlə yanaşı, mədəniyyətin də kuratoru idim."* (Rusiya Federasiyasının MDB-nin İşləri üzrə naziri Leonid Draçevski ilə söhbətindən. 15 may 2000); *"Yeri gəlmişkən, mən səhiyyə-*

*nin də **kuratoru** idim və bu məktubu səhiyyə nazirinə, Tibb Elmləri Akademiyasının prezidenti Nikolay Nikolayeviç Bloxinə göndərdim."* (Rusiya jurnalistlərinin böyük bir qrupu ilə görüşdə söhbəti. 4 mart 2000); *"Mən idmanın da kuratoru idim. Dəmir yolunun, dəniz donanmasının, yüngül sənayenin, təhsilin də kuratoru idim və s."*(Rusiya Federasiyasının MDB-nin İşləri üzrə naziri Leonid Draçevski ilə söhbətindən. 15 may 2000).

**KURATORLUQ** *is.* – müəyyən işin gedişinə, icrasına nəzarət işi. *"Sov.İKP MK-nın mədəniyyət şöbəsinin müdir müavini işləyən və SSRİ Yazıçılar İttifaqına **kuratorluq** edən Belyayev bəs o zaman Brejnevin "Xam torpaq" əsərini vəsf edəndə niyə sarsılmırdı?"*("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il); *"Mən Siyasi Büronun bu komissiyasının üzvü idim, lakin Nazirlər Soveti sədrinin birinci müavini olaraq ticarətə də **kuratorluq** edirdim."* (Slovakiyanın Xarici İşlər naziri Eduard Kukan başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüşdə söhbəti. 1 fevral 2000).

**KVOTA** [*lat.* quota] *is.* **–** mümkün razılaşmalar və müqavilələr çərçivəsində icazə verilən bir şeyin dərəcəsi, payı və ya bir hissəsi. *"Siz də bilin, bütün ictimaiyyət də bilsin ki, heç kim heç nəyi əsla məhdudlaşdırmır, ümumiyyətlə, heç bir **kvota** yoxdur."* ("Həqiqət anı" televiziya proq-

ramının aparıcısı Andrey Karaulov ilə müsahibəsi. 21 iyun 2000). *"Buna görə də o vaxtlar mən Azərbaycan gənclərinin Sovetlər İttifaqının ali məktəblərinə müsabiqədənkənar qəbul edilməsi hüququnu aldım. Əvvəlcə 100 yer verdilər, artıq 1978-79-cu illərdə isə bu* ***kvota****nı 800 nəfərə çatdıra bildim."* (Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000); *"1992-ci ildə, Sovetlər İttifaqı artıq dağıldıqdan sonra Daşkənddə MDB dövlətləri başçılarının görüşü keçirilirdi. Orada* ***kvota****lar müəyyənləşdirilirdi ki, kim nə qədər silaha, xüsusən tanka və sairəyə malik ola bilər. Bizə məlumdur ki, o vaxt Qraçov ona demişdi ki, siz bu bölgü ilə razılaşın, – yeri gəlmişkən, belə bir bölgü Avropada Adi silahlar haqqında müqaviləyə uyğun olan* ***kvotaya*** *görə Azərbaycanın ziyanına idi, – biz sizə prezident olmağa kömək edərik. O da həmin sənədi imzalamışdır."* ("Həqiqət anı" televiziya proqramının aparıcısı Andrey Karaulov ilə müsahibəsi. 21 iyun 2000); *"Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15- də o zamankı müdafiə naziri Rəhim Qazıyevin Silahlı Qüvvələrin* ***kvota****sı ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bu gününə və gələcəyinə ömürlük zərbə vurmuşdur."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

# Q

**QAÇQIN** *is.* – Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxs. *"Bu gün biz bir daha qeyd etməliyik ki, Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün ən ağır bəla ölkəmizin hərbi təcavüzə məruz qalmasıdır, müharibə şəraitində olmasıdır, altı ildən artıq gedən müharibədə Azərbaycanın böyük itkiləri, torpaqlarının işğal olunmasıdır, bir milyondan çox əhalisinin* ***qaçqın*** *vəziyyətinə düşməsidir."*(Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994). *"Ölkəmizdə* ***qaçqın****ların, köçkünlərin əmələ gəlməsi səbəbləri də başqa regionlardakından çox fərqlidir və bunlar hamısı Azərbaycan Respublikası üçün – kiçik bir ölkə, dövlət üçün olduqca çətin və ağır problemlər yaradır. Respublikamızda həm* ***qaçqın****lar var, həm də məcburi köçkünlər var və bunların hamısının hüquqları, şüb-*

*həsiz ki, pozulub, tapdalanıbdır. Hüquq, status bir tərəfə, amma mənəvi, siyasi cəhətdən biz bunların hamısına* ***qaçqın*** *deyirik, hamısını* ***qaçqın*** *kimi qəbul edirik. Hesab edirik ki, respublikamızda* ***qaçqın*** *vəziyyətində yaşayan adamların hamısına* ***qaçqın*** *kimi münasibət göstərmək lazımdır."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**QAÇQINLAR ÜZRƏ ALI KOMISSARLIQ (QÜAK)** [*ing.* Office of the UN High Commissioner for Refugees (UNHCR)] *xüs.is.* – Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Agentliyi. Qaçqınların, məcburi köçkünlərin və vətəndaşlığı olmayan insanların həyatını xilas etmək, hüquqlarını qorumaq və daha yaxşı gələcəyini təmin etmək məqsədi daşıyır. UNHCR 1950-ci ildə İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra Avropada ölkələrini tərk edən və ya evlərini itirmiş milyonlarla qaçqına kömək etmək üçün yaradılmışdır. Bu gün BMT QAK dünyanın 134 ölkəsində 16 800-dən çox əməkdaşı çalışır və məcburi köçkün vəziyyətinə düşmüş 70,8 milyon insana və milyonlarla vətəndaşlığı olmayan insana kömək edir.*"BMT-nin, onun* ***Qaçqınlar Üzrə Ali Komissarlığının,*** *bütün beynəlxalq təşkilatların qaçqınlarla əlaqədar, Azərbaycana Ermənistan tərəfindən təcavüzlə əlaqədar, torpaqlarımızın işğal olunması ilə əlaqədar burada son illərdə apardığı fəaliyyəti mən yüksək qiymətləndirirəm və bu gün*

*konfrans iştirakçıları qarşısında və dünya ictimaiyyəti qarşısında bütün bu təşkilatlara Azərbaycan xalqı adından, Azərbaycan Respublikası adından, öz adımdan xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm."*(Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**QARDAŞ SOVET RESPUBLİKALARI** – keçmiş SSRİ-nin tərkibinə daxil olan 15 respublika: Rusiya, Belorusiya, Ukrayna, Moldova, Azərbaycan, Gürcüstan, Ermənistan, Özbəkistan, Estoniya, Litva, Latviya və Türkmənistan, Tacikistan, Qırğızıstan, Qazaxıstan. *"Azərbaycan universitetini **qardaş sovet respublikaları**nın ali məktəbləri ilə sıx dostluq, əməkdaşlıq və qarşılıqlı yardım telləri bağlayır."*(Xalq yazıçısı Mirzə İbrahimova "Oraq və çəkic" qızıl medalının təqdim edilməsi mərasimində nitqi (23 oktyabr 1981-ci il).

**QARŞIDURMA** *f.is.* **–** millətlərarası və ya siyasi ixtilaf, münaqişə. *"Əminəm ki, partiya rəhbərliyi istəsəydi, hələ 1987-ci ildə üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişə təzə başlananda onun qarşısını ala bilərdi, get-gedə güclənən **qarşıdurma**ya və həm Azərbaycan, həm də erməni xalqına ağır fəlakət və müsibətlər gətirmiş bu qırğınlara imkan verməzdi."* (SSRİ Nazirlər Kabinetinin Partiya Təşkilatına müraciəti. 19 iyul 1991-ci il); *"Orda-burda şayiə ya-*

*yırlar ki, Heydər Əliyevlə Əbülfəz Elçibəy arasında* ***qarşıdurma*** *var."* (Culfa Rayon Təşkilatının təsis konfransında çıxışı. 7 fevral 1993-cü il); *"Dünən prezident Əbülfəz Elçibəylə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə birlikdə və təkbətək. Bu gərginlik,* ***qarşıdurma*** *ancaq sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993).

**QEYRI-FORMAL GÖRÜŞ** – əvvəlcədən hazırlanmış məsələlər əsasında gündəliyi və reqlamenti olmayan görüş. *"Bilirsiniz, dünənki* ***qeyri-formal görüş*** *çox faydalı oldu. Belə* ***qeyri-formal görüş*** *daha sərbəst fikir mübadiləsi aparmağa, öz fikirlərini daha sərbəst ifadə etməyə imkan verir."* (Gürcüstan prezidenti Eduard Şeverdnadzeilə görüş və jurnalistlərin suallarına cavabı. 19 avqust 2000).

**QEYRİ-KONSTRUKTİV MÖVQE** b a x **destruktiv.** *"Siz sual verirsiniz ki, bu məsələ nə üçün həll olunmur.* Mən sizə deyirəm ki, Ermənistanın bu məsələlərdə qeyri-konstruktiv mövqeyinə görə." ("Mond diplomatik" qəzetinin müxbirinə müsahibəsi. 3 dekabr 1995); "Təəssüf ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində biz indiyə qədər sülh əldə edə bilməmişik." (Gürcüstan parlamentinin deputatları ilə görüşdə nitqi. 23 mart 2000).

**QƏSBKAR** *sif.* – burada: özgənin torpağını əlinə keçirən, zorla tutan, qəsb edən; işğalçı. *"**Qəsbkar** respublika öz ordusunu silahlandırıb bizə hücum etməyə hazırlaşır."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 14 yanvar 1991-ci il); // İs. vəzifəsində: *"Azərbaycan xalqı – öz tarixində milli qəhrəmanlıq nümunələri göstərmiş və bu gün də qəhrəmanlıq əhval-ruhiyyəsi ilə yaşayan Azərbaycan xalqı erməni **qəsbkar**larının, erməni işğalçılarının təcavüzkar hərəkətlərinə lazımi cavab verə bilməyib və torpaqlarımızın bir qismi işğal olunub, insanlarımızın bir qismi həlak olubdur, öz yerlərindən, obalarından, yurdlarından didərgin düşübdür."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**QƏSBKARLIQ** *is.* – işğalçılıq, özgə torpağı zəbt etmə. *"Bir həqiqəti də qeyd etmək lazımdır ki, Ermənistan həmişə **qəsbkarlıq** fəaliyyəti göstərib, biz isə müdafiə olunmaq, bəzən isə təslim olmaq mövqeyində durmuşuq."* (Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında çıxışı. 5 fevral 1991-çi il); *"Azərbaycan Respublikası, Azərbaycan xalqı **qəsbkarlıq** etmir, başqa respublikanın, başqa xalqın, başqa dövlətin torpaqlarına göz dikmir, hücum etmir, yalnız müdafiə olunur."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**QONAQ** *is.* **–** ölkəyə gəlmiş hansısa bir dövlətin və ya beynəlxalq təşkilatın rəsmi nümayəndəsi. *"Azərbaycan xalqı Sizi əziz **qonaq** kimi, hörmətli bir dost kimi qəbul edibdir və bu gün Sizin şərəfinizə bu salonda toplaşanların hamısı bu hissiyyatla buraya gəlibdir."* (BMT-nin baş katibi Butros Butros-Qalinin şərəfinə verilən ziyafətdə çıxışı. 30 oktyabr 1994).

**QONŞU** *sif.* – bilavasitə yaxınlıqda, ya yanaşı olan dövlət. *"Türkiyənin açıqca, qorxmadan öz türk **qonşu**sunu qorumaq və ona yardım etmək haqqındakı mühüm sözləri, şübhəsiz ki, bütün başqa dövlətlərin rəhbərlərinə və beynəlxalq aləmə təsir edəcək."* (Türkiyəyə səfəri zamanı Türkiyənin baş naziri Süleyman Dəmirəllə rəsmi görüşündə çıxışı. 23 mart 1992-ci il).

**QORBAÇOV** [*rus.* Михаи́л Серге́евич Горбачёв] *xüs.is.* **–** Mixail Sergeyeviç Qorbaçov (1931- 2022). Sovet İttifaqı KP Mərkəzi Komitəsinin son Baş katibi (1985-1991). SSRİ Ali Soveti Rəyasət Heyətinin sonuncu Sədri (1988-1989), sonra SSRİ Ali Sovetinin ilk Sədri (1989-1990) olub. Tarixdə SSRİ-nin yeganə prezidenti (1990-1991). *"Mən qoşunların yeridilməsini qəti şəkildə pislədim, onu antikonstitusion, antidemokratik və qanunazidd adlandırdım və dedim ki, belə bir addım ölkənin siyasi rəhbərliyinin və şəxsən **Qorbaçov**un kobud səhvidir."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və De-

vid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il); *"Soruşula bilər, bundan sonra Sovet İttifaqının rəhbəri kimi **Qorbaçovun** hansı nüfuzu ola bilər?"* ("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il).

**QOŞUN QRUPLAŞMASI –** qanunsuz silahlı dəstələr. *"Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində **qoşun qruplaşması** yaradaraq respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır."* (BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. 29 sentyabr 1994).

**QURTULUŞ GÜNÜ –** 15 iyun, Milli Qurtuluş Günü. 1991-1993-cü illərdə ölkənin hərc-mərclik, vətəndaş müharibəsi həddində olduğu bir zamanda o zaman ölkə prezidenti olan Əbülfəz Əliyevin (Elçibəy) və xalqın çağırışı ilə Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya gəlməsi və həmin ayın 15-də onun Azərbaycan Ali Sovetinin sədri seçilərək xalqın qurtuluşu missiyasını öz üzərinə götürdüyü gün. *"Əgər bir az əvvəlki günləri götürsək, Xalq Cümhuriyyətinin 85 illiyi ilə əlaqədar tədbirlər, indi **Qurtuluş günü** ilə əlaqədar tədbirlər və başqa tədbirlər keçirilmişdir."*(Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müşavirədə çıxışı. 16 iyun 2003-cü il).

**QÜVVƏLƏR** *is.* – **1.** Siyasi dəstələr. *"Inqilab dalğasının tələtümü içərisində Azərbaycan universitetinin yaranması qabaqcıl **qüvvələr**in qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elmi xəzinəsinin qapılarını onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunu idi."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Çünki bəzən ayrı-ayrı **qüvvələr**, ayrı -ayrı şəxslər öz şəxsi məqsədlərinə nail olmaq üçün bu prinsiplərdən sui-istifadə edirlər."*(Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**2.** Hər hansı bir istehsalat kollektivini təşkil edən adamlar, bir-birinə yaxın ixtisas, peşə və s. sahəsində çalışan adamlar, insanlar.*"Maddi sərvətlərin səmərəli şəkildə bir-birinə yaxınlaşdırılması, canlı **qüvvələr**in səmərəli bölgüsü, vaxtın az sərf edilməsi və işin daha çox səmərə verməsi – bunlar gələcək qüdrətin rəhni olan həmin birliyin əsasını təşkil edir"*. (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Rusiya iqtisadiyyatının təsiri altında Azərbaycanın məhsuldar qüvvələri sürətlə inkişaf etmiş, Azərbaycan fəhlə sinfi meydana gəlib təşəkkül tapmışdır"*.(Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin açılışında nitqi (3 oktyabr 1972-ci il).

# L

**LENİN** [*rus*. Влади́мир Ильи́ч Ле́нин] *xüs.is.* – Vladimir İliç Lenin-Ulyanov. (1870-1924). Rus inqilabçılarının rəhbəri, böyük marksizm nəzəriyyəçisi, sovet siyasətçisi və dövlət xadimi, Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (bolşeviklər) banisi, Rusiyada 1917-ci il Oktyabr İnqilabının əsas təşkilatçısı və rəhbəri, RSFSR Xalq Komissarları Sovetinin ilk sədri və SSRİ Xalq Komissarları Soveti, dünya tarixində ilk sosialist dövlətinin banisi. Marksist, publisist, hüquqşünas, ideoloq və Üçüncü (Kommunist) İnternasionalın yaradıcısı, Sovet Sosialist Respublikaları İttifaqının yaradıcısı. Onun əsas siyasi və publisistik əsərlərinin əhatə dairəsini materialist fəlsəfə, marksizm nəzəriyyəsi, antikapitalizm və antiimperializm, sosialist inqilabının həyata keçirilməsi, sosializm və kommunizm quruculuğu nəzəriyyəsi və praktikası təşkil edir (bax: Müharibə kommunizmi və Yeni İqtisadi Siyasət. ) və sosializmin siyasi iqtisadiyyatı. *"Məhz Sovetlər hakimiyyəti sayəsində, sosialistcəsinə yenidənqurma haqqında **Lenin** ideyalarının həyata keçirilməsi sayəsində Azərbaycan universiteti əsil xalq ali məktəbinə çevrildi, bu məktəbin qapıları fəhlə və kəndlilərin üzünə açıldı."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Din*

*xalqın tiryəkidir" sözləri **Lenin**in idi. Bizi dindən ayırmaq istədilər, amma bunu edə bilmədilər."* Bakıda İran İslam Respublikasının VIII sərgisinin açılışında nitqi. 29 aprel 2000); *"Yeri gəlmişkən deyim ki, bilmirəm **Lenin**ə kim necə yanaşır, amma bu baxımdan **Lenin**in çox düzgün fikirləri var idi. O deyirdi ki, bu da, o birisi də – şovinizm də, millətçilik də təhlükəlidir."* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

**LENİNÇİ** – V.İ.Leninin ideyalarının davamçısı. *"A.V.Lunaçarski N.Nərimanovu **leninçi**-beynəlmiləlçi kimi, Şərqdə Sovet hakimiyyəti ideyalarının təbliğatçısı kimi səciyyələndirərək yazırdı ki, onun fəaliyyəti bir daha təsdiq edir ki, "bir tərəfdən kommunizm, marksizm, leninizm ideyası ilə, digər tərəfdən isə Şərq kütlələri ilə möhkəm bağlı olan inqilabçılar nə qədər qiymətlidir".* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**LENİNİANA** – SSRİ-də Vladimir İliç Leninin həyat və yaradıcılığına həsr olunmuş incəsənət və ədəbiyyat əsərləri toplusunun adı. *"Respublikanın teatrları özlərinin **leninianas**ını yaratmışlar."* (Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il). *"Lenin mövzusu M.Abdullayevin* [SSRI Rəssamlıq Akademiyasının müxbir üzvü Mikayıl Abdullayev] *ya-*

*radıcılığında əsas mövzuya çevrilmişdir. O, Leniniananı böyük ustalıqla, yüksək professional səviyyədə yaradır."* ("Bakı" qəzeti, 1982, 18 may).

**LENİNİZM** – b a x **leninçi.** *"A.V.Lunaçarski N.Nərimanovu leninçi-beynəlmiləlçi kimi, Şərqdə Sovet hakimiyyəti ideyalarının təbliğatçısı kimi səciyyələndirərək yazırdı ki, onun fəaliyyəti bir daha təsdiq edir ki, "bir tərəfdən kommunizm, marksizm, **leninizm** ideyası ilə, digər tərəfdən isə Şərq kütlələri ilə möhkəm bağlı olan inqilabçılar nə qədər qiymətlidir".* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**LİBERAL** [*lat.* liberalis "azad"] *sif.* – burada: siyasi liberal. dövlətin ictimai münasibətlərə məhdud müdaxiləsi tərəfdarı olan. *"Birinci rus inqilabı dövründə yazdığı publisistik məqalələrində N.Nərimanov çarizm, kadetlərin və digər burjua partiyalarının əksinqilabi siyasətini, **liberal** burjuaziyanın canfəşanlıqla yaydığı konstitusiya xülyalarını amansızcasına ifşa etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il). // İs. vəzifəsində. *"Əgər sən **liberal**sansa, əgər sən Xalq Cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var, deməyəcəklər."* (Yazıçı Aleksandr Proxanovla müsahibəsi. 12 avqust 1993).

**LİBERALLAŞDIRILMA** "Liberallaşdırılmaq"dan *f.is. "Bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərə alaraq, biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında ticarət maneələrinin tədricən aradan qaldırılmasını, iqtisadiyyatın daha geniş miqyasda* ***liberallaşdırılma****sını istəyirik. İqtisadi islahatların qanunvericilik bazasının formalaşdırılması, iqtisadiyyatın* ***liberallaşdırılma****sı və özəlləşdirmənin həyata keçirilməsi xarici kapitalın ölkəmizə cəlb edilməsi üçün əlverişli şərait yaradır."* (İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO-nun) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VI zirvə görüşündə nitqi. 10 iyun 2000-ci il); *"İkinci şərt lazımi qanunlardır ki, bu sərmayəçilərə lazım olan təminatların verilməsi, ticarətin* ***liberallaşdırılma****sı, ümumiyyətlə, iqtisadiyyatın* ***liberallaşdırılma****sı – bunlar hamısı təmin olunubdur."* (Avstriya İqtisadiyyat Palatasında ölkənin xarici siyasət və beynəlxalq əlaqələr cəmiyyətinin üzvləri ilə görüşdə nitqi. 4 iyul 2000-ci il); *"Azərbaycanda iqtisadiyyatın, xarici ticarətin* ***liberallaşdırılma****sı, iqtisadi islahatların həyata keçirilməsi ölkəmizə dünyanın hər yerindən müxtəlif növ istehlak mallarının gəlməsini təmin edibdir. Təbiidir ki, bu da insanlar üçün çox böyük rahatlıq yaradıbdır."* (Əhməd Necdət Sezərin şərəfinə təşkil olunmuş rəsmi qəbulda çıxışı. 11 iyul 2000-ci il, "Gülüstan" sarayı); *"Onların içərisində torpaq islahatı haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin* ***liberallaşdırılma****sı, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı,*

*əhalinin sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tutur."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000-ci il).

**LİBERALLAŞDIRILMAQ** "Liberallaşdırmaq"dan *məch. "İndi Azərbaycanda xarici ticarət tam **liberallaşdırıldığına**, sərbəstləşdirildiyinə görə ölkəmizə dünyanın hər yerindən mal gəlir."* (Bakıda İran İslam Respublikasının VII sərgisinin açılışında nitqi. 29 aprel 2000-ci il).

**LİBERALLAŞDIRMA** "Liberallaşdırmaq"dan *f.is. "Məhz iqtisadi islahatların, bizim düzgün iqtisadi siyasətimizin, xarici ticarəti sərbəstləşdirməyimizin, iqtisadiyyatın bütün sahələrində **liberallaşdırma** aparmağımızın nəticəsində biz Azərbaycanda iqtisadiyyatın belə inkişafına nail ola bilmişik."* (28 May – Respublika günü münasibətilə keçirilən təntənəli mərasimdə nitqi. 27 may 2000-ci il).

**LİBERALLAŞDIRMAQ** *f.* – burada: iqtisadiyyat sahəsində liberallaşdırmaq, yəni dövlətin müdaxiləsi olmadan azad ticarət və rəqabətə şərait yaratmaq. Əsas şüar azad, özəl sahibkarlıqdır. *"Biz insanlara sərbəstlik, sahibkarlıq üçün geniş imkanlar vermişik, xarici ticarəti **liberallaşdırmışıq**."* ("Ekonomiçeskaya jizn" qəzetinin müxbirinə müsahibəsi. 2 yanvar 2000-ci il).

**LİBERALLIQ** *is.* – burada: siyasi liberalizm – dövlətin ictimai münasibətlərə məhdud müdaxiləsi anlayışı. *"Təbiətim etibarilə mən həmişə liberallığın əleyhinə olmuşam. Bəli, **liberallığ**ın əleyhinə. Mən, məsələn, həmişə insanlara yüngül münasibət bəsləyən şəxslərə pis yanaşmışam. Mənim üçün ən ağrılı şey kadr işində buraxılmış səhvlərdir – 70-ci illərdə formalaşmış və tərəfimizdən məsul vəzifələrə irəli çəkilmiş şəxslərin özünü doğrultmaması və sui-istifadə hallarına yol verməsi hallarıdır."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**LOBBİ** *is.* [*ing.* lobby] – beynəlxalq təşkilatların, birliklərin, dövlət orqanlarının və ya yerli özünüidarəetmə orqanlarının qərarlarının qəbul edilməsinə (və ya qəbul edilməməsinə) təsir göstərmə funksiyasına malik olan fiziki şəxslərin, dövlət və qeyri-dövlət təşkilatlarının nümayəndəlikləri. *"İsveçrədə yaşayırsınız, burada yaşayışınız rahatdır, azərbaycanlıların cəmiyyəti var, **lobbi**si var."* (İsveçrədə yaşayan soydaşlarımızla görüşdə çıxışı. *29 yanvar 1995*). *"İndi bizim müstəqil bir ölkə kimi xaricdə, məsələn, Avropa, Amerika dövlətlərində güclü **lobbi**yə, güclü diaspora ehtiyacımız var. Amma hansı bir beynəlxalq təşkilatda işə başlayırıqsa, görürük ki, orada erməni **lobbi**si çox güclüdür. Ermənilərin Azərbaycana qarşı apardıqları müharibədə haqsız olduqlarına baxmayaraq, erməni **lobbi**si öz imkanlarından istifadə edərək bizim haqq işimizin, haqlı təkliflərimi-*

*zin eşidilməsinə maneçilik törədir."* ( Brüsseldə soydaşlarımızla görüşdə çıxışı. *17 aprel 1995*); *"..erməni **lobbi**sinin nümayəndələri gəlib Konqresdəki bəzi adamlarla danışıb, onlara təsir edib, razılığını alıb. Digər tərəfdən, xarici ölkələrdəki Azərbaycan **lobbi**sinin fəaliyyətini gücləndirmək üçün gərək bizim nümayəndəliyimiz, səfirliyimiz lazımi iş görsün. Burada respublikamızın səfiri neçə ildir işləyir, özü də təcrübəli adamdır."* (Brüsseldə soydaşlarımızla görüşdə çıxışı. *17 aprel 1995*).

# M

**MARKSİZM-LENİNİZM İDEYALARI** – marksizm və leninizmə əsaslanan siyasi-iqtisadi görüşlər. *"Bakı proletariatının beynəlmiləl ailəsində mətinləşən, onun inqilabi çarpışmalarında iştirak edən Nəriman Nərimanov **marksizm-leninizm ideyaları**na getdikcə daha dərindən yiyələnir və siyasi rəhbər kimi püxtələşirdi."* (Nəriman Nərimanovun abidəsinin açılışında nitqi. 6 iyun 1972-ci il).

**MDB** [*rus.* СНГ (Содружество Независимых Государств)] *abr.* – Müstəqil Dövlətlər Birliyi. Keçmiş SSRİ dağıldıqdan sonra tərkibində olmuş əksər respublikaların daxil olduğu 8 dekabr 1991-ci ildə yaradılmış regional təşkilat. *"Sivilizasiyalı bazarın bütün formalarında, sahibkarlıqda, kommersiya banklarında, xarici kapitalın cəlb edilməsində, o cümlədən **MDB** ölkələrində toplanmış müsbət cəhətlərdə görürəm."* (Yazıçı Aleksandr Proxanovla müsahibəsi. 12 avqust 1993); *"Buna görə də orada dedim, **MDB**-yə daxil olan müstəqil ölkələrin ayrı-ayrı rəhbərləri ilə söhbətlərdə də təkrar etdim ki, biz bu vəziyyətlə barışa bilmərik və zənnimcə, bu bəyanat öz nəticəsini verməlidir."* (Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

**MƏCBURİ KÖÇKÜN** – Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxs. *"Xalqımız dünyanın hər bir yerində qaçqınların, **məcburi köçkün**lərin vəziyyətini dərindən anlayır, onların çəkdiyi əzab-əziyyətləri öz əzab-əziyyətləri hesab edir. Dünyanın hər bir regionunda qaçqınların, **məcburi köçkün**lərin özünəməxsus xüsusiyyətləri var. Bunun həm səbəbləri, həm də qaçqınların düşdüyü vəziyyətlər cürbəcürdür və bəzən bir-birindən çox fərqlidir. Ancaq biz hesab edirik ki, Azərbaycan Respublikasının ərazisində olan qaçqınların, **məcburi köçkün**lərin vəziyyəti ən ağırdır, ən çətindir, ən dözülməzdir."*(Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**MƏDƏNİ MÜBADİLƏ** – ölkələr arasında mədəniyyət və elm sahələri üzrə qarşılıqlı əlaqə prosesi. *"O ki qaldı **mədəni mübadilə**yə, tələbə mübadilələrinə, bəli, biz iqtisadi, elmi-texniki, mədəni əməkdaşlıq haqqında müqavilə imzalamışıq. Müqavilədə, əlbəttə, tələbə mübadilələri də nəzərdə tutulur."*(Fransaya rəsmi səfər zamani Parisdə mətbuat konfransında bəyanatı. 21 dekabr 1993).

**MİLLƏTÇİ** *is.* – ideologiya və siyasət istiqaməti, onun əsas prinsipi ictimai birliyin ən yüksək forması kimi millətin dəyəri tezisidir. *"Onlar erməni **millətçi**ləri tə-*

*rəfindən süni şəkildə yaradılır və yayılır ki, ictimai rəy Azərbaycana və şəxsən mənə qarşı çevrilsin."* ("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il).

**MİLLƏTLƏRARASI** *sif.* – **1.** Məhdud bir ərazidə xalqlar, millətlər arasında münasibətlə əlaqəli. *"**Millətlərarası** konfliktlər artıq normaya çevrilmişdir - gah Alma-Atada, gah Özbəkistanda, gah Türkmənistanda, gah Qırğızıstanda, gah Bakıda, gah Gürcüstanda, - deyin, nə qədər olar, hə?"* ("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il). *"Əgər bizim şəhərdə evlər partladılmasaydı, terror olmasaydı, ümumiyyətlə, həyat daha yaxşı olsaydı, belə sosial problemlər olmazdı, bəlkə **millətlərarası** münasibətlər də daha sakit olardı."* (Rusiya Federasiyasının və Moskva şəhərinin Azərbaycanda keçirilən mədəniyyət günlərində iştirak etmək üçün Bakıya gəlmiş Rusiya nümayəndə heyətinin rəhbərləri ilə görüşdə söhbəti. 26 iyun 2000).

**2.** Beynəlxalq (geniş miqyasda). *"Əlbəttə, əgər **millətlərarası** münasibətlərdən, mədəni dəyərlərin mübadiləsindən danışmalı olsaq, onda görərik ki, bu tədbirlər çox yaxşı idi."* (Rusiya Federasiyasının və Moskva şəhərinin Azərbaycanda keçirilən mədəniyyət günlərində iştirak etmək üçün Bakıya gəlmiş Rusiya nümayəndə heyətinin rəhbərləri ilə görüşdə söhbəti. 26 iyun 2000). *"Ancaq dövlətlərarası, xalqlararası, **millətlərarası** əlaqələr elədir ki,*

*bunu gərək daim və daim inkişaf etdirəsən."* (Türkiyənin "Mərmərə qrupu" vəqfinin sədri ilə görüşdə söhbəti. 11 aprel 2000).

**MİLLƏTLƏRARASI ÜNSİYYƏT DİLİ** – çoxmillətli dövlətdə xalqlararası ünsiyyət vasitəsi kimi istifadə edilən dil. *"Halbuki Sovetlər İttifaqında hamının ancaq rus dilində, **millətlərarası ünsiyyət dili**ndə danışmalı olması, digər dillərin isə getdikcə ölməli olması fikri təlqin edilirdi."*(Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

**MİLLİ-DEMOKRATİK DÖVLƏT** – milli dəyərlərin qorunduğu və öndə olduğu, vətəndaşlara geniş siyasi və sosial-iqtisadi hüquq azadlığını nəzərdə tutan və təminat verən dövlət. *"Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, **milli-demokratik dövlət**in, hüquqi cəmiyyətin yaradılması hərtərəfli, genişplanlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il).

**MİLLİ DİRÇƏLİŞ** – 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda baş verən anti-sovet milli-azadlıq hərəkatı. *"Əgər bizim respublikamız həqiqətən **milli dirçəliş** yoluna çıxıbsa və bu yolla getmək istəyirsə, onda hansı ittifaq*

*birliyindən söhbət gedə bilər?"*(Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 29 noyabr 1990-cı il).

**MİLLİ MƏCLİS** – Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən dövlət hakimiyyəti orqanı. *"Həm **Milli Məclis**də, həm də avqust ayının 13-də keçirdiyimiz müşavirədə bəzi iradlar tutublar ki, Azərbaycan Respublikası rəhbərlərinin dövlət orqanlarının mövqeyi məlum olmadığına görə, xalq da çaş-baş qalmışdır."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993-cü il); *"Yadınıza salmaq istəyirəm ki, **Milli Məclis**in iclasında və ondan bir gün qabaq Ali Sovetdə keçirilən geniş müşavirədə Lənkəran və onun ətrafındakı rayonlardan olan nümayəndələr, Azərbaycan ziyalıları, məclis üzvləri, xalq deputatları bizə və o cümlədən şəxsən mənə irad tutdular ki, nə üçün bu nalayiq hərəkətlərə, Azərbaycanı parçalamaq, dağıtmaq cəhdlərinə indiyə qədər lazımı qiymət verilməyib, laqeyd münasibət göstərilib və bunların qarşısı vaxtında alınmayıbdır."* (Azərbaycan Milli Televiziyası ilə xalqa müraciəti. 23 avqust 1993).

**MİLLİ ŞURA** *xüs.is.* – 1. 27 may 1918-ci ildə yaradılmış Müvəqqəti Milli Şura, ilk qanunverici orqan. Mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının ilk iclası keçirilmiş və Azərbaycanın Müstəqil Cümhuriyyətinin

qurulması haqqında qərar qəbul edilmişdir. *"Azərbaycan **Milli Şura**sının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

2. Azərbaycan Ali Sovetinin Milli Şurası, indiki Milli Məclis. 1991-ci il avqustun 30-da Azərbaycanın Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyinin bərpası" haqqında Bəyannamənin qəbul edilməsi ilə əlaqədar olaraq, Azərbaycanın tam dövlət müstəqilliyi əldə etməsi üçün zəmin yaratmaq məqsədilə elan olunmuş müvəqqəti dövrdə yaradılmış dövlət qurumu. *"Mənə **Milli Şura**nın (indi ona Milli Məclis deyirik) 1992-ci il 19 yanvar tarixli qərarı təqdim edildi. Bu, həmin faciədən iki il sonra qəbul olunmuş qərardır. Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, **Milli Şura** nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb?"* (20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının iclasında çıxışı. 12 yanvar 1994).

**MİNSK QRUPU –** ATƏT-in (əvvəlki adı ATƏM) Minsk qrupu. Azərbaycan və Ermənistan arasında olan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in prinsipləri əsasında sülh və danışıqlar vasitəsi ilə həlli üçün yaradılmış qurum. İlk dəfə 1992-ci ilin 24 martında ATƏM-in

Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilmiş görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olunmuş, münaqişənin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edilmişdir. Qurumun həmsədrləri əvvəlcə Finlandiya və Rusiya, 1995-1996-cı illər ərzində isə İsveç və Rusiya başçılıq etmişdir. 1 yanvar 1997-ci ildən bu vəzifəni ABŞ, Rusiya və Fransa öz öhdəsinə götürmüşdür. *"Siyasi tədbirlər, diplomatik tədbirlər çox görülmüş, beynəlxalq təşkilatların – BMT-nin, ATƏM-in, onun **Minsk qrupu**nun imkanlarından faydalı istifadə etməyə çalışmışıq."* (Cəbhəyanı bölgədə – İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**MİTİNQ –** siyasi və cari həyatın digər aktual məsələlərini müzakirə etmək üçün kütləvi yığıncaq. *"Məlumdur ki, qanun pozuntularında, cürbəcür **mitinq**lər keçirilməsində əsasən gənclər iştirak edirlər.""Xalq bütün bunları həmin **mitinq**lərdə nümayiş etdirirdi. Onu da qeyd etmək lazımdır ki, meydanlarda, **mitinq**lərdə fəal iştirak edən adamların çoxu Qarabağa döyüşə gedir, torpağımızı qoruyur, bu yolda şəhid olurdu."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993).

**MÖVQEYİ MÖHKƏMLƏTMƏK** – xarici siyasətdə tərəfdaşlar qazanmaq. *"İngiltərə parlamentində, digər*

*dövlət dairələrində görüşlər olacaqdır. Şübhəsiz ki, bunların hamısı gənc respublikamız üçün, onun xarici siyasəti üçün və dünyada öz* ***mövqeyini möhkəmləndirməsi*** *üçün olduqca lüzumlu məsələlərdir və mən də İngiltərəyə bu məsələlərin həll edilməsi üçün gedirəm."* (Böyük Britaniyaya rəsmi səfərə yola düiməzdən əvvəl Binə Hava Limanında jurnalistlərə müsahibəsi. 22 fevral 1994); *"Azərbaycanın belə bir dövlətlə əməkdaşlıq etməsi, həm siyasi, iqtisadi sahələrdə, həm də elm, mədəniyyət sahəsində əlaqələr qurması respublikamızın beynəlxalq aləmdə* ***mövqeyinin möhkəmlənməsində*** *böyük əhəmiyyətə malikdir."* (Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışı. 29 iyul 1994).

**MUNDİR ŞƏRƏFİ** [*rus.* "честь мундира"-dan kalka] – zabit, komandir, vəzifə və s.-nin şərəfi, ləyaqəti. *"Biz, təkrar edirəm, heç vaxt "mundir şərəfi"nin müdafiəsinə qalxmamışıq."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**MUSİQİÇİ-TRİBUN** *is.* – musiqiçi və natiq, orator. *"Bəstəkar, pedaqoq, alim, rəhbər, ictimai-siyasi xadim olan Qara Qarayev həmişə və hər işdə ən əvvəl kommunistdir, alovlu* ***musiqiçi-tribun****dur."* ("Bakı" qəzeti, 1982, 20 may, s. 2).

**MUXTARİYYƏT** [*ər.* مختاريّت] *is.* – daxili idarəetmə və qanunvericilik işlərində sərbəst olma hüququ; özünüidarə. *"Dünyada **muxtariyyət** statusunun bir çox forması var."* ("Nyu-York tayms" qəzetinin redaksiya heyətinin üzvləri ilə görüşdə söhbəti. 16 fevral 2000).

**MÜXALİFƏT** [*ər.* مخالفات] *is.* – əks mövqeli siyasi qüvvələr. *"Əgər **müxalifət**də olan qüvvələr Azərbaycanın müstəqilliyini qorumağa tərəfdardırlarsa, deməli, burada fikir müxtəlifliyi yoxdur. Belə bir halda, əgər iqtidarla **müxalifət** arasında ideoloji fərq yoxdursa, burada ikinci bir iddia var: "Sən vəzifədəsən, mən yox, mən sənlə mübarizə aparacağam ki, sənin vəzifəni əldə edəm". Amma o qatı **müxalifət**də olan qüvvələr dünənədək vəzifələrdə idi, həmin vəzifələri onların əlindən heç kim almadı, özləri getdilər. İndi **müxalifət**də olan bu adamların arasında terrorçuluq əhval-ruhiyyəsi ilə yaşayan, terrorçuluq məqsədi daşıyan şəxslər də var."*(Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993).

**MÜXALİFƏT BLOKU** – müxalif partiyaların birliyi. *"Sonra Elçibəy **müxalifət bloku** yaratdı."* ("Mən sizə heç nə vəd etmirəm". "Sobesednik" qəzetinə müsahibəsi. 10 avqust 1993).

**MÜTTƏFİQ RESPUBLİKA** – burada: SSRİ tərkibinə daxil olan Sovet Sosialist Respublikaları. *Bu tarixi-ob-*

*yektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çıxmasına və 15* ***müttəfiq respublika****nın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Təkrar edirəm, bu, tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş* ***müttəfiq respublika****ların xalqlarına əvəzsiz töhfəsidir."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il); *"Bu proseslərin nəticəsində Sovetlər birliyi dağılıb və bu birliyin daxilində olan 15* ***müttəfiq respublika*** *müstəqillik əldə edib."* (Culfa Rayon Təşkilatının təsis konfransında çıxışı. 7 fevral 1993-cü il); *"Əgər bizim konstitusiyamızda* ***müttəfiq respublika****ya ayrılmaq da daxil olmaqla öz müqəddəratını təyin etmək hüququ verilmişsə, qoy onda respublika istədiyi kimi hərəkət etsin."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il).

**MÜNAQİŞƏ** [*ər.* مناقشه] *is.* – çəkişmə, toqquşma, qarşıdurma, ciddi ixtilaf. *"Doğrudur, Gürcüstan da buna bənzər bir problemlə yaşayır – orada Abxaziya* ***münaqişə****si vardır, onlarda da qaçqınlar, köçkünlər vardır."* (Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə BDU-nun və bir sıra xarici ölkə universitetlərinin rəhbərləri ilə görüşdə nitqi. 11 fevral 2000); *"Bu* ***münaqişə*** *bütün Qafqazda vəziyyəti gərginləşdiribdir. Məhz bu* ***münaqişə****dən dörd il sonra Gürcüstanda Abxaziya, Osetiya* ***münaqişə****ləri başlayıbdır. Ondan sonra Moldovada Dnestryanı* ***münaqişə****si başlayıb-*

*dır. Ondan da sonra Çeçenistan **münaqişə**si başlayıbdır. Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ **münaqişə**si bütün postsovet məkanında **münaqişə**lərin meydana çıxmasının əsasını qoyubdur. Hesab edirəm ki, əgər bu **münaqişə**nin təkcə Ermənistan və Azərbaycan üçün zərərli olduğunu yox, bütün başqa ölkələrə də sirayət edəcəyini vaxtında anlaya bilsəydilər, bu **münaqişə**nin qarşısı alına bilərdi."* (Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000).

**MÜNASİBƏTLƏR** *is.* – iki ölkə arasında siyasi-diplomatik, iqtisadi, elmi-mədəni və s. əlaqələr. *"Çin ilə Azərbaycan arasında **münasibətlər** bu yaxınlarda yaradılmışdır. Buna görə də biz tam əsasla deyə bilərik ki, Çin Xalq Respublikası ilə müstəqil Azərbaycan Respublikası arasında dostluq **münasibətlər**i yaranmışdır."*(Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Pekin İctimai Elmlər Akademiyasında çıxışı. 9 mart 1994).

**MÜŞAVİRƏ** [*ər.* مشاورة] *is.* – dövlət əhəmiyyətli məsələlərin həlli ilə bağlı fikir mübadiləsi aparılması məqsədilə həyata keçirilən qarşılıqlı görüşmə. *"Biz bugünkü **müşavirə**ni çağırmışıq ki, hər bir ağsaqqal, müəssisə və idarə rəhbərləri öz münasibətini bildirsin."* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il). *"Qeyd edim ki, **müşavirə**ni başlayarkən mən bu proseslə-*

*rin gedişi haqqında və qarşımıza çıxan məsələlərə baxışımız haqqında geniş məlumat verdim."* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993).

**MÜTƏLLİBOV** b a x **Ayaz Mütəllibov.**

**MÜZAKİRƏ** [*ər.* مذاكرة] *is.* – siyasi debat. *"Nəhayət, avqustun 16-da bu məsələni Milli Məclisin **müzakirə**sinə çıxardıq."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993-cü il). *"İdeoloji işçilərin Ümumittifaq **müşavirə**sində M.A.Suslov yoldaşın qeyd etdiyi kimi, bu qərar uzunmüddətli proqram xarakteri daşıyır."* (Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçılarının şərəfinə qəbulda nitqindən. 10 oktyabr 1979-cu il)

# N

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI** *xüs.is.* – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. *"Əlbəttə, prezident kimi, Əbülfəz Elçibəy **Naxçıvan Muxtar Respublikası**na da lazımınca diqqət yetirmirdi, halbuki Naxçıvan blokada ilə əlaqədar ağır vəziyyətdə idi və bu gün də ağır vəziyyətdədir."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993).

**NAXÇIVAN MSSR ALİ SOVETİ** *xüs.is.* – Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1938-1990-cı illərdəki parlamenti. 17 noyabr 1990-cı il tarixində Naxçıvan MSSR Ali Sovetin XII çağırışının ilk iclasında Ali Sovetin 2 nömrəli M. F. Axundov seçki dairəsinin deputatı Heydər Əliyev Ali Sovetin Rəyasət Heyətinin sədri seçilmişdir. Həmin sessiyada "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması ilə yanaşı, Naxçıvan MR Ali Sovetinin Ali Məclis adlandırılması barədə qərar qəbul olunmuşdur. *"Yeri gəlmişkən, bu kollektiv mənim **Naxçıvan MSSR Ali Soveti**nə deputatlığa namizədliyimi irəli sürübdür."*("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il).

**NAZİRLƏR KABİNETİ** *xüs.is.* – burada: Azərbaycan Respublikasının Nazirlər Kabineti. Onun səlahiyyətlərinə daxildir: Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək; Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını, maliyyə-kredit və pul siyasətinin, dövlət iqtisadi proqramlarının, dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin etmək; nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik etmək, onların aktlarını ləğv etmək; Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll etmək. *"Ancaq belə olmayıb və mən də bu fikirdəyəm ki,* ***Nazirlər Kabineti****ndə bu təklifləri hazırlayarkən və bir neçə dəfə mənim qarşımda bunların zəruriliyi barədə məsələ qaldırarkən, qiymətlərin qaldırılmasını tələb edərkən, şübhəsiz ki, bunların həyata keçirilməsi mexanizmini də gərək hazırlayıb mənə təqdim edəydilər."*(Prezident sarayında Respublikanın sosial-iqtisadi problemlərinə həsr olunmuş müşavirədə çıxışı. 24 noyabr 1993). *"Aydın olur ki, bir çox sahələrdə avqust ayından indiyədək məvaciblər də verilməyibdir. Demək, maaşların verilməsi təmin olunmalı idi. Əgər bunun üçün əlavə pul lazım idisə, vaxtında gətirilməli idi. şübhəsiz ki, bununla gərək* ***Nazirlər Kabineti*** *məşğul olaydı. Bütün bunlar barədə qəbul olunmuş qərarlar həyata keçirilməlidir və bunun üçün* ***Nazirlər Kabineti****, nazirliklər, şəhər, rayon icra orqanları lazımi tədbirlər görməlidirlər. Burada qəbul edilmiş təkliflər əsa-*

*sında* ***Nazirlər Kabineti*** *təcili olaraq qərarlar qəbul etməlidir və onlar elan olunmalıdır. Eyni zamanda, Milli Banka, Maliyyə Nazirliyinə və* ***Nazirlər Kabineti****nə tapşırıram ki, kommersiya strukturları tərəfindən bu tədbirlərin həyata keçirilməsini təklif etsinlər, ona nəzarət etsinlər.* ***Nazirlər Kabineti*** *bu barədə lazımi tədbirlər görsün, bütün bu sahələrə nəzarət etsin."* (Prezident sarayında Respublikanın sosial-iqtisadi problemlərinə həsr olunmuş müşavirədə çıxışı. 24 noyabr 1993).

**NAZİRLƏR SOVETİ (Azərbaycan SSR Nazirlər Soveti)** – 1946–1991-ci illərdə Azərbaycan SSR-də dövlət hakimiyyətinin ali icraedici orqanı, Azərbaycan SSR hökuməti. *"İzin verin, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncağımızın bütün iştirakçılarını Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, respublika Ali Sovetinin Rəyasət Heyətivə* ***Nazirlər Soveti*** *adından və onların tapşırığı ilə, Azərbaycan xalqı adından səmimi salamlayım."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Onu* [qonaq evini] *Nazirlər Sovetinin vəsaiti hesabına tikdik."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**NEFT** [*qəd.Mid.* "sızıb üzə çıxan"] *is.* – tərkibi karbohidrogen birləşməsi olan və enerji, neft-kimya sənə-

yesində istifadə olunan xammal. 70-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindəndir. Onun Azərbaycan iqtisadiyyatını böhran vəziyyətindən çıxarma siyasətinə "Əsrin müqaviləsi" daxildir. "*Azərbaycanda neft çıxarılmasına və emal olunmasına başlanan kimi Bakı dünyanın inkişaf etmiş ölkələrinin saysız-hesabsız neft şirkətlərinin diqqətini cəlb etmişdir.*" (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı 15 iyun 1993-cü il); *"Mən bəyan etdim ki, Azərbaycan qədim **neft** ölkəsidir. 50 il bundan öncə Azərbaycan Xəzər dənizinin dərinliklərindən **neft** hasil etməyə başlamışdır. Demək olar ki, Azərbaycan dünyada ilk dəfə dənizdən **neft** hasil edən ölkə olmuşdur. Amma sonra dünyanın bir çox ölkələrində bu məsələ çox güclü inkişaf etmişdir. Çox yüksək imkanlara malik olan texnika, texnologiya, avadanlıq yaranmışdır və suyun böyük dərinliklərindən **neft** çıxarılması prosesi indi dünyada çox yüksək səviyyədədir."* (Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000).

**NEFT ÖLKƏSİ** – ölkə iqtisadiyyatının böyük bir hissəsini neft xammalı ehtiyatlarını ixrac etməklə tənzimləyən dövlət. *"**Neft ölkəsi** kimi tanınan Azərbaycan yaxın gələcəkdə həm də böyük həcmdə qaz ixrac edəcək."* (ABŞ prezidenti Bill Klintonla görüş başa çatdıqdan

sonra Ağ Evin qarşısında yerli və xarici jurnalistlərlə görüşdə çıxış və suallara cavabı. 15 fevral 2000).

**NƏRİMAN NƏRİMANOV (N.NƏRİMANOV)** – ixtisasca həkim, siyasi fəaliyyətinə görə Azərbaycanın ictimai-siyasi xadimi, inqilabçı-bolşevik, yazıçı, publisist (1870-1925). 1920-ci ildə RK(b)P-nin qərarı ilə respublikanın ali dövlət hakimiyyəti orqanı olaraq yaradılan Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin (AMİK) üzvü, 1920-ci ilin aprel ayının 28-də də Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1-ci Sədri, 1-ci Xalq Xarici İşlər Komissarı, Azərbaycan SSR İnqilab Komitəsinin Sədri; 1922-ci ildə Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqının (Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR)) Sovetlər qurultayının 1-ci Sədri və SSRİ Mərkəzi İcraiyyə Komitəsi (SSRİ MİK) Rəyasət Heyətinin ZSFSR-dən 1-ci Sədri. *"Bu gün biz qardaş Sovet Sosialist Respublikaları İttifaqının yaradılmasına partiyanın iradəsi ilə çoxlu əmək və inqilabi qüvvə sərf etmiş olan bir insanın, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin ilk sədrlərindən birinin, V.İ.Leninin şagirdi və silahdaşı **Nəriman Nərimanov**un anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etməyə toplaşmışıq."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Azərbaycan paytaxtında bütün ömrünü zəhmətkeşlərin azadlığı və səadəti uğrunda mübarizəyə həsr etmiş insanın, SSRİ MİK-in ilk sədrlərindən biri **Nəriman Nərimanov**un*

*abidəsinin ucaldılmasının dərin rəmzi mənası vardır."* (Nəriman Nərimanovun abidəsinin açılışında nitqi. 6 iyun 1972-ci il); *"**Nəriman Nərimanov** SSRİ MİK-in sədri kimi yüksək vəzifədə çalışarkən var qüvvəsini, biliyini və təcrübəsini partiyanın Mərkəzi Komitəsinin və Sovet hökumətinin qərarlarının – qardaş respublikalarda iqtisadiyyatın və mədəniyyətin inkişafına, sovet xalqlarının dostluq və əməkdaşlığının möhkəmlənməsinə yönəldilən qərarların həyata keçirilməsi uğrunda mübarizəyə sərf edirdi."* (Nəriman Nərimanovun abidəsinin açılışında nitqi. 6 iyun 1972-ci il).

**"NİCAT"(I)** *xüs.is.* – Beynəlxalq İslam Təşkilatı. *"Beynəlxalq İslam "Nicat" Təşkilatı Bərdə rayonunda yerləşdirilmiş 10 min nəfər, Sumqayıtda sığınacaq tapan 3 min nəfər qaçqını himayəyə götürmüşdür."* (Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatı. 11 iyul 1994).

**"NİCAT" (II)** *xüs.is.* – 1994-cü ildə Surət Hüseynovun Qarabağ qazilərinə və şəhid ailələrinə yardım xeyriyyə cəmiyyəti adı altında yaratdığı qanunsuz silahlı birləşmə. *"Dövlət çevrilişinə cəhd göstərən əsas təşkilatlardan birinə – Gəncədə quldurlar, cinayətkarlar tərəfindən yaradılmış "Nicat" təşkilatına Sosial-Demokrat Partiyası pul keçirir, onun fəaliyyətində iştirak edirdi."* (Zuğulbadakı pansionatda müvəqqəti məskunlaşan qaçqınlarla görüşdə çıxışı. 21 may 1994); *"Şübhəsiz ki, hər bir partiya, hər bir*

*ictimai-siyasi təşkilat fəaliyyət göstərə bilər, – əgər o, qanunidirsə. Ancaq bu "Nicat" təşkilatı kimisi yox. Şübhəsiz ki, gərək Ədliyyə naziri cavab versin, necə ola bilir ki, bu cür quldurlar, cinayətkarlar dəstəsini dörd gün içərisində heç bir əsas olmadan qeydiyyata alıb onlara bir ad verir?"* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

# O

**OBIVATEL** [*rus.* обыватель] *is. məc.* – meşşan. *"Musiqili komediya teatrının işində ciddi nöqsanlar vardır, onun səhnəsinə yalnız **obivatel**lərin zövqünü oxşaya bilən, ədəbi-bədii cəhətdən və öz musiqisi cəhətdən zəif operettalar tez-tez yol tapir."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Ədəbiyyatımız mürəkkəb ictimai-iqtisadi problemlərin həllində olan nöqsanların aradan qaldırılmasında, xırda burjua psixologiyasına, əşya aludəçiliyinə, meşşanlığa qarşı, hər şeyə xor baxan **obıvatel**lərə qarşı mübarizədə partiyaya daha fəal kömək etməlidir."* (Azərbaycanda sovet ədəbiyyatı günlərinə həsr olunmuş mərasimdəki nitqi (2 oktyabr 1975-ci il); *"Odur ki, sovet ədəbiyyatı, yazıçılarımız cəmiyyətə zidd təzahürləri aşkara çıxarmalı və qırmaclamalı, quruluşumuza yad olan tüfeylilik, rüşvətxorluq, proteksionizm, yerliçilik, "əşyabazlıq", **obıvatel** və meşşan əhval-ruhiyyəsi kimi meylləri ifşa etməli, hər bir sovet vətəndaşının mənəvi tərbiyəsində bütün vasitə ilə kömək göstərməlidirlər."* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il).

**OBIVATELLİK** [*rus.* обывательщина] – bir qrup adamların, cəmiyyətin bir hissəsinin cılız ideallarla ya-

şaması, mənəviyyatını sahibkarlığın eqoist maraqlarına tabe etməsi; meşşanlıq. *"**Obıvatelliyə**, intizamsızlığa, laqeydliyə, vicdansızlığa, mənəvi pozğunluğa, ictimai borcu unutmaq hallarına qarşı mübarizədə ədəbiyyat çox fəal iştirak etməlidir."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il).

**OKTYABR İNQİLABI** – SSRİ-də rəsmi adı: Böyük Oktyabr Sosialist İnqilabı. Yuli təqvimi ilə 1917-ci ilin 25 oktyabrında (müasir istifadə etdiyimiz Qriqori təqvimi ilə 7 noyabrda) Rusiyada baş vermiş inqilab. *"Bu, Rusiyanın xalqlarına yeni azad və xoşbəxt həyatın yolunu, göstərmiş **Oktyabr inqilabı** ideyaları təsirinin nəticəsi idi."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**OLBRAYT** [*ing*. Madeleine Korbel Olbright] *is.* – Madlen Korbel Olbrayt (1937-2022). Amerika diplomatı və siyasətçisi, ABŞ-da vəzifədə olan ilk qadın dövlət katibi (1997-2001), ABŞ-ın BMT-dəki daimi nümayəndəsi (1993-1997). *"Bildiyiniz kimi, bundan sonra, sentyabrın əvvəlində Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun xüsusi nümayəndəsi, kabinetin üzvü, ABŞ Milli Təhlükəsizlik Şurasının üzvü və bu dövlətin Birləşmiş Millətlər Təşkilatındakı nümayəndəsi xanım **Olbrayt** Azərbaycana gəldi."* (Azərbaycan Milli Televiziyası və Radiosu ilə çıxışı. 22 sentyabr 1994); *"Mən Qahirədə ABŞ-ın vitse-prezi-*

*denti Albert Qor ilə, İstanbulda ABŞ-ın dövlət katibi cənab Kristoferlə, Bakıda cənab Klintonun xüsusi nümayəndəsi, onun kabinetinin üzvü xanım **Olbrayt**la, Dövlət Departamenti rəhbərinin müavini cənab Talbott ilə, həmin departamentin yüksək vəzifəli işçisi cənab Kollinzlə görüşmüşəm."* (Respublika Milli Televiziyası və Radiosu ilə çıxışı. 3 oktyabr 1994).

**ORDU** *is.* – dövlətin silahlı qüvvələri. *"Azərbaycana kənardan böyük **ordu** kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü **ordu**, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır."* (1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı. 21 yanvar 1990-cı il).

# Ö

**ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏK HÜQUQU (PRİNSİPİ)** – etnik münaqişələr və müstəqillik uğrunda hərəkat zamanı bir xalqın, toplumun və ya milliyyətin öz taleyini müəyyən etməsi üçün istifadə olunan hüquqi anlayış. Bu nizamnamə ilk dəfə 1878-ci ildə Berlin Konqresində səsləndirilmiş, 1918-ci ildə Brest sülhü zamanı tətbiq edilmiş, 1952-ci il 16 dekabr tarixində BMT Baş Məclisində hüquqi qüvvəyə minmişdir. *"Əgər bizim konstitusiyamızda müttəfiq respublikaya ayrılmaq da daxil olmaqla* ***öz müqəddəratını təyin etmək hüququ*** *verilmişsə, qoy onda respublika istədiyi kimi hərəkət etsin."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il); *"Ümumiyyətlə, Ermənistanda belə fikirlər deyilir ki, "Dağlıq Qarabağ* ***öz müqəddəratını təyin etmək prinsipi*** *əsasında bunu edir"."* (Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000).

**ÖZÜNÜİDARƏETMƏ STATUSU (HÜQUQU)** – mərkəzi hakimiyyətə tabe olan, daxildə müstəqil idarəetməyə malik dövlət statusu; muxtariyyət. *"Çünki biz Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli* ***özünüidarəetmə statusu*** *verməyə hazırıq və bunu dəfələrlə*

*bəyan etmişik."* (Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000); *"Dağlıq Qarabağ isə yüksək dərəcəli status alarkən* ***özünüidarəetmə hüququ****na malik olacaqdır."* (Cons Hopkins Vaşinqton universitetində görüşdə nitqi. 15 fevral 2000).

# P

**PAKET TƏKLİFİ** – ATƏT-in Minsk qrupunun həmsədrlərinin 1997-ci ilin iyulunda irəli sürdüyü birinci təklif. "Paket" həllində Dağlıq Qarabağın statusu daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu. *"Birinci təklif 1997-ci ilin iyul ayında verilmişdi, adına "**Paket təklifi**" deyirdilər, yəni məsələnin hamısının bir yerdə həll olunması təklifi idi. Biz bu təklifi qəbul etdik, amma Ermənistan bunu qəbul etmədi."* (ATƏT-in hazırkı sədri, Avstriyanın Xarici İşlər naziri xanım Benita Ferrero-Valdner ilə təkbətək görüşdə söhbəti. 18 iyul 2000).

**PAKİSTAN** *xüs.is.* – Pakistan İslam Respublikası. 1947-ci ildə Cənubi Asiyada Britaniya Hindistanının ərazisinin bölünməsi nəticəsində yaranmış dövlət. *"**Pakistan** ilə Azərbaycan arasında diplomatik əlaqələr respublikamız öz müstəqilliyini əldə etdikdən sonra yaranmışdır. Təxminən üç ildən artıq bir vaxtda Azərbaycan ilə **Pakistan** arasında dostluq əlaqələri müntəzəm mövcuddur və ardıcıl surətdə inkişaf etmişdir. Əldə olunan əsas nailiyyət bundan ibarətdir ki, iki ölkə arasında – **Pakistan** ilə Azərbaycan arasında dostluq əlaqələri artıq çox möhkəm təməl əsasında qurulmuşdur və bu əlaqələrin inkişaf etməsi üçün yaxşı şərait yaran-*

*mışdır."* (Pakistan İslam Respublikasının prezidenti Fərrux Əhməd Xan Leqarinin Binə Hava Limanında qarşılanma mərasimində bəyanatı. *9 oktyabr 1995*).

**PARTİYA** [*fr.* partie <*lat.* partis "hissə, dəstə"] *is.* – burada: Kommunist Partiyası.*"Dövrün ictimai sifarişi"nə, ölkəni sosialistcəsinə yenidən qurmaq uğrunda **partiya**nın və xalqın mübarizəsinə əsaslanan dəqiq, aydın, döyüşkən həyat mövqeyi - bir sənətkar və vətəndaş kimi Cabbarlının başlıca xüsusiyyətləri bunlardır."* (Cəfər Cabbarlının abidəsinin açılışında nitqi. 22 mart 1982-ci il); *"**Partiya** və hökumət Qara Əbülfəz oğlu Qarayevin xidmətlərini yüksək qiymətləndirmişlər."* ("Bakı" qəzeti, 1982, 20 may).

**PLENUM** [*lat.* plenum] *is.* – təşkilatın və ya orqanın bütün üzvlərinin iştirakı ilə iclas,yığıncaq. *"...N.Nərimaniov bununla əlaqədar olaraq AK(b)P MK **plenum**unda söylədiyi nitqində qeyd etdi ki, Azərbaycanda Lenin yoldaşın məktubunda müəyyən edilmiş xətti yeritmək lazımdır."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Sov.İKP MK oktyabr (1964-cü il) **plenum**undan keçən 15 il bu yolda çox mühüm mərhələ olmuşdur."* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il).

**PREZİDENT** [*lat.* praesidens, yiyəl.h. praesidentis "başda oturan, sədr"] – ölkə başçısı. *"Bildiyiniz kimi,*

*bundan sonra, sentyabrın əvvəlində Amerika Birləşmiş Ştatlarının **prezident**i cənab Bill Klintonun xüsusi nümayəndəsi, kabinetin üzvü, ABŞ Milli Təhlükəsizlik şurasının üzvü və bu dövlətin Birləşmiş Millətlər Təşkilatındakı nümayəndəsi xanım Olbrayt Azərbaycana gəldi."* (Azərbaycan Milli Televiziyası və Radiosu ilə çıxışı. 22 sentyabr 1994); *"Mən yaşca MDB ölkələrinin, necə deyərlər, ən ahıl **prezident**iyəm…"* ("Ekonomiçeskaya jizn" qəzetinin müxbirinə müsahibəsi. 2 yanvar 2000).

**PREZİDENT SƏLAHİYYƏTLƏRİ** – ölkə başçısının birbaşa ixtiyarında olan məsələlərə dair qərarvermə hüququ. *"Mən elan edirəm ki, Azərbaycanın **prezident səlahiyyətləri**ni ifa edən şəxs kimi fərmanımla Bayramov Sultan Nemət oğlu, Əliyev Etibar Böyükağa oğlu və Təhməzov Paşa Qurban oğlu Milli Qəhrəman elan olunurlar."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993).

**PREZİDENT SƏLAHİYYƏTLƏRİNİ İCRA EDƏN** – ölkə prezidenti seçilənə qədər onun vəzifə səlahiyyətlərini yerinə yetirən, əvəzedici. *"Sonra mən Moskvada olarkən Rusiya **prezident**inin **səlahiyyətlərini icra edən** Putinlə də danışıqlar apardım."* (Amerika Birləşmiş Ştatlarının keçmiş dövlət katibi, tanınmış ictimai-siyasi xadim Lourens İqlberger ilə görüşdə söhbəti. 16 fevral 2000).

**PROLETAR** [*lat*. proletarius "nəsil verən"] *sif.* – fəhlə sinfi. *"Süleyman Rüstəm fəhlə ailəsində anadan olmuş və böyümüşdür, onun dünyagörüşü və bədii yaradıcılığı **proletar** Bakısında, fəhlə sinfinin inqilabi hərəkatının təsiri altında da formalaşmışdır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il); *"Şübhəsiz, Nizaminin şeirlərini proletar şeirinə döndərmək mümkün deyildir, ona görə də hamı sübut etməyə çalışmışdır ki, Nizami metafizik yox, dialektik olmuşdur."*(Prezident Sarayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley üzrə dövlət komissiyasının iclasında giriş və yekun sözü. 1 avqust 1994).

**PROLETARİAT** [*alm.* Proletariat <*lat*. proletarius "nəsil verən"] *is.* – fəhlə sinfi, yalnız əməyi müqabilində muzdla dolanan, kapitalı olmayan sosial sinif. *"Bakı **proletariat**ının beynəlmiləl ailəsində mətinləşən, onun inqilabi çarpışmalarında iştirak edən Nəriman Nərimanov marksizm-leninizm ideyalarına getdikcə daha dərindən yiyələnir və siyasi rəhbər kimi püxtələşirdi."* (Nəriman Nərimanovun abidəsinin açılışında nitqi. 6 iyun 1972-ci il).

**PROTEKSİONİZM** [*rus.* протекционизм < *lat.* protectio "qorumaq"] *is.* – dövlət tərəfindən milli iqtisadiyyatın müəyyən sektorunu xarici rəqabətdən qorumaq məqsədinə yönəlmiş fəaliyyət istiqaməti. *"Odur ki, sovet ədəbiyyatı, yazıçılarımız cəmiyyətə zidd təzahürləri*

*aşkara çıxarmalı və qırmaclamalı, quruluşumuza yad olan tüfeylilik, rüşvətxorluq,* ***proteksionizm****, yerliçilik, "əşyabazlıq", obıvatel və meşşan əhval-ruhiyyəsi kimi meylləri ifşa etməli, hər bir sovet vətəndaşının mənəvi tərbiyəsində bütün vasitə ilə kömək göstərməlidirlər."* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il).

**PLÜRALİZM** [*lat.* pluralis "çoxluq"] *is.* – dövlət orqanlarında təmsil olunmaq üçün rəqabət aparan müxtəlif siyasi qüvvələrin mövcudluğu. *"Mən ona əsaslanırdım ki, indi bizdə demokratiyadır, aşkarlıqdır, fikir* ***plüralizm****idir və hər kəs əslində nə düşündüyünü söyləyə bilər."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il); *"Mən düşünürəm ki, Saxarov vaxtilə cəsarət nümayiş etdirmişdi. Axı o zaman belə bir şey ümumiyyətlə dözülməz idi, onda bizdə, açıq desək, heç* ***plüralizm****in izi-tozu da yox idi."* ("Mən kimsə, kiminləsə olmaq istəmirəm..." Andrey Karaulova və Devid Remnikə müsahibəsi. 9 fevral 1990-cı il).

**POSTSOVET MƏKANI** – keçmiş SSRİ ərazisi (1922-1991). *"Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün* ***postsovet məkanı****nda münaqişələrin meydana çıxmasının əsasını qoyubdur."*(Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000).

# R

**RAFFAELLİ** *xüs.is.* – 1993-cü ildə ATƏM-in Minsk qrupunun ilk sədri olmuş italyan diplomat Mario Raffelli. *"Minsk qrupunun sabiq sədri cənab **Raffaelli** ötən ilin iyulunda Bakıda olmuşdu, biz onunla görüşdük və çox fəal əməkdaşlıq etdik. Axı Ermənistan Minsk qrupunu da, **Raffaelli**nin özünü də təhqir etmişdir."*(Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin əlahiddə tapşırıqlar üzrə səfiri V. Kazimirovla görüşdə çıxışı. 31 yanvar 1994).

**RAYON PARTİYA KOMİTƏSİ** *xüs.is.* – Azərbaycan Sovet Sosialist Respublikasında fəaliyyət göstərmiş Azərbaycan Kommunist Partiyasının hər rayon üzrə komitəsi. *"Məsələn, Kürdəmir rayonunda **Rayon Partiya Komitəsi**nin birinci katibi Məmmədov da daxil olmaqla 50-dən artıq şəxs həbs və mühakimə olunmuşdu."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**REJİM** [*fr.* régime < *lat.* regimen] *is.* – bir şeyin mövcudluğu, iş, yaşayış, fəaliyyət şəraiti. *"Sülh **rejim**i haqqında Ermənistan rəhbərləri ilə də razılığa gələ bildim."*("Mən xalqa minnətdaram". "Rossiyski fermer" qəzetinin müxbiri ilə söhbəti. 3 avqust 1993); □ **Fövqəla-**

**də vəziyyət rejimi** – fövqəladə hallar zamanı ərazidə tətbiq edilən ciddi qaydalar toplusu. *"**Fövqəladə vəziyyət rejimi** tətbiq edildiyi dövrdə mitinq keçirilməməlidir. Siz özünüzü ərköyün uşaq kimi aparırsınız, yəni biz nə istəyirik, onu da edirik: "**Fövqəladə vəziyyət rejimi** dövründə mitinq də keçirə bilərik, qanunu da poza bilərik, bir sözlə, hər şey edə bilərik".* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında Respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışı. 29 sentyabr 1993); *"Bu gündən respublikada **fövqəladə vəziyyət rejimi** götürülübdür."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993); **Hərbi vəziyyət rejimi** – müharibələr, təbii fəlakətlər zamanı ölkədə xüsusi hüquqi statusun tətbiq olunması. *"Lakin biz demokratik prinsiplər yolu ilə getdiyimizə görə və bunu əsas yol hesab etdiyimizə görə respublikada nəinki **hərbi vəziyyət rejimi** tətbiq etmək istəmirik, həttafövqəladə vəziyyət rejimini götürməyi qərara aldıq."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993); **Kommunist rejimi** – kommunist partiyasının hakim olduğu dövlətdə idarəetmə sisteminin tətbiqi. *"Azərbaycanda kommunist ideologiyası, **kommunist rejim**i bir daha bərpa olmayacaqdır."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993). *"Bu müddət ərzində o, əlbəttə, qüvvə toplamış və həmin illərdə, kommunist hakimiyyəti illərində Xalq Cəbhəsi **kommunist rejimi**nə qarşı fə-*

*al çıxış edirdi və əlbəttə, respublika rəhbərliyinin Qarabağ problemini həll etməyə qadir olmaması ilə əlaqədar rəhbərliyə qarşı xüsusilə fəal çıxış edirdi."*("Ostankino" Dövlətlərarası Televiziya şirkətinə müsahibəsi. 6 iyul 1993); *"Azərbaycan keçmiş **kommunist rejimi**nə, sosialist sisteminə, keçmiş iqtisadi-siyasi sistemə qayıtmamalıdır."* (Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı. 21 sentyabr 1993).

**REQLAMENT** [*fr*. réglementer] *is.* – müşavirənin, iclasın, qurultayın və s. aparılması qaydası haqqında qabaqcadan müəyyən və qəbul edilmiş nizamnamə. *"Əgər **reqlament**dən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm."* (Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında çıxışı. 5 fevral 1991-çi il); *"Bəzən iclaslarımız çox vaxt alıbdır, bəzən ayrı-ayrı Məclis üzvlərinin çıxışları **reqlament**dən də xeyli artıq olubdur, bəzən mənim də çıxışlarım, danışıqlarım **reqlament**dən artıq olubdur."* (Azərbaycan Respublikası milli məclisinin iclasında çıxışı. 5 noyabr 1993); *"Bugünkü Milli Məclisin iclasının da aparılmasında artıq keçmiş **reqlament**i də unutmalıyıq, keçmiş adət-ənənələri də unutmalıyıq, yəni parlamentdə mövcud olmuş ənənələri deyirəm, – onları unutmalıyıq və hər bir şeyi həqiqi, demokratik prinsiplər əsasında qurmalıyıq."* (Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi. 24 noyabr 1995).

**REQLAMENTLƏŞDİRMƏK** *f.* – dövlət tərəfindən qabaqcadan müəyyən edilmiş qaydalara tabe etmək. *"Biz yaradıcı təşkilatların fəaliyyətini **reqlamentləşdirmirdik.**"* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**RESPUBLİKA ALİ SOVETİ RƏYASƏT HEYƏTİ** *xüs. is.* – 1920-1991-ci illər ərzində fəaliyyət göstərmiş, Azərbaycanın qanunvericilik orqanı olan Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti; parlament. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 22 il VII-X çağırışlarında deputat və Rəyasət Heyətinin üzvü olmuşdur. *"Bu gün mənə tapşırılmış vəzifəni böyük məmnuniyyət hissi ilə yerinə yetirərək sevimli şairimiz Süleyman Rüstəmə **Respublika Ali Soveti Rəyasət Heyəti**nin Fəxri Fərmanını təqdim edirəm."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi (10 dekabr 1981-ci il)); *"İzin verin, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncağımızın bütün iştirakçılarını Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, **Respublika Ali Sovetinin Rəyasət Heyəti** və Nazirlər Soveti adından və onların tapşırığı ilə, Azərbaycan xalqı adından səmimi salamlayım."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**RESPUBLİKALARARASI** *sif.* – bir neçə respublikaya aid olan, bir neçə respublikanın təşkil etdiyi. *"Hər üç respublikanın kommunist partiyaları MK-larının birinci katibləri hər il görüşürdülər,* ***respublikalararası*** *əlaqələri müzakirə edirdilər."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il); *"Bu sərvəti artırmağı, yeni təcrübə ilə zənginləşdirməyi, millətlərarası,* ***respublikalararası*** *intensiv qarşılıqlı əlaqələri daha da genişləndirməyi biz respublikanın bütün çoxmillətli zəhmətkeşlər ailəsinin borcu hesab edirik.* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il).

**RƏHİM QAZIYEV** *xüs.is.* – 1992-ci ildə Azərbaycan Respublikasının Müdafiə naziri vəzifəsinə gəlmiş 1988-ci ildə başlanan Azərbaycan Milli Azadlıq Hərəkatının fəallarından biri. 1993-cü ildə Şuşanın işğalında və xəyanətdə ittiham edilərək həbs edilmiş və haqqında ölüm hökmü çıxarılmış, bir qədər sonra ömürlük həbs cəzasına məhkum olunmuşdir. Lakin 2005-ci ildə əfv fərmanı ilə azadlığa buraxılmışdır. *"May ayının 7-də Şuşa qalası əldən getdi, həmin o cinayətkar* ***Rəhim Qazıyev*** *Şuşa qalasını verib oradan qaçdı, – məhkəmə bunu göstərdi, – gəlib buradan başqa ölkələrə gedirdi ki, orada danışıqlar aparsın. Burada daxili mübarizə getdi."* (Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş

iəxslərin valideynləri ilə keçirilən görüşdə Çıxışı. *18 oktyabr 1995*); *"Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15- də o zamankı müdafiə naziri **Rəhim Qazıyev**in Silahlı Qüvvələrin kvotası ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bu gününə və gələcəyinə ömürlük zərbə vurmuşdur."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**RƏSMİ SƏFƏR** – b a x **Səfər.**

**RƏYASƏT HEYƏTİ** *xüs.is.* – burada: Ali Sovetin seçilən rəhbər orqanı. Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 22 il VII-X çağırışlarında deputat və Rəyasət Heyətinin üzvü olmuşdur. *"Bu gün mənə tapşırılmış vəzifəni böyük məmnuniyyət hissi ilə yerinə yetirərək sevimli şairimiz Süleyman Rüstəmə **Respublika Ali Soveti Rəyasət Heyəti**nin Fəxri Fərmanını təqdim edirəm."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi (10 dekabr 1981-ci il)); *"İzin verin, Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncağımızın bütün iştirakçılarını Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, **Respublika Ali Sovetinin Rəyasət Heyəti** və Nazirlər Soveti adından və onların tapşırığı ilə, Azərbaycan xalqı adından səmimi salamlayım."* (Azərbaycan Dövlət Uni-

versitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**RSDFP** *abr.* – Rusiya Sosial Demokrat Fəhlə Partiyası. Rusiya imperiyasında 1898-ci il martın 1-də (13) Minskdə keçirilən qurultayda yaradılmışdır. *"1906-cı ildə N.Nərimanov **RSDFP** II qurultayında qəbul edilmiş partiya proqramım Azərbaycan dilinə tərcümə etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**RUS** [*qəd.rus.* Poycь sözündən] *is.* – Rusiyada və Avropada ən çox sayda olub şərqi slavyan xalqına mənsub olan şəxs. Azərbaycanda 1830-cu ildən sonra məskunlaşmağa başlayan ruslar Bakı, Gəncə və Sumqayıtda, kompakt halda isə Gədəbəy rayonunun Novoivanovka, Novosaratovka, Qorelsk (indiki Daşbulaq) və Slavyanka kəndlərində, İsmayıllı rayonunun İvanovka kəndində, Lənkəran rayonunun Alekseyevka (indiki Bürcəli), Şamaxı rayonunun Çuxuryurd, Qızmeydan və Nağaraxana, Goranboy rayonunun Rus Borisi kəndində yaşayırlar. *"Əmin ola bilərsiniz, bir prezident kimi mən elə vəziyyət yaranmasına çalışacağam ki, Azərbaycanın hər bir vətəndaşı, o cümlədən ruslar – pravoslavlar, slavyanlar Azərbaycanda malik olduqları hüquqların hamısını mütləq saxlasınlar."* (Milad bayramı münasibətilə Bakıdakı kamera musiqisi salonunda keçirilən mərasimdə respublikanın pravoslav xristianlarına müraciəti. *7 yanvar 1995*).

# S

**SAZİŞ** *is.* – müqavilə. *"Bu gün məhz təcavüzkarın BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən və işğal olunmuş bütün Azərbaycan ərazilərindən öz silahlı birləşmələrini mərhələ-mərhələ çıxarmağa razılıq verməkdən boyun qaçırması siyasi **saziş** əldə edilməsinə mane olur."*(ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

**SEÇİCİ(LƏR)** *is.* – seçkilərdə seçmə işini həyata keçirən şəxs. *"Əziz həmvətənlər! Azərbaycan Respublikasının xalq deputatı seçilməyimi böyük etimad kimi qəbul edirəm, **seçicilər**imə, mənə həmrəyliklərini bildirənlərin hamısına öz dərin minnətdarlığımı bildirirəm."* (Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında çıxışı. 5 fevral 1991-çi il); *"Bir sözlə, mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir."*(Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı. 7 mart 1991-ci il); *"Mən bu sözlərimlə nə xalqa, nə də ayrı-ayrı **seçicilər**ə heç bir təsir və təzyiq göstərmək istəmirəm."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur.

Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993); *"Milli Məclisdə bu rəqəmləri gətirdilər ki, respublikamızda 4 milyon 300 minə yaxın* ***seçici*** *var, ancaq dedilər ki, partiyaların üzvlərinin sayı cəmi 410 min nəfərdir."*(Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın geniş iclasında nitqi. 16 avqust 1995); *"Əgər biz belə bir şəraitdə konstitusiya qəbul edə bilmişiksə və* ***seçicilər****in 86 faizi referendumda iştirak edib ondan 91,9 faizi bu konstitusiyaya səs veribsə, demək, bu, böyük nailiyyətdir."* (Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi. *24 noyabr 1995*).

**SEÇKİ** *is.* – ictimai təşkilatların və dövlət hakimiyyəti nümayəndələrinin rəhbər orqanlarının seçilməsi üsulu. *"Böyük Vətənimizin bütün xalqları kimi, Azərbaycan xalqı da SSRİ Ali Sovetinə* ***seçki****lərə öz inkişaf etmiş sosializm ölkəsi üçün iftixar hissi ilə hazırlaşır və kommunistlərlə bitərəflərin sarsılmaz İttifaqının namizədlərinə yekdilliklə səs verməyə hazır olduğunu nümayiş etdirir."* (Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il); *"Lakin mən məhz Nehrəm dairəsindən* ***seçki****lərdə iştirak etməyə razılıq verdim."* ("Məni Azərbaycan xalqı unutmadı..." Andrey Karaulova müsahibəsi. Sentyabr 1990-cı il); *"Gərək bu rayonun seçiciləri bilsinlər ki, ayın 26-da bələdiyyə* ***seçki****si var,* ***seçki*** *məntəqəsi filan yerdədir və gedib səs verməlidirlər."* (2000-ci il martin 26-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar müşavirədə

nitqi. 20 mart 2000); □ **Seçki komissiyaları** – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının tabeliyində olan orqanlar. Onlar Azərbaycan Respublikası Prezident seçkilərinin və Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin, referendumların (ümumxalq səsvermələrin), bələdiyyələrə seçkilərin hazırlanmasını və keçirilməsini təmin edir. *"**Seçki komissiyaları** düzgün işləməlidir. Buraya icra hakimiyyətinin başçıları, şəhər və rayon **seçki komissiyaları**nın sədrləri, bir çox rayonların ictimai təşkilatlarının rəhbərləri, siyasi partiyaların, təşkilatların, inzibati orqanların nümayəndələri dəvət olunublar."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993).

**SEPARATÇI QÜVVƏLƏR** – dövlətin müəyyən ərazisinin etnik, dini və ideoloji əsaslarla ayrılması tələbi irəli sürən dəstələr. Ölkənin və ümumi xalqın fundamental əsaslarını sarsıtmaqla ölkənin milli təhlükəsizliyinə ciddi təhlükə yaradan hər hansı bir etnik, irqi, dini, ideoloji qruplar. *"Bu ilin iyun ayında Azərbaycanda daxili sabitlik tam pozulmuş, Respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, **separatçı qüvvələri**n Respublikanı parçalamaq meyllərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993).

**SEPARAT HƏRƏKƏT** – ayrılmağa cəhd göstərmə. *"Amma bu dil bizim bütöv, ümumi dildir, bütün Azərbaycana aiddir. Biz burada gərək* ***separat hərəkət*** *eləməyək."* (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 24 noyabr 1990-cı il).

**SEPARATİZM** [*fr*. séparatisme <*lat*. separatus – ayrı] *is.* – dövlətdən müəyyən bir hissəni qoparmaq çağırışı ilə çıxış edərək ayrılmasına nail olana qədər mübarizə aparma ideologiyasını daşıyan siyasi hərəkat. *"Naxçıvan rəhbərliyinin və hakimiyyət orqanlarının fəaliyyətində heç bir* ***separatizm*** *yoxdur. Bundan başqa bizim fəaliyyətimizdə* ***separatizm*** *olduğunu sübut edən konkret dəlillər gətirməsini rəqiblərimdən tələb edirəm."* ("Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxuram" "Nezavisimaya qazeta" müxbirinə müsahibəsi. 27 yanvar 1993-cü il); *"Terrorizmə, narkotiklərə, ekstremizmə,* ***separatizm****ə qarşı mübarizə bu gün çox aktualdır, çünki bu hallar dünyanın müxtəlif bölgələrində, o cümlədən, Rusiyada və Azərbaycanda, Qafqazda təzahür edir."* (Rusiyanın Daxili İşlər naziri Vladimir Ruşaylonu qəbul edərkən söhbətindən. 4 fevral 2000).

**SƏFƏR** *is.* – ölkələr arasında rəsmi qaydada həyata keçirilən səfər. Aşağıdakı növləri vardır: dövlət səfəri, rəsmi səfər, rəsmi-işgüzar səfər, işgüzar səfər, qonaq səfəri və şəxsi səfər. *"Baş nazir yazır ki, o, bizim bu gö-*

*rüşümüzü gözləyir və qarşıdakı **səfər** zamanı həm İngiltərə, həm də Azərbaycan üçün səmərəli nəticələr əldə ediləcəyinə ümid bəsləyir. Ona görə də mən bu **səfər**ə çox böyük əhəmiyyət verirəm və güman edirəm ki, İngiltərənin rəhbərləri də bu fikirdədirlər."*(Böyük Britaniyaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə Hava Limanında jurnalistlərə müsahibəsi. 22 fevral 1994). □ **Dövlət səfəri** – ali səviyyə xarakteri daşıyan, xüsusi protokol qaydaları ilə, diplomatik mərasimlərlə müşayiət olunan, dövlətlərarası münasibətlərin ən yüksək həddini, ölkələrarası dostluq və əməkdaşlığın ən ali səviyyəsini nümayiş etdirmək və təsbit etmək məqsədi güdən səfər. *"Bilirsiniz ki, mənim İngiltərəyə səfərim rəsmi xarakter daşıyır, yəni rəsmi **dövlət səfəri**dir və bu barədə dəvət İngiltərənin baş naziri cənab Con Meycordan alınmışdır."*(Böyük Britaniyaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə Hava Limanında jurnalistlərə müsahibəsi. 22 fevral 1994). **İşgüzar səfər** – müvafiq təyinatlı məqsədi, xüsusən də danışıqlar, məsləhətləşmələr, beynəlxalq görüşlərdə iştirak etmək, milli sərgilərin açılışı, beynəlxalq müqavilələrin imzalanması üçün dövlət xadimlərinin və ya nümayəndə heyətlərinin gəlməsi. İşgüzar səfər zamanı nümayəndə heyətinin və ya mötəbər qonağın görüş yeri ( yola salma ) qonağın və ev sahibi ölkənin dövlət bayraqları ilə bəzədilir. Fəxri qarovul dəstəsi düzülməyəcək, dövlət himnləri səsləndirilməyəcək. Hörmətli qonağın şərəfinə ev sahibi tərəf səhər yeməyi və ya nahar təşkil edir. Belə bir səfər, bir

qayda olaraq, 1-1, 5 gün davam edir. *"Bildiyiniz kimi, sentyabrın 25-dən 30-dək mən Amerika Birləşmiş Ştatlarında – Nyu-Yorkda **işgüzar səfər**də olmuşam."* (Respublika Milli Televiziyası və Radiosu ilə çıxışı (3 oktyabr 1994). **Rəsmi səfər** – bir suveren dövlətin başçısının (və ya həmin dövlətin hökumət başçısının) digər suveren dövlətə səfəri; dövlət səfəri ilə müqayisədə daha az təntənəli səfər. *"Sizi Azərbaycana **rəsmi səfər**ə dəvət edirəm."*(Mozambik Respublikasının prezidenti Joakim Çissano ilə görüşdəki söhbətdən. 29 yanvar 2000); *"Mən prezident Xatəminin dəvətini məmnuniyyətlə qəbul etmişəm və bu il İrana məmnuniyyətlə **rəsmi səfər**ə gedəcəyəm."* (İran İslam Respublikasının milli bayramı – islam inqilabinin 21-ci ildönümü münasibətilə İİR-in Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi. 11 fevral 2000); *"Bu baxımdan Səudiyyə Ərəbistanı məlikinin, iki müqəddəs şəhərin xadiminin məni bu ölkəyə **rəsmi səfər**ə dəvət etməsini məmnuniyyətlə qəbul etdim və həmin səfəri, ziyarəti həyata keçirdim."*(Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxışı. 29 iyul 1994). **Səfər etmək** – bir suveren dövlətin başçısının (və ya həmin dövlətin hökumət başçısının) digər suveren dövləti ziyarət etməsi. *"Mətbuat nümayəndələrinin qarşısında mən də demək istəyirəm ki, siz bilirsiniz ki, mən Türkiyəyə **səfər etmişdim**."* (Mozambik Respublikasının prezidenti Joakim Çissano ilə görüşdəki söhbətdən. 29 yan-

var 2000). *"Mən onlara dedim ki, əvvəl bizim xarici işlər naziri oraya **səfər etsin**, ondan sonra mən."* (İsveçrədən Bakıya qayıdarkən Binə hava limanında jurnalistlərin suallarına cavabı. 30 yanvar 2000).

**SƏFƏRBƏRLİK** *is.* – Müharibə elanı ilə əlaqədar olaraq, ehtiyatda olan müxtəlif yaşlıların və hərbi qulluğa yararlı olanların ordu sıralarına çağırışı. *"**Səfərbərlik** zamanı qarşıya çıxan hər kəsi orduya göndərmək lazım deyildir. Bizim imkanlarımız genişdir. **Səfərbərliyə** alınaraq orduya göndərilənlər layiqli adamlar olmalıdırlar."*(Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**SƏFİR** *is.* – xarici dövlətdə və ya beynəlxalq təşkilatda ölkənin dövlət başçısı tərəfindən təyin olunan yüksək çinli diplomatik nümayəndəsi. *"Mən məmnuniyyət hissi ilə qeyd edirəm ki, Fransa dövlətinin başçıları ölkəmizin ən ağır problemi olan Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün səylər göstərir və cənab **səfir**in bu gün bir daha bəyan etdiyi kimi bu məsələnin siyasi yolla, sülh yolu ilə həll olunması üçün öz tərəfindən ATƏT-in Minsk qrupunda lazımi fəaliyyət göstərirlər."* (Fransanın Milli bayramı – Fransa İnqilabının 206-cı ildönümü münasibətilə Fransanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda çıxışı. *14 iyul 1995*); *"Hörmətli cənab **səfir** Kozlariç bayaq saata baxıb dedi ki, ABŞ-ın bir hissəsində indi bayram başlayıb, digər hissəsinə isə hələ gəlib çatmayıb-*

*dır. Ancaq mən cənab **səfir**ə demək istəyirəm ki, müstəqil Azərbaycanın hər guşəsində – şərqində, qərbində, şimalında, cənubunda 4 iyul bayramı bu gün qeyd olunur. Azərbaycanın paytaxtı Bakı şəhərində Amerika Birləşmiş Ştatlarının belə bır gözəl bağçası, səfirlik binası, ən başlıcası isə burada hörmətli **səfir** və gözəl işçilər vardır."* (Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət Gününün 219-cu ildönümü münasibətilə təşkil edilmiş bayram mərasimində nitqi. *4 iyul 1995*).

**SƏFİRLİK** *is.* – səfirin rəhbərlik etdiyi diplomatik nümayəndəlik (bir dövlətin digər dövlətdə yerləşən daimi dövlət xarici əlaqələr orqanı). *"Respublikamız müstəqillik qazandıqdan sonra ölkəmizdə yaranan ilk xarici **səfirlik**lərdən biri də Fransanın Azərbaycandakı **səfirliy**idir. Cənab Jan Perrənin qeyd etdiyi kimi, artıq dörd ilə yaxındır ki, o, burada **səfirlik** fəaliyyətini davam etdirir, Fransa ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsinə xidmət göstərir."* (Fransanın Milli bayramı – Fransa İnqilabının 206-cı ildönümü münasibətilə Fransanın Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda çıxışı. *14 iyul 1995*); *"Bu günlərdə respublikamıza böyük maraq göstərmiş, dövlətçiliyimizin qorunması sarıdan narahat olmuş və bizi dəstəkləmiş xarici ölkələrin rəhbərlərinə, onların diplomatik nümayəndəliklərinə, **səfirlik**lərinə təşəkkürümü, minnətdarlığımı bildirirəm."* (1995-ci il mart dövlət çevrilişinə cəhdin beş illiyinin tamam olması ilə əlaqədar keçirilmiş

müşavirədə çıxışı. 17 mart 2000); *"O vaxtdan bəri bizim aramızda diplomatik münasibətlər yaradılmışdır, indi Azərbaycanın Çində* ***səfirliyi*** *və Çinin Azərbaycanda səfirliyi var."* (Ümum-Çin Xalq Nümayəndələri Məclisi daimi komitəsinin sədri Li Pen ilə təkbətək görüşdə söhbəti. 23 iyun 2000).

**SƏNAYELƏŞDİRMƏ** *f.is.* –kooperasiya yolu ilə kiçik fərdi kəndli təsərrüfatlarının kollektiv kənd təsərrüfatı müəssisələrində birləşdirilməsi. Bolşeviklərin SSRİ kənd təsərrüfatında apardıqları iki böyük iqtisadi islahatdan birincisi."[Süleyman Rüstəm] *Hələ ilk şeirlərində, hekayələrində, satirik pyeslərində, "Komsomol" və "Yaxşı yoldaş" kimi gözəl poemalarında o, qaynar həyatımızı, Sovet hakimiyyətinin təşəkkülü çağındakı növrağı, şəhərdə və kənddə gedən dərin sosial prosesləri, fəhlə sinfinin və kəndlilərin yeni həyat uğrunda,* ***sənayeləşdirmə****, kənd təsərrüfatının kollektivləşməsi uğrunda ardıcıl mübarizəsini böyük bədii qüvvə ilə əks etdirmişdir."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).

**SƏRHƏDLƏRİN TOXUNULMAZLIĞI** b a x **ərazi bütövlüyü**. *"Çalışırıq ki, respublikamızınərazi bütövlüyünün təmin olunması şərtləri ilə bu məsələ həll edilsin. Ancaq bütün bunlar ən mühüm şərt daxilində – Azərbaycan Respublikasının ərazi bütövlüyünün,* ***sərhədlərin****in* ***toxu-***

***nulmazlığı****nın təmin edilməsi və ölkəmizin didərgin düşmüş vətəndaşlarının hər birinin öz yerinə qayıtması şərti ilə həll edilməlidir."* (Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**SİVİLİZASİYALI** *sif.* – özünəməxsus siyasi, sosial, mədəni və iqtisadi inkişafı olan (cəmiyyət). "*Azərbaycanın ilk demokratik cümhuriyyəti Şərqdə* ***sivilizasiyalı*** *bir dövlət kimi dünyada tanınmışdır."* (BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına səfərə yola düşərkən Binə Hava Limanında jurnalistin sualına cavabı. 25 sentyabr 1994).

**SİYASİ DÜNYABAXIŞI**– siyasi yönümlü dünyagörüşü. *"Buna görə də oktyabrın 10-da prezident vəzifəsinin icrasına başlayarkən xalqa müraciətimdə də bildirdim ki, prezident kimi Azərbaycan Respublikasında* ***siyasi dünyabaxışın****dan asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm."* (Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışı. 4 noyabr 1993)

**SİYASİ ƏMƏLİYYAT** – siyasi məqsədlə bir-biri ilə əlaqəli olan işlər. *"Məlumdur ki, bizim respublikada bu qədər qaçqının olmasının səbəbi Ermənistanın, erməni millətçi dairələrinin Azərbaycan Respublikasına, Azərbaycanın ərə-*

*zisinə qəsd etmək məqsədi ilə başladıqları əvvəl **siyasi**, sonra isə hərbi **əməliyyat**ların nəticəsidir."*(Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxışı. 14 noyabr 1994).

**SİYASİ İŞLƏR** – siyasi sferanın bütün sahələrini əhatə edən rəsmi və ya qeyri-rəsmi formada aparılan diplomatik fəaliyyət. *"Ona görə də indi bu vəziyyətdən çıxmaq üçün, işğal olunmuş rayonlarımızı geri qaytarmaq, yəni Ermənistan silahlı qüvvələrini oradan çıxarmaq üçün böyük **siyasi işlər** görülməlidir."*(Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994).

**SİYASİ PLÜRALİZM** – siyasi partiyaların dövlət mənafeyinə xidmət edən müxtəlif fikirlərdə ortaq bir nəticəyə, məxrəcə gəlməsi. Dövlət tərəfindən qeyri-hökumət təşkilatlarını, siyasi partiyaları, bir-birindən asılı olmayan qurum və qrupları siyasi səhnəyə cəlb etmək məqsədilə söz azadlığı, azad KİV, azad seçkilər və s. şərtlərinin yaradılması siyasi plüralizm üçün şərtdir. *"Azərbaycan Respublikasında siyasi partiyaların fəaliyyət göstərməsinə şərait yaranmalıdır və **siyasi plüralizm** hökm sürməlidir."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında Respublikada qanunsuz həbslər olub-olmaması haqqında məsələnin müzakirəsi ilə bağlı çıxışı. 29

sentyabr 1993-cü il); *"Lakin demokratikləşdirmə,* ***siyasi plüralizm*** *yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, bütün ölkələr – həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı münasibətlər saxlamalıdır."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Alı Sovetinin sədri Heydər Əliyevin və ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri Mario Raffaellinin birgə mətbuat konfransında bəyanatı 14 iyul 1993-cü il); *"Biz demokratiyanı inkişaf etdirərək,* ***siyasi plüralizm****ə şərait yaradaraq, demokratik dövlət qurmaq əzmində olaraq, eyni zamanda həm cəmiyyətdə, həm də dövlətdə nizam-intizamı möhkəmlətməliyik."* (Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı. 22 sentyabr 1993-cü il).

**SOSİAL-İQTİSADİ** – xaltın maddi rifah halı. *"Təəssüf ki, bu muxtar vilayətdə vəziyyət kəskinləşəndən sonra belə bir fikir meydana çıxdı ki, konfliktin səbəbi Dağlıq Qarabağın* ***sosial-iqtisadi*** *sahədə geri qalmasında və hətta DQMV-nin problemlərinə, onun əhalisinə respublikanın keçmiş rəhbərliyinin guya düzgün olmayan münasibətindədir."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il); □ **Sosial-iqtisadi böhran** – xalqın maddi vəziyyətinin ağırlaşması. *"Azərbaycanda* ***sosial-***

***iqtisadi böhran****ın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur."*(Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il); **Sosial-iqtisadi həyat** – xalqın rifah halı, yaşayışı. *"Biz Ukrayna mədəniyyətinin, Ukraynanın bütün* ***sosial-iqtisadi həyat****ının bu günlərdə tanış olduğumuz nailiyyətlərindən, Azərbaycan xalqının Sovet hakimiyyəti illərində qazandığı nailiyyətlərdən danışarkən böyük razılıq hissi ilə qeyd edirik ki, "*(Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçılarının şərəfinə qəbulda nitqindən. 10 oktyabr 1979-cu il); **Sosial-iqtisadi təminat** – xalqın dövlət tərəfindən konstitusion hüquq olaraq sosial müavinət, təqaüd və kompensasiyalarla; əlillərin reabilitasiya vasitələri (protez-ortez, ortopedik ayaqqabı və diğər reabilitasiya vasitələri), təkərli oturacaq, eşitmə aparatı ilə; xüsusi kateqoriyaya daxil olan imtiyazlı şəxslərin mənzillə, sanatoriya-kurort müalicəsi məqsədilə yollayışlarla təmin edilməsi və s. *"Bəs onlar insan deyildirlərmi? Onlara* ***sosial-iqtisadi təminat*** *lazım deyilmi?"* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993).

**SOSİALİSTCƏSİNƏ** *sif.* və *zərf.* – sosialist ideyalarla. *"Onun müvəffəqiyyətləri, çoxəsrlik sosial-iqtisadi gerilikdən müasir ictimai tərəqqinin zirvələrinə nəhəng sıçrayışı*

*milli məsələnin **sosialistcəsinə** həllinin Sovetlər ölkəsi xalqları üçün səciyyəvi, milli azadlıq, tərəqqi və demokratiya uğrunda mübarizə aparan xalqlar üçün bir çox cəhətlərdən ibrətamiz nümunəsidir."* (Azərbaycan yazıçılarının v qurultayında nitqi. 1 iyun 1972-ci il); *"Sovet xalqının ümumi mənəvi sərvətlərinin **sosialistcəsinə** yaradılmasının önündə sovet yazıçılarının beynəlmiləl dəstəsi gedir."* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il); *"Dövrün ictimai sifarişi"nə, ölkəni **sosialistcəsinə** yenidən qurmaq uğrunda partiyanın və xalqın mübarizəsinə əsaslanan dəqiq, aydın, döyüşkən həyat mövqeyi - bir sənətkar və vətəndaş kimi Cabbarlının başlıca xüsusiyyətləri bunlardır."* (Cəfər Cabbarlının abidəsinin açılışında nitqi. 22 mart 1982-ci il); *"Məhz Sovetlər hakimiyyəti sayəsində, **sosialistcəsinə** yenidənqurma haqqında Lenin ideyalarının həyata keçirilməsi sayəsində Azərbaycan universiteti əsil xalq ali məktəbinə çevrildi, bu məktəbin qapıları fəhlə və kəndlilərin üzünə açıldı."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOSİALİST DÖVLƏT** – konstitusiyasında sosializmə yönümlülük olan ölkə. *"Moskvanın, Leninqradın, qardaş sovet respublikalarının elm və təhsil mərkəzləri nümayəndələrinin **sosialist dövlət**lərindən olan dostlarımızın yubiley şənliklərində istirakı, bu fikrimizə sübutdur."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş

təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Biz bunu unutmur və Yer üzündə birinci çoxmillətli* ***sosialist dövlət****inin təşkilində böyük rus xalqının gör-kəmli rol oynadığını dərin minnətdarlıq hissi ilə qeyd edirik."* (Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərinin açılışında nitqi. 3 oktyabr 1972-ci il);*"Tarixdə birinci çoxmillətli* ***sosialist dövlət****i olan SSRİ-nin bütün millətlərinin və xalqlarının nümayəndələri vahid sırada böyük Vətənimizin şərəfini, azadlığını və istiqlaliyyətini qoruyurdular."* (Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin təntənəli açılışı mərasimindəki nitqindən. 9 may 1973-cü il).

**SOSİALİST ƏMƏYİ QƏHRƏMANI** – keçmiş SSRİ-də 1938-ci ildən 1991-ci ilə qədər əməkdə fərqlənməyə görə verilən ən ali fəxri ad. Sosialist Əməyi Qəhrəmanı adın verilməsinin əsasnaməsi və fəxri adı SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 dekabr 1938-ci il tarixli qərarı ilə təsis edilmişdir. *"Məlum olduğu kimi, o vaxtlar* ***Sosialist Əməyi Qəhrəmanı*** *adı ən yüksək ad idi, bu ada layiq görülənlər ən xoşbəxt adamlar idi. Mən bu təklifi irəli sürəndə Moskvada araşdırdılar ki, bəstəkarlardan, yazıçılardan, şairlərdən, alimlərdən* ***Sosialist Əməyi Qəhrəmanı*** *var, ancaq dirijorlardan yoxdur. Niyazini də bütün dünyada tanıtdıran onun məhz dirijorluq sənəti olmuşdur. Böyük dirijor olan Niyazi* ***Sosialist Əməyi Qəhrəmanı*** *adına layiq görüldü."*(Böyük dirijor və bəstəkar Niyazinin ev-muzeyinin təntənəli açılışında çıxışı. 18 sentyabr 1994).

**SOSİALİST İCTİMAİ QURULUŞU** – sinfi-sosial ədalətin bərpasına yönəlmiş ictimai quruluş. *"Sovet Azərbaycanı **sosialist ictimai quruluşu**nun, ölkəmizin xalqlarının dostluğunun və qarşılıqlı yardımının həyatverici qüvvəsini əyani şəkildə nümayiş etdirən bu qardaşlıq kitabına parlaq səhifələr yazmışdır."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il).

**SOSİALİST MƏDƏNİYYƏT** – SSRİ-nin təbliğ etdiyi leninizm-marksizm ideyalarına əsaslanan mədəniyyət. *"Azərbaycan xalqının həyatında, onun **sosialist mədəniyyət**inin tərəqqisində, Azərbaycan elminin inkişafında, iqtisadiyyatının yüksəlişində yubilyarımız böyük və səmərəli rol oynamışdır."*(Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOSİALİZM** [*lat.* socialis "ictimai"] *is.* – sinfi-sosial ədalətin bərpasına yönəlmiş – 1) siyasi, sosial və iqtisadi fəlsəfə; 2) ictimai quruluş. Marksizm tərəfdarlarına görə, sosializm kommunizmin ilkin mərhələsidir. Lakin tarix bu hipotezin özünü doğrultmadığını sübuta yetirdi. *"Sovet hakimiyyətinin 50 ili ərzində Kommunist Partiyasının rəhbərliyi altında Azərbaycan xalqının qazandığı bütün nailiyyətlər, onun haqlı olaraq fəxr etdiyi hər şey İliçin adı ilə, sosializm və kommunizm quruculuğu haqqında onun ölməz*

*ideyaları ilə bağlıdır."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOSİALİZM REALİZMİ** – keçmiş SSRİ-də və sosialist ölkələrinin ədəbiyyat və incəsənətində bədii cərəyan. Dünya və insan haqqında sosialist düşüncə tərzinin estetik ifadəsi.*"Azərbaycan rəngkarlarının, qrafiklərinin və heykəltəraşlarının ən yaxşı əsərləri **sosializm realizmi** prinsiplərinə öz sədaqəti ilə səciyyələnir. Azərbaycan KP Mərkəzi Komitəsi əmindir ki, respublikanın ədəbiyyat və incəsənət xadimləri partiyalılıq və xəlqilik bayrağını, **sosializm realizmi** bayrağını həmişə yüksək tutacaq."* (İdeoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi. 29 oktyabr 1971-ci il).

**SOSİALİZM BİRLİYİ DÖVLƏTLƏRİ (ÖLKƏLƏRİ)** – keçmiş SSRİ-yə daxil olan respublikalar. *"Biz universitetin bayramında, xalqımızın bayramında iştirak etdikləri üçün **sosializm birliyi dövlətləri**nin elm nümayəndələrini səmimi qəlbdən salamlayır və onlara öz minnətdarlığımızı bildiririk."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"**Sosializm birliyi ölkələri** ictimai tərəqqini*

*sürətləndirən güclü amilə çevrilmişdir."* (Azərbaycan yazıçılarının v qurultayında nitqi. 1 iyun 1972-ci il).

**SOVET AZƏRBAYCANI** – 28 aprel 1920-ci ildə Sovet Rusiyasının Azərbaycana hərbi müdaxiləsi nəticəsində yaradılmış və mövcudluğunu rəsmi olaraq 18 oktyabr 1991-ci ilə qədər davam etdirmiş marksist-leninist ideologiyalı Azərbaycan Sovet Sosialist Respublikası.*"35 ildir ki, Balaş Azəroğlu **Sovet Azərbaycanı**nda yaşayıb yaradır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).

**SOVET DÖVLƏTİ** – b a x **sovet(lər) hakimiyyəti.** *"Kommunist Partiyasının öz **Sovet dövləti**nin görkəmli xadimləri S.M.Kirov, Nəriman Nərimanov, Səməd Ağamalıoğlu, Ruhulla Axundov, Sultanməcid Əfəndiyev, Dadaş Bünyadzadə, Əliheydər Qarayev onun beşiyi başında dayanmışdılar."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOVET HÖKUMƏTİ** – b a x **sovet(lər) hakimiyyəti.** *"Azərbaycan Dövlət Universiteti öz tarixinin bütün mərhələlərində Kommunist Partiyasından və **Sovet hökuməti**ndən qayğı görmüşdür."*(Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOVET(LƏR) HAKİMİYYƏTİ** – Avrasiyada 1922-ci ildən 1991-ci ilə qədər mövcud olmuş Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ). *"Azərbaycanda və Zaqafqaziyada **Sovet hakimiyyəti**nin ilk səlahiyyətli orqanı - qəhrəman Bakı kommunasının Xalq Komissarları Soveti qısa müddət ərzində xalq maarifi sahəsində də bir çox mühüm inqilabi islahat həyata keçirdi. Məhz **Sovetlər hakimiyyəti** sayəsində, sosialistcəsinə yenidənqurma haqqında Lenin ideyalarının həyata keçirilməsi sayəsində Azərbaycan universiteti əsil xalq ali məktəbinə çevrildi, bu məktəbin qapıları fəhlə və kəndlilərin üzünə açıldı."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOVETLƏR İTTİFAQI** – Sovet İttifaqı, keçmiş SSRİ. *"**Sovetlər İttifaqı**nın Ali Sovetinin sədri Podqornı, İran şahı Məhəmməd Rza Pəhləvi və mən bu mərasimin iştirakçısı olmuşuq."* (Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüşdə giriş və yekun sözü. 13 avqust 1993). *"Buna görə də o vaxtlar mən Azərbaycan gənclərinin **Sovetlər İttifaqı**nın ali məktəblərinə müsabiqədənkənar qəbul edilməsi hüququnu aldım."* (Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000).

**SOVETLƏR ÖLKƏSİ** – 1923-1991-ci illər ərzində mövcud olmuş Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dövləti. *"Məhz burada, **Sovetlər ölkəsi**ndə onun yaradıcılığı həqiqətən pərvəriş tapmışdır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi.10 dekabr 1981-ci il).

**SOVET RUSİYASI** – SSRİ tərkibində Rusiya Sovet Federativ Sosialist Respublikası.*"İlk addımlarından etibarən universitet öz inkişafının bütün mərhələlərində rus xalqından, **Sovet Rusiyası** hökumətindən, Moskvanın təhsil mərkəzlərindən təmənnasız qardaşlıq köməyi görmüşdür."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il).

**SOV. İKP** [*rus.* Коммунистическая партия Советского Союза (КПСС)-dan kalka] *abr.* – Sovet İttifaqı Kommunist Partiyası. SSRİ-də hakim partiya. *"**Sov. İKP** XXIV qurultayının qərarları ilə əlaqədar olaraq yaradıcı ziyalılar qarşısında yeni böyük vəzifələr durur."* (İdeoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi, 29 oktyabr 1971-ci il).

**SOV. İKP MK** [*rus.* Центра́льный Комите́т Коммунисти́ческой Па́ртии Сове́тского Сою́за (ЦК КПСС)-dan kalka] *abr.* – Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi. *"Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı ilə inkar edilir."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il). *"O vaxtlar biz Tver bulvarındakı teatra - yeni Moskva Bədaye Akademik Teatrına keçdik, hamını oraya topladıq və mən Moskvanın rəhbərindən tutmuş bütün Moskva rəhbərliyini, ali təhsil nazirini və komsomolun mərkəzi komitəsinin rəhbərliyini və sair,* ***Sov. İKP MK****-nın işçilərini, məsul işçiləri dəvət etdim. Orada görüş oldu."* (Moskvada azərbaycanlıların ümum-Rusiya konqresinin təsis yığıncağında nitqi. 22 iyun 2000).

**SOV. İKP MK-nın SİYASİ BÜROSU** [*rus.* Поли́тическое бюро́ Центра́льного комите́та Коммунисти́ческой па́ртии Сове́тского Сою́за (Политбюро ЦК КПСС)-dan kalka] – 1976-cı ildə Sov. İKP-nin Mərkəzi Komitəsi (MK) Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov. İKP-nin MK Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa vermişdir.

*"Azərbaycanda **Sov. İKP MK-nın Siyasi Bürosu**nun bu qərarı iki cür qiymətləndirilirdi. İnsanlara vətənpərvərlik hissləri hakim kəsilmişdi: respublika tarixində ilk dəfə onun nümayəndəsi belə bir etibara layiq bilinibdir."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**SOYQIRIM** *is.* **–** bir xalqın nümayəndələrinin vəhşicəsinə və xüsusi qəddarlıqla kütləvi şəkildə qətlə yetirilməsi. *"Guya 85 il bundan öncə Türkiyə erməni xalqına qarşı **soyqırım**ı edibdir. Bu, yalan, uydurma bir şeydir. Bu, olmayıbdır. Bu, tarixdən bizə məlumdur. Əksinə, ermənilər Azərbaycana, türklərə qarşı **soyqırım**ı ediblər."* (Milli Olimpiya Komitəsinin Bakıda yeni idman-sağlamlıq kompleksinin təntənəli açılışı mərasimində nitqi. 21 oktyabr 2000).

**"SOYUQ MÜHARİBƏ"** – sosialist düşərgəsi ölkələri və Qərb bloku ölkələri arasında 1947-1991-ci illərdə qlobal səviyyədə ideoloji, sürətlə silahlanma, hərbi-siyasi və iqtisadi qütbləşmə prosesi. *"ATƏM-in fəaliyyətini gücləndirmək, onu demokratikləşdirmə və insan hüquqlarının qorunması proseslərinə təsirli kömək göstərməyə, hələ möhkəmlənməmiş gənc dövlətlərin azadlığına və istiqlaliyyətinə xələl gətirə biləcək təcavüzkarlıq hərəkətlərinin və ya planlarının qarşısını qətiyyətlə almağa, qitəmizin qaynar nöq-*

*tələrində sabitliyin bərpasına kömək etməyə qadir olan,* ***"soyuq müharibə"*** *qurtardıqdan sonra Avropa təhlükəsizliyinin yeni binasının dayaqlarından birini təşkil edə bilən səmərəli vasitəyə çevirmək son dərəcə zəruridir."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt goruşündə çıxışı. 6 dekabr 1994).

**SSRİ ALİ SOVETİ** – keçmiş SSRİ-nin qanunverici orqanı. *"Böyük Vətənimizin bütün xalqları kimi, Azərbaycan xalqı da* ***SSRİ Ali Soveti****nə seçkilərə öz inkişaf etmiş sosializm ölkəsi üçün iftixar hissi ilə hazırlaşır və kommunistlərlə bitərəflərin sarsılmaz ittifaqının namizədlərinə yekdillikla səs verməyə hazır olduğunu nümayiş etdirir."* (Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il).

**SSRİ MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ** – b a x **SSRİ MİK.** *"Bu gün biz qardaş Sovet Sosialist Respublikaları İttifaqının yaradılmasına partiyanın iradəsi ilə çoxlu əmək və inqilabi qüvvə sərf etmiş olan bir insanın,* ***SSRİ Mərkəzi İcraiyyə Komitəsi****nin ilk sədrlərindən birinin, V.İ.Leninin şagirdi və silahdaşı Nəriman Nərimanovun anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etməyə toplaşmışıq."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**SSRİ MİK** *abr.* – SSRİ Mərkəzi İcraiyyə Komitəsi. 1922-1938-ci illərdə SSRİ-də dövlət hakimiyyətinin ali orqanı və SSRİ tərkibində olan respublikaların və muxtar vilayətlərin qurultaylararası dövrlərdə ali qanunvericilik orqanı. 1938-ci ildə SSRİ MİK ləğv edilir, yerinə Ali Sovet yaradılır. *"Azərbaycan paytaxtında bütün ömrünü zəhmətkeşlərin azadlığı və səadəti uğrunda mübarizəyə həsr etmiş insanın, **SSRİ MİK**-in ilk sədrlərindən biri Nəriman Nərimanovun abidəsinin ucaldılmasının dərin rəmzi mənası vardır."* (Nəriman Nərimanovun abidəsinin açılışında nitqi. 6 iyun 1972-ci il); *"Nəriman Nərimanov **SSRİ MİK**-in sədri kimi yüksək vəzifədə çalışarkən var qüvvəsini, biliyini və təcrübəsini partiyanın Mərkəzi Komitəsinin və Sovet hökumətinin qərarlarının – qardaş respublikalarda iqtisadiyyatın və mədəniyyətin inkişafına, sovet xalqlarının dostluq və əməkdaşlığının möhkəmlənməsinə yönəldilən qərarların həyata keçirilməsi uğrunda mübarizəyə sərf edirdi."* (Nəriman Nərimanovun abidəsinin acılışında nitqi. 6 iyun 1972-ci il).

**STATUS** [*lat.* status] *is.* – hüquqla müəyyən edilmiş hal, hüquqi vəziyyət. *"Naxçıvanın xüsusi bir **status**unun olması, Türkiyənin Naxçıvan üçün zamin bir dövlət olması 70 il bundan əvvəl bağlanmış müqavilələrdə öz əksini tapıb. Ancaq bu **status**un həyata keçirilməsi və indi bunun dünyada elan edilməsi Sizin kimi böyük şəxsiyyətə – Türkiyənin Baş naziri Süleyman Dəmirələ nəsib olmuşdur."* (Türkiyəyə səfəri zamanı Türkiyənin baş naziri Süleyman Də-

mirəllə rəsmi görüşündə çıxışı. 23 mart 1992-ci il); *"Çünki biz Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə **status**u verməyə hazırıq və bunu dəfələrlə bəyan etmişik. Biz belə bir **status** verərkən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmasını tələb edirik və yerindən-yurdundan didərgin düşmüş insanların öz yerlərinə qayıtmasını təmin etmək istəyirik. Ancaq Ermənistan Dağlıq Qarabağa dövlət müstəqilliyi **status**u almaq istəyir."* (Cons Hopkins Vaşinqton universitetində görüşdə nitqi. 15 fevral 2000); *"Ancaq Ermənistan çox qeyri-konstruktiv mövqe tutur: "Dağlıq Qarabağa müstəqillik verilsin". Heç bir başqa **status** qəbul etmirlər. Dünyada muxtariyyət **status**unun bir çox forması var. Biz təklif edirik ki, bunlardan hansını istəyirsinizsə, onu götürək. Amma onlar deyirlər ki, "biz dünyada olan **status**ların heç birini qəbul etmirik, bizə müstəqillik verilməlidir."* ("Nyu-York tayms" qəzetinin redaksiya heyətinin üzvləri ilə görüşdə söhbəti. 16 fevral 2000).

**SUVERENLİK** *is.* – ölkənin daxili və xarici siyasətində tam müstəqilliyə malik olması. *"Siz, bütün Azərbaycan əhalisi əmin ola bilər ki, biz Vətən yolunda, xalq yolunda, Azərbaycanın **suverenliy**i, bütövlüyü yolunda həlak olan, canını qurban verən, şəhid olan adamların hər birinin şücaətini, qəhrəmanlığını heç vaxt unutmayacağıq."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993).

**SURƏT HÜSEYNOV** *xüs.is.* – 1993-cü ildə Azərbaycanda yaranmış siyasi böhranın, silahlı qarşıdurmanın səbəbkarlarından biri. Fevral ayında həmin dövr Azərbaycanın prezidenti olmuş Əbülfəz Elçibəy tərəfindən keçmiş korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi 709 saylı hərbi hissənin ləğv edilməsi haqqında sərəncam imzalandı. Surət Hüseynov bu sərəncamı icra etmədi. O, Əbülfəz Elçibəyi silah zoru ilə hakimiyyətdən devirərək özünün başçılıq etdiyi yeni hökumətin formalaşdırılmasına təşəbbüs etdi. Elçibəyin dəvəti və xalqın tələbi ilə Bakıya çağırılan Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilir, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayır. Qeyri-qanuni yaratdığı silahlı dəstələrə başçılıq edən Surət Hüseynovun vətəndaş müharibəsinə təşəbbüs etməsinin qarşısını almaq məqsədi ilə Heydər Əliyev yeni qurulmuş hökuməti onunla birgə idarə edəcəyini bəyan edir və Surət Hüseynovu baş nazir vəzifəsinə təyin edir. O, 1993-1994-cü illərdə Azərbaycan Respublikasının baş naziri kimi fəaliyyət göstərir. Lakin 1994-cü ildə yenidən dövlət çevrilişinə cəhd göstərdiyinə görə ömürlük həbs cəzasına məhkum edilir. O, 2004-cü ildə Prezident İlham Əliyev tərəfindən əfv olunmuşdur. *"Əgər təkcə **Surət Hüseynov**un evinin bir divarından 30 avtomat, pulemyot, qumbaraatan, qumbara*

*çıxıbsa, buna nə ad vermək olar? Bundan sonra həmin bağ evini **Surət Hüseynov** əlinə keçirdi. Mənim bundan xəbərim yox idi. Mən biləndə, müdafiə nazirinə göstəriş verdim ki, bu, hərbi hissənin əmlakıdır və onu gedin alın. **Surət Hüseynov** buna müqavimət göstərmişdi. Müdafiə naziri də bir şey edə bilməmişdi. **Surət Hüseynov** orada cürbəcür çirkin işlər görürdü."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994); *"Burada dedilər ki, mən **Surət Hüseynov**u bir il üç ay, – mən saymamışam nə qədərdir, əgər deyirlərsə, deməli, bu qədərdir, – tərbiyə etmək istədim, amma tərbiyə edə bilmədim."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**SÜLEYMAN DƏMİRƏL** *xüs.is.* – 1993-2000 illər arasında Türkiyənin 9-cu prezidenti olmuş Süleyman Sami Dəmirəl (1924-2015). *"Mənim əziz qardaşım **Süleyman Dəmirəl** Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı qarşısında böyük xidmətlər göstərmiş, böyük nüfuz qazanmışdır."* (Ankarada "Çankaya" Köşkündə Azərbaycan prezidentinin şərəfinə ziyafətdə nitqi. 8 fevral 1994).

**SÜLH PROSESİ** – münaqişədə olan dövlətlər arasında sülhməramlı danışıqların aparılması və qəbul edilən qərarların icrası. *"Bununla əlaqədar mən cənab Levon Ter-Petrosyanı başlanmış **sülh prosesi**nə, burada, Budapeştdə, bizim məclisimizdə hökm sürən əlverişli şəraitə ziyan*

*vura biləcək hər hansı duşunülməmiş hərəkətlərdən çəkindirirəm."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

**SÜLHSEVƏR ADDIM** – bir münaqişə və yaxud qarşıdurmanın həllinə rəvac vermək məqsədilə aparılan konstruktiv fəaliyyət. *"Biz Minsk qrupunun yeni sədri cənab Eliassonun fəaliyyətə başlamasını yeni* ***sülhsevər addım****la əlamətdar etməyə hazırıq."* (Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin əlahiddə tapşırıqlar üzrə səfiri V. Kazimirovla görüşdə çıxışı. 31 yanvar 1994).

**SVYATİXOVSKİ** *xüs.is.* – Tadeuş Svyatixovski (1932-2017). Polşa tarixçisi, Cənubi Qafqazın və xüsusilə Azərbaycanın tədqiqi üzrə aparıcı mütəxəssis. *"Mən burada professor Svyatixovski ilə görüşməyimə şadam və onusalamlayıram. O, Azərbaycanda özünün məhz obyektivliyi, ədalətliliyi və doğruçuluğu ilə məşhurdur."*(Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. 6 yanvar 1994).

# Ş

**ŞƏHİD** *is.* – burada: vətən uğrunda ölən, canını fəda edən şəxs. *"Azərbaycan xalqı beş ildir müharibə içərisindədir, **şəhid**lər verir."* (Müstəqil Azərbaycanın dövlətçiliyini və ərazi bütövlüyünü qorumaq hər birimizin borcudur. Ümumrespublika müşavirəsində çıxışı. 24 avqust 1993); *"Bu salonda çıxış edərkən mən həm İran İslam Respublikasının, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması naminə verilmiş **şəhid**lərin qəhrəmanlığını qeyd edirəm, onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi sizdən rica edirəm."*(İran İslam Respublikasına rəsmi səfər zamanı İran Xarici İşlər Nazirliyinin Siyasi Araşdırmalar Mərkəzinin diplomatik kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxışı. 2 iyul 1994); *"Cəmiyyətin həyatının təbii axarında belə hallar, şübhəsiz, olur, bunların müəyyən təbii səbəbləri, yaxud ayrı-ayrı hadisələrlə əlaqədar səbəbləri varsa da, müharibə şəraitində insanların **şəhid** olması ilə yanaşı, xəsarət alması, şikəst, əlil olması halları həddində çox artıb."* (Respublika protez-ortopedik bərpa mərkəzinin kollektivi ilə görüşdə çıxışı. 17 yanvar 1995).

**ŞOVİNİZM** [*fr.* chauvinisme] *is.* – irqi müstəsnalığı təbliğ edən, milli düşmənçiliyi və nifrəti qızışdıranən mürtəce millətçilik. *"Millətçilik və **şovinizm**in tüğyan etdiyi şəraitdə N.Nərimanov xalqın müqəddəratı ilə həyasızcasına oynayan və bunu "millətin", "dinin" müdafiəsi haqqında gurultulu ibarələrlə pərdələyən istismarçı təbəqənin xain siyasətini mərdliklə ifşa edirdi."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Çarizm və burjuaziya milli ədavəti qızışdırdığı, fəhlə sinfini, xalq kütlələrini milli əlamətə görə parçalamağa çalışdığı şəraitdə N.Nərimanov vəhşi millətçilik və **şovinizm**ə qarşı cəsarətlə çıxış edirdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Bilirsiniz, hər halda, keçmiş vaxtlarda Rusiyada **şovinizm** olub, sovet dövründə də daha çox yerli millətçilik haqqında danışırdılar."* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000); *"Yeri gəlmişkən deyim ki, bilmirəm Leninə kim necə yanaşır, amma bu baxımdan Leninin çox düzgün fikirləri var idi. O deyirdi ki, bu da, o birisi də – **şovinizm** də, millətçilik də təhlükəlidir."* (Ümum-Rusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbəti. 21 iyul 2000).

# T

**TAMHÜQUQLU** *sif.* – dövlətin konstitusiyasında müəyyənləşmiş bütün hüquqlardan istifadə edən bilən, hər cür hüquqlara malik olan. *"Harada ki,* ***tamhüquqlu****, qarşılıqlı münasibətlər yaradılmasına cəhd göstərilir, orada hər şey çox sadə bir model – mehriban qonşuluq münasibətləri əsasında həll edilir."* ("Nezavisimaya qazeta"ya müsahibəsi. 30 avqust 1993); *"Zəngin və çoxəsrlik tarixi olan, böyük inkişaf yolu keçən Azərbaycan Respublikası üç il bundan əvvəl sovet totalitarizminin süqutu nəticəsində öz milli istiqlaliyyətini bərpa etmiş və BMT-də, ATƏM-də və digər beynəlxalq təşkilatlarda təmsil olunduğuna görə bu gün NATO üçün dünya birliyinin* ***tamhüquqlu*** *üzvüdür."* ("Sülh naminə tərəfdaşlıq" çərçivə sənədinin imzalanma mərasimində bəyanatı. 4 may 1994); *"Daim əmin olsunlar ki, özləri, uşaqları və nəvələri bu gün də, gələcəkdə də Azərbaycanda normal şəraitdə yaşayacaqlar, rifahdan və bütün hüquqlardan bəhrələnəcək, özlərini müstəqil Azərbaycan Respublikasının* ***tamhüquqlu*** *vətəndaşları hiss edəcəklər."* (Milad bayramı münasibətilə Bakıdakı kamera musiqisi salonunda keçirilən mərasimdə respublikanın pravoslav xristianlarına müraciəti. *7 yanvar 1995*);*"Bu, ona əsaslanır ki, Ukrayna da, Azərbaycan da xalqlarımızın azad, müstəqil olmasını, öz taleyimizi özümüzün müəyyən etməyimizi,*

*öz məsələlərimizi müstəqil həll etməyimizi və beynəlxalq birliyin **tamhüquqlu** üzvü olmağımızı yüksək qiymətləndirirlər."* (Azərbaycan Prezidenti adından Ukrayna prezidenti Leonid Kuçmanin şərəfinə təşkil edilmiş ziyafətdə nitqi. 16 mart 2000).

**TANSU ÇİLLƏR** *xüs.is.* – iqtisadçı, akademik, siyasətçi və Türkiyənin 22-ci baş naziri. 1993-1996-cı illərdə baş nazir vəzifəsini icra edən Çillər Türkiyənin siyasi tarixində ilk və yeganə qadın baş nazirdir. O, 1993-2002-ci illərdə Doğru Yol Partiyasının sədri olmu, 1996-1997-ci illərdə baş nazirin müavini və Xarici İşlər Naziri vəzifələrində çalışmışdır. *"O ki qaldı Türkiyənin baş naziri **Tansu Çillər**in belə bir bəyanatına ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyü üçün təminatçı ola bilər, deyə bilərəm ki, biz Azərbaycana hər hansı köməyi, kimin tərəfindən təklif edilməsindən asılı olmayaraq, razılıq hissi ilə qarşılayırıq."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Respublika Ali Sovetinin sədri Heydər Əliyevin mətbuat konfransında bəyanatı. 10 sentyabr 1993); *"Türkiyənin baş naziri hörmətli xanım **Tansu Çillər** bu gün Azərbaycana qısamüddətli işgüzar səfərə gəlibdir."* (Azərbaycan və Türkiyə Respublikaları arasında neft sahəsində əməkdaşlığa dair sazişin yüksək səviyyədə imzalanması mərasimində çıxışı. *12 aprel 1995*).

**TARİXİ-OBYEKTİV PROSESLƏR** – tarixi zərurətdən yaranan hadisələr. *"Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu **tarixi-obyektiv proseslər** Sovet İttifaqının dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Təkrar edirəm, bu, **tarixi-obyektiv proseslər**in nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir."* (Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il).

**TELEFON SÖHBƏTİ** – telefon vasitəsilə aparılan siyasi dialoq. *"Bu hücumlar zamanı mənim Levon Ter-Petrosyanla bir neçə dəfə **telefon söhbəti**m oldu."* (Fransaya rəsmi səfər zamani Parisdə mətbuat konfransında bəyanatı. 21 dekabr 1993).

**TERROR** [*lat.* terror] *is.* – mütəşəkkil qrupun və ya siyasi partiyanın bəyan edilmiş məqsədlərinə çatması üçün qeyri-qanuni zor, güc, cana qəsdetmə tətbiq etməsi. *"Həştərxanda ikən N.Nərimanov **terror** və təqib şəraitində gizli fəaliyyət göstərən Azərbaycan bolşevikləri ilə yaxından əlaqə saxlayırdı."* (Nəriman Nərimanovun 100 illik yubi-

ley mərasimində məruzəsi. 29 iyun 1972-ci il). *"Ən xoşagəlməzi budur ki, öz fəaliyyətlərində antidemokratik, bəzən isə* ***terror*** *üsulundan istifadə edənlər özlərini demokrat adlandırırlar."*("Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxuram" "Nezavisimaya qazeta" müxbirinə müsahibəsi (27 yanvar 1993-cü il). *"Həmin qurultayda Naxçıvan MR-də xalq tərəfindən qanuni seçilmiş hakimiyyətə qarşı vandalizmə,* ***terror****a, onun zorla devrilməsinə çağırışlar da səslənmişdir. İyirmi dörd oktyabrda baş tutmayan qiyamdan başlayaraq qurultayda davam edən* ***terror****a çağırışlar bir ssenarinin davamıdır."* ("Şərq qapısı" qəzeti, 27 yanvar 1993-cü il). *"Ancaq bilirsiniz ki, ötən ilin oktyabr ayında Ermənistanın parlamentində böyük bir* ***terror*** *hadisəsi oldu."* (Amerika Birləşmiş Ştatlarının keçmiş dövlət katibi, tanınmış ictimai-siyasi xadim Lourens İqlberger ilə görüşdə söhbəti. 16 fevral 2000). □ **Terror aktı –** terror əməliyyatı: insan ölümü, partlayış, dağıntı və s. *"Ona görə də nə çevrilişdən qorxuram, nə mənə qarşı* ***terror aktları*** *hazırlayan qüvvələrdən qorxuram."* (Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993). *"Azərbaycandakı siyasi vəziyyətin təhlili ilə əlaqədar parlamentdəki çıxışımdan sonra elə həmin gün xəbər çatdı ki, mənə qarşı* ***terror aktı*** *hazırlanır."* ("Moskovskiye novosti" qəzetinə müsahibəsi. 2 may 1993-cü il).

**TERRORÇU** *is.* – **1.** Terror fəaliyyəti ilə məşğul olan şəxs. *"Bildiyiniz kimi, ötən ilin payızında Bakıda bir*

*terrorçu qrup yaxalandı və bu* ***terrorçular*** *mühakimə edildilər."* (Ümumrespublika həmrəylik mitinqində çıxışı. 5 oktyabr 1994-cü il). *"Ancaq onlar da –* ***terrorçular*** *da, hamı da bilsin, məni heç bir şey qorxutmur, o cümlədən terror aktı."* ("15-17 mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyət" mövzusuna həsr olunmuş ümumxalq nümayəndələri toplantısında giriş və yekun nitqi. *23-24 iyun 1995*). *"Bir* ***terrorçu*** *həbs olunubdur, ifadə verib ki, hələ 1990-cı ildə Mütəllibovun göstərişi ilə, Mütəllibovun əlaltılarından olan başqa bir yaramaz adamla birlikdə Moskvaya gedibdir."* (Böyük qazax şairi Abay Kunanbayevin 150 illik yubileyində iştirak edən dövlət başçılarının və nümayəndə heyətləri rəhbərlərinin şərəfinə rəsmi qəbulda nitqi. *9 avqust 1995*). *"Biz həmişə narahat olmuşuq və bu gün də narahatıq ki, Rusiya mətbuatında bəzən ayrı-ayrı vəzifəli şəxslərin, hərbçilərin dilindən çıxan belə xəbərlər verilir ki, guya* ***terrorçular****, yaraqlılar Çeçenistana, Şimali Qafqaza Azərbaycandan keçib gedirlər."* (Rusiya Federal Sərhəd Xidmətinin direktoru, general-polkovnik Konstantin Totski başda olmaqla nümayəndə heyəti ilə görüşdə söhbəti. 5 iyun 2000).

**2.** Terrora aid olan. *"Bu hərəkətləri mən demokratiyanın prinsiplərinə və beynəlxalq hüquq normalarına tam zidd olan* ***terrorçu*** *metodlarla yeni yaranmış siyasi partiyanın – Yeni Azərbaycan Partiyasının təqibi kimi qiymətləndirirəm."* (Yeni Azərbaycan Partiyasının müavini Murtuz Ələsgərova qarşı həyata keçirilmiş terrorçuluq aktı ilə əlaqədar

olaraq müraciəti (16 dekabr 1992-ci il)) □ **Terrorçu aksiya** b a x **terror aktı.** *"Qətiyyətlə tələb edirəm ki, partiyanın fəallarına qarşı aparılan hüquqa zidd **terrorçu aksiya**lara son qoyulsun."* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il). **Terrorçu təşkilat –** qəsdən terror fəaliyyətinin həyata keçirilməsi ilə məşğul olan və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün hesab edən mütəşəkkil dəstə. *"Bu **terrorçu təşkilat**lar Azərbaycanı erməni işğalından, qəsbkarlığındanmı xilas etmək istəyirlər, yoxsa öz şəxsi məqsədlərinə nail olmaq üçün bu yolu tutmuşlar?"* (Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çıxışı. 17 noyabr 1993).

**TERRORÇULUQ** *is.* – əhali arasında vahimə yaratmaq, ictimai təhlükəsizliyi pozmaq yaxud dövlət hakimiyyət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə. *"Ancaq bu o demək deyildir ki, düşmənçilik, xəyanət, **terrorçuluq** mövqeyində durasan. İndi müxalifətdə olan bu adamların arasında **terrorçuluq** əhval-ruhiyyəsi ilə yaşayan, **terrorçuluq** məqsədi daşıyan şəxslər də var."*(Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri

ilə görüşdə çıxışı. 17 noyabr 1993) □ **Terrorçuluq aktı** – b a x **terror aktı.** *"Yeni Azərbaycan Partiyasının sədri kimi partiya sədrinin müavini, məşhur hüquqşünas, professor, Bakı Dövlət Universitetinin hüquqşünaslıq kafedrasının müdiri Murtuz Ələsgərova qarşı həyata keçirilmiş* ***terrorçuluq aktı*** *ilə əlaqədar olaraq hədsiz hiddətimi və nifrətimi bildirirəm."* (Yeni Azərbaycan Partiyasının Müavini Murtuz Ələsgərova qarşı həyata keçirilmiş terrorçuluq aktı ilə əlaqədar olaraq müraciəti. 16 dekabr 1992-ci il).

**TERRORİST TƏŞKİLAT** b a x **terrorçu təşkilat.** *"İsgəndər Həmidov bura gələ bilmədiyinə görə müraciət edib Türkiyədəki "Bozqurd"* ***terrorist təşkilat****ına ki, onlar gəlib burda təxribat aparsın və əhalini qırsın."*(Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il).

**TERRORİZM** [*lat.* terror "qorxu, dəhşət"] *is.* – mütəşəkkil qrupun və ya siyasi partiyanın bəyan edilmiş məqsədlərinə sistemli şəkildə zorakılıq yolu ilə çatma üsulu. *"Partiyanın sədr müavini, professor Murtuz Ələsgərovun həyatına qəsd edən cinayətkarların aşkar edilməsi və təcili cəzalandırılması, həmçinin açıq-aşkar* ***terrorizm****ə və qan tökməyə çağıran şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün yubanmadan təcili və qəti tədbirlər görülsün."* (Oktyabr ayının 24-də Naxçıvanda baş vermiş dövlət

çevrilişi cəhdi ilə əlaqədar keçirilmiş Muxtar Respublika ictimaiyyəti nümayəndələri toplantısında çıxışı. 28 oktyabr 1992-ci il). *"**Terrorizmə**, narkotiklərə, ekstremizmə, separatizmə qarşı mübarizə bu gün çox aktualdır, çünki bu hallar dünyanın müxtəlif bölgələrində, o cümlədən, Rusiyada və Azərbaycanda, Qafqazda təzahür edir."* (Rusiyanın Daxili İşlər naziri Vladimir Ruşaylonu qəbul edərkən söhbətindən. 4 fevral 2000).

**TƏBLİĞAT** [*ər.* تبليغات] *is.* – ictimaiyyətdə məqsədli şəkildə fikir formalaşdırmaq üçün müəyyən ideya, informasiya və s.-ni kütlə arasında yayma, təbliğ etmə. *"Adamlar arasında cürbəcür **təbliğat** aparmağa, xalqı çaşdırmağa, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər."*(Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışı. 4 noyabr 1993).

**TƏCAVÜZ** [*ər.* تجاوز] *is.* – burada: bir dövlətin ərazisinin zəbt olunması; xalqına qarşı etnik təmizləmə, qətliam, zorakılıq hərəkətlərinə yol verilməsi.*"İndi xalqımız ağır vəziyyətdədir. Bildiyiniz kimi altı ilə yaxındır ki, Azərbaycan Ermənistanın hərbi **təcavüz**ünə məruz qalmışdır."*(Londonun "Hilton" Otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışı (23 fevral 1994). *"Bu gün biz bir daha qeyd etməliyik ki, Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün ən ağır bəla ölkəmizin hərbi **təcavüz**ə məruz qalmasıdır, müharibə şəraitində*

*olmasıdır, altı ildən artıq gedən müharibədə Azərbaycanın böyük itkiləri, torpaqlarının işğal olunmasıdır, bir milyondan çox əhalisinin qaçqın vəziyyətinə düşməsidir."*(Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994). *"Sovet hökumətinin, kommunist rejiminin öz xalqına qarşı bu qədər dəhşətli terror, **təcavüz** əməliyyatı buna qədər heç vaxt keçirilməmişdir."* (Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Stenli Eskudero ilə görüşdəki söhbətdən. 13 yanvar 2000).

**TƏCAVÜZKAR** *is.* – burada: işğalçı, qəsbkar. *"İşğal olunmuş torpaqlarımızı nəyin bahasına olursa-olsun, geri qaytarmalı, erməni **təcavüzkar**larını öz ərazimizdən qovmalı, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməliyik."*(Londonun "Hilton" Otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə çıxışı (23 fevral 1994). *"Ona görə də düşmənin Azərbaycanı parçalamaq, dağıtmaq, torpaqlarımızın bir qismini ələ keçirmək planlarının qarşısını almaq üçün, buna sinə gərmək üçün, bu planları pozmaq, Azərbaycanı qorumaq üçün hamının bir məqsədi olmalı idi: o vaxt da, 1988-ci ildə də, ondan sonrakı illərdə də birləşib xalqımızı bu vəziyyətdən çıxarmaq, ümumi düşmənin, **təcavüzkar**ın, Azərbaycanı parçalamaq istəyən düşmənlərin qarşısına çıxmaq, onların qarşısını almaq."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**TƏKBƏTƏK** *sif.* – **1.** Yalnız prezidentlərin iştirakı ilə olan üzbəüz (rəsmi görüş, danışıq və s.). *"Dünən prezident Əbülfəz Elçibəylə danışıqlarımız olub, Gəncədə də mən danışıqlar aparmışam, mənimlə gedən şəxslərlə birlikdə və* ***təkbətək****."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993); *"Rusiya prezidenti Boris Yeltsinlə mənim* ***təkbətək*** *söhbətimdə də, sonra ümumi danışıqlarımızda da o, atəşin dayandırılmasına çox meyl göstərdi."* (Prezident Sarayında Azərbaycan ərazisinə Ermənistan silahlı qüvvələrinin yeni hücumları ilə əlaqədar güclü ordu yaratmaq üçün bütün qüvvələrin səfərbərliyə alınması vəzifələrinə həsr olunmuş müşavirədə giriş sözü və yekun sözü. 17 aprel 1994); *"Mən Davosda çoxlu görüşlər keçirdim. Ermənistan prezidenti ilə mənim* ***təkbətək*** *görüşüm oldu, biz iki saatdan artıq danışdıq."* (İsveçrədəki Azərbaycan cəmiyyəti idarə heyətinin bir qrup üzvü ilə görüşdə çıxışı. 30 yanvar 2000).

**2.** Mübarizədə, vuruşmada, yarışda iki nəfərin üzüzə gəldiyi hal. *"Beləliklə, cənab M. Raffaellinin öz planından geri çəkilməsi və regiona nəzərdə tutulan çox əhəmiyyətli səfərini təxirə salması o deməkdir ki, Azərbaycanın ümid bəslədiyi ATƏM artıq özünü münaqişənin nizama salınması prosesindən kənara çəkərək təcrid edir və bizi Ermənistanla* ***təkbətək*** *vuruşmağa məcbur edir."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 5 iyul 1993).

**TƏMİNAT** [*ər.* تأمينات "təmin" sözünün cəmi] *is.* – 1. Birisinin həyatını təmin etmək üçün ona verilən pul, maddi vəsait və s. *"Biz Türkiyədən, İrandan gələn mallar vasitəsilə, bir də ki Bakıdan İran ərazisi ilə uzun yolla gətirilən ərzaq malları vasitəsilə Naxçıvanda əhalinin **təminat**ını müəyyən qədər təşkil etməyə nail oluruq."* (Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində nitqi. 12 noyabr 1992-ci il); *"Sonra televiziyada, mətbuatda xəbər verildi ki, bu çağırışa qoşulan adamlar var və onlar öz imkanlarından istifadə edərək ehtiyacı olan qaçqınlara, köçkünlərə kömək göstərmək istəyirlər, bir çox ailələrin **təminat**ını öz öhdələrinə götürmüşlər."* Cəbhəyanı bölgədə – İmişli, Füzuli, Beyləqan, Şəmkir, Ağcabədi rayonlarında və Gəncə şəhərində görüşlər zamanı çıxışları. 11-12 dekabr 1993).

**2.** Bir işin yerinə yetirilməsini və ya təhlükəsizliyini təmin edən amillər; zəmanət. *"Bu bizim daha dinamik irəliləyişimiz üçün ən möhkəm **təminat**dır."* (Yazıçıların Ümumittifaq Yaradıcılıq konfransında məruzəsi. 27 oktyabr 1980-ci il); *"Biz qarşımıza qoyduğumuz məqsədləri qısa müddətdə həyata keçirməliyik. Nəzərdə tutulan bütün islahatların və niyyətlərin həyata keçirilməsi üçün tam **təminat**, əsas var."* (Bilkənd Universiteti İdarə Heyətinin sədri İhsan Doğramaçı ilə görüşdə çıxışı. 9 fevral 1994).

◊ **Təminat vermək** – zamin olmaq. *"Ermənistan Respublikasından hərbi əməliyyatlara yenidən başlamamağa möhkəm siyasi **təminat verməy**i tələb etsinlər."* (MDB döv-

lət başçıları şurasının iclasında bəyanatı. 24 dekabr 1993); *"Sənəddə əldə edilmiş razılaşmaların həyata keçirilməsi mexanizmi nəzərdə tutulmur. Buna görə də mövcud rəsmi məlumatın arzu edilən nəticələrə nail olunmasına* ***təminat verəcəyinə*** *ümid azdır."* (Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan Və Ermənistan rəhbərlərinin sentyabrın 23-də Jeleznovodsk şəhərində imzaladıqları rəsmi məlumatla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı. 1 oktyabr 1991-ci il).

**TƏMİNATÇI** *is.* – hər hansı bir işin yüksək şəkildə icrasını həyata keçirən və ya nəzarət edən, buna təminat verən şəxs, təşkilat, dövlət. *"O ki qaldı Türkiyənin baş naziri Tansu Çillərin belə bir bəyanatına ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyü üçün* ***təminatçı*** *ola bilər, deyə bilərəm ki, biz Azərbaycana hər hansı köməyi, kimin tərəfindən təklif edilməsindən asılı olmayaraq, razılıq hissi ilə qarşılayırıq."* (Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Respublika Ali Sovetinin sədri Heydər Əliyevin mətbuat konfransında bəyanatı. 10 sentyabr 1993); *"And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin* ***təminatçı****sı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin* ***təminatçı****sı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublika-*

*sının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin **təminatçı**sı olacağam."* (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi. 10 oktyabr 1993); *"Prezident Azərbaycan Respublikasının dövlətçiliyinin **təminatçı**sıdır."* (Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışı. 10 noyabr 1995); *"Almaniya bundan sonra dünyada sülhün bərqərar edilməsinin **təminatçı**larından biri olacaqdır. Avropada heç vaxt yenidən müharibə baş verməyəcəkdir və Almaniya Federativ Respublikası bunun **təminatçı**sı olacaqdır."* (Almaniyanın yenidən birləşməsi günü münasibətilə AFR-in Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda nitqi. 3 oktyabr 1995); *"Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və **təminatçı**sı məhz Azərbaycan gəncliyidir."* (Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. 29 dekabr 2000).

**TƏŞKİLAT** [*ər.* تشكيلات "təşkil" sözünün cəmi] *is.* – **1.** Siyasi birləşmə. *"Son günlər alınan məlumatlar göstərir ki, Xalq Cəbhəsinin bəzi dəstələri, bəzi **təşkilat**lar yerlərdə adamlara silah paylayırlar və silahlı üsyan qaldırmaq fikrinə düşüblər, hakimiyyəti ələ keçirmək niyyətindədirlər."* (Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə çıxışı. 4 noyabr 1993); *"Bizim görüşlər əməli səciyyə daşıyırdı, mən onu partiya **təşkilatı**nın işi barəsində məlumatlandırır və xeyirxah məsləhətlər alırdım."* ("Mən həmişə liberallığın əleyhinə

olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

2. İctimai birləşmə. *"Biz yaradıcı **təşkilat**ların fəaliyyətini reqlamentləşdirmirdik."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**TƏŞKİLATÇI** *is.* – bir şeyi təşkil edən, təşəbbüsçü olan adam. *"Cəmi il yarım Azərbaycan KP MK-nın birinci katibi işləyən və fəaliyyəti biabırçı uğursuzluqla başa çatan Ə.Vəzirov bu işin şübhəsiz, **təşkilatçı**sı idi."* (Daha susa bilməzdim. 26 iyul 1990-cı il); *"O ki qaldı mənim islam fundamentalizminin **təşkilatçı**larından olmağıma, deməliyəm ki, mən belə bir arzuda da olmamışam." (Daha susa bilməzdim. 26 iyul 1990-cı il); "Mənə belə gəlir ki, bütün bu sahələrdə Naxçıvan Dövlət Universiteti gərək şübhəsiz ki, öz aparıcı rolunu oynasın və bu işlərin **təşkilatçı**sı olsun."* (Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində nitqi. 12 noyabr 1992-ci il).

**TƏŞKİLATİ** *sif.* – ictimai-siyasi birləşmə ilə bağlı. *"Ziyalılarla fərdi görüşlər zamanı həm məişət, həm **təşkilati** problemlər qalxırdı."* ("Mən həmişə liberallığın əleyhinə olmuşam". "Teatralnaya jizn" jurnalı üçün Andrey Karaulova müsahibəsi. 29 noyabr 1989-cu il).

**TORPAQ BÜTÖVLÜYÜ** b a x **ərazi bütövlüyü**. *"Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Bu, bərpa olunmalıdır,* ***torpaq bütövlüyü****müz bərpa olunmalıdır."*(Cons Hopkins Vaşinqton Universitetində görüşdə nitqi. 15 fevral 2000).

**TOTALİTAR** [*fr*. totalitaire <*lat*. totalis] *sif.* – siyasi rejim olan totalitarizmə aid. *"Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial ədalətdən heç əsər-əlamət də qalmayacaq, halbuki uzun illər boyu imperiya boyunduruğu və* ***totalitar*** *rejimi altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır."*(Azərbaycan ziyalılarının yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi barədə Heydər Əliyevə müraciətləri. 16 oktyabr 1992-ci il).

**TOTALİTARİZM** [*rus.* тоталитари́зм < *fr*. totalitaire <*lat*. totalis, totalitas "bütövlük, tamlıq"] *is.* – ictimai və şəxsi həyatın bütün aspektləri üzərində dövlətin mütləq (ümumi) nəzarətini nəzərdə tutan siyasi rejim. *Siyasi müxalifətin olması hər bir dövləti həm* ***totalitarizm****dən xilas edir, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayır. "****Totalitarizm****dən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür."* (Heydər Əli-

yevin Azərbaycan ziyalılarının müraciətinə cavabı. 24 oktyabr 1992-ci il).

**TÜRKİYƏ** *xüs.is.* – torpaqlarının əsas hissəsi Qərbi Asiya regionunun Kiçik Asiya yarımadasında, çox kiçik bir hissəsi isə Balkan yarımadasında yerləşən və qitələrarası ölkəhesab edilənTürkiyə Cümhuriyyəti. *"Amerika Birləşmiş Ştatlarından Energetika nazirinin müavini cənab Uaytın başçılığı ilə böyük bir nümayəndə heyəti, İngiltərənin energetika naziri cənab Eqqar başda olmaqla nümayəndə heyəti,* ***Türkiyə****nin dövlət naziri Nəcməddin Cövhərinin rəhbərliyi ilə nümayəndə heyəti, Norveç energetika nazirinin müavini başda olmaqla nümayəndə heyəti gəlmişdi."*(Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə çıxışı. 26 sentyabr 1994); *"Təbii ki, biz bütün qonşu ölkələrlə, məsələn,* ***Türkiyə*** *ilə dostluq münasibətlərinin yaradılmasına tərəfdarıq. Bu münasibətlər əvvəl də yaxşı idi, mənim* ***Türkiyə****yə səfərim və imzaladığım müqavilə isə münasibətlərimizi daha da möhkəmlətdi."* ("Rossiyskaya qazeta"nın müxbirinə müsahibəsi (18 iyun 1994).

# U

**UNİTAR** [*lat.* unitas "birlik"] *sif.* – birləşmiş, vahid. □ **Unitar dövlət** – tərkibinə suverenlik elementlərinə malik olan başqa dövlət qurumlarının daxil olmadığı və onun tərkib hissəsi olan inzibati-ərazi vahidlərinin (rayonlar, ərazilər, rayonlar, əyalətlər və s.) vahid mərkəzi hakimiyyətə tabe olduğu dövlət idarəetmə forması. *"Bəziləri bu maddənin əhəmiyyətini dərk etmədən, bu işə səthi yanaşaraq, formal nöqteyi-nəzərdən münasibət göstərərək belə fikir söyləyirlər ki, Azərbaycan* ***unitar dövlət****dir,* ***unitar dövlət****in içərisində muxtar respublika bir dövlət kimi ola bilməz."* (Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışı. *10 noyabr 1995*); *"Dünya praktikasına baxdıq.* ***Unitar dövlət****lərin və demokratiya sahəsində çox inkişaf etmiş Avropa dövlətlərinin tərkibində muxtar qurumların dövlət kimi olmasını bir daha oxuduq, öyrəndik."* (Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında çıxışı. *10 noyabr 1995*).

# Ü

**ÜÇTƏPƏ** *xüs.is.* – Gəncə şəhəri yaxınlığında yerləşən yaşayış sahəsindəki bağ evinin adı. *"**Üçtəpə** haqqında söz gedir. Bu **Üçtəpə** nədir? Vaxtilə orada olan divizıyanın komandirinin iqamətgahı idi, yəni bağ evi idi. Bundan sonra həmin bağ evini Surət Hüseynov əlinə keçirdi."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**ÜMUMPARTİYA** *is.* – bütün partiyaya aid olan. Burada: Kommunist Partiyasına aid olan. *"Leonid İliç demişdir: "Keçən illər ərzində yaradıcı ziyalıların fəaliyyəti daha da genişlənmişdir, onlar kommunizm cəmiyyəti qurmaq kimi **ümumpartiya** işinə, ümumxalq işinə getdikcə daha sanballı xidmət göstərirlər".* (SSR İttifaqı böyük teatrın 200 illiyinə həsr olunmuş təntənəli iclasda nitqindən. 27 may 1976-cı il).

**ÜMUMİTTİFAQ** *is.* – keçmiş SSRİ ərazisi. *Bu əsərlər Balaş Azəroğluna **Ümumittifaq** şöhrəti qazandırmışdır."* (Azərbaycanın xalq şairləri Süleyman Rüstəm və Balaş Azəroğluna mükafatların təqdimatı mərasimində nitqi. 10 dekabr 1981-ci il).

**ÜMUMRESPUBLİKA** *sif.* – bütün respublikaya aid. *"Bəzən ayrı-ayrı qrupların, dairələrin mənafeyi **ümumruspublika**, ümumxalq mənafeyindən üstün tutulur. Ona görə də biz bu sahələrdə istənilən nəticəni əldə edə bilmirik."* (Prezident sarayında bank-maliyyə, tədiyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyətinə və onu yaxşılaşdırmaq sahəsində vəzifələrə həsr olunmuş ümumrespublika müşavirəsində çıxışı. 19 noyabr 1993).

**ÜZ-ÜZƏ DURMAQ** – münaqişə mövqelərində olmaq, düşmən olmaq. *"Biz* [Ermənistan və Azərbaycan] ***üz-üzə dürmüşuq**, amma eyni vəziyyətdə deyilik."* (Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumruspublika müşavirəsində nitqi. 19 noyabr 1994).

# V

**VƏTƏN** *is.* – bir adamın doğulub boya-başa çatdığı və vətəndaşı olduğu məmləkət, ölkə, doğma yurd, ana yurd. *"Bu, bizim ümumi problemimizdir. Azərbaycan xalqının, Azərbaycan Respublikasının və **vətən**i, torpağı haqqında düşünən hər bir azərbaycanlının başına gələn bəladır."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994); *"Ancaq təəssüflər olsun ki, 1988-ci ildə başlanmış proseslərdə – xalqın əksər hissəsinin sağlam əhval-ruhiyyədə, **vətəni**ni, torpağını qorumaq əzmində olduğu bir vaxtda xalqın içərisində bu dövrün, şəraitin, proseslərin imkanlarından istifadə edərək öz şəxsi məqsədlərinə nail olmaq istəyənlər vardır."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**VƏTƏNDAŞ** *is.* – bir dövlətin daimi əhalisinə mənsub olan, konstitusiyanın verdiyi bütün hüquqlardan istifadə edən, konstitusiya ilə müəyyən edilmiş bütün vəzifələri yerinə yetirən şəxs.*"Azərbaycan Respublikasının ərazisində olan hər bir **vətəndaş** milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır."* (Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxışı. 15 iyun 1993).

**VƏTƏNDAŞLIQ** *is.* – **1.** İnsanla dövlət arasında onların qarşılıqlı hüquq, vəzifə və məsuliyyətlərinin məcmusunda ifadə olunan hüquqi münasibət.*"Prezidentin, demək olar ki, bütün vəzifələrinin Ali Sovetinin sədrinə həvalə edilməsi haqqında fərmanı da elə onun özü imzalamış, öz fərmanında yalnız* ***vətəndaşlığ****a qəbul və qanunların imzalanması hüquqlarını özündə saxlamışdır."*("Ostankino" Dövlətlərarası Televiziya şirkətinə müsahibəsi. 6 iyul 1993).

**2.** Həqiqi vətəndaşa aid və xas olan. *Vətəndaşlıq mövqeyi. Vətəndaşlıq qayəsi. Vətəndaşlıq cəsarəti. Vətəndaşlıq hünəri. Vətəndaşlıq ruhu."Böyük Leninin şagirdi və silahdaşı A.V.Lunaçarskinin bu qısa, lakin dərin mənalı kəlamında sosialist inqilabının teatr sənətinə münasibətinin mahiyyəti ifadə edilmiş, habelə teatrın* ***vətəndaşlıq borcu*** *qeyd olunmuşdur."*(Azərbaycan Dram Teatrının 100 illiyi yubiley mərasimində nitqi. 31 may 1974-cü il); *"O* [C.Cabbarlı] *öz yaradıcılıq və* ***vətəndaşlıq qayəsi****ni sovet yazıçılarının birinci qurultayının tribunasından bütün ölkəyə bəyan edərək demişdir:"Sovet yazıçısının məqsədi böyük quruluşumuzu əks etdirmək, öz həmvətənlərini və qəhrəmanlarını yeni qələbələr üçün səfərbərliyə almaqdır".* (Cəfər Cabbarlının abidəsinin açılışında nitqi. 22 mart 1982-ci il); *"Beləliklə, sənətkarlar öz* ***vətəndaşlıq mövqeləri****ni ifadə edərək cəsarətlə parlaq bədii əsərlər yaradırlar."* (Qoy ədalət və zəfər çalsın. "Literaturnaya qazeta"ya müsahibəsi. 18 noyabr 1981-ci

il); *"**Vətəndaşlıq cəsarəti**nin timsalı olan bu əsər Azərbaycan ədəbiyyatında böyük hadisə idi. Azərbaycan hüdudlarından uzaqlarda da demokratik ictimaiyyət onu rəğbətlə qarşıladı."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il); *"Çox çətin, həyat üçün təhlükəli şəraitdə Cəlil Məmmədquluzadə, Sabir və başqaları dini, onun xadimlərini qorxu bilmədən ifşa edirdilər, xalqın şüurunu oyadırdılar, həqiqətən böyük **vətəndaşlıq hünəri** göstərirdilər."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il); *"Bəstəkarlarımızın son illərdə yaratdıqları bir çox mahnılarda **vətəndaşlıq motivləri**, əsil coşqunluq yoxdur. Bu mahnılar üçün meşşan sentimentallığı, kədər, mətn bəsitliyi səciyyəvidir."* (İdeoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında 1971-ci il oktyabrın 29-da Azərbaycan KP MK plenumunda məruzəsi. 29 oktyabr 1971-ci il); *"Onun gözəl əsərləri bəstəkarın yalnız özünə xas olan əlvan musiqi boyaları ilə, Qarayev koloriti ilə, yüksək ideyalılığı, həqiqi **vətəndaşlıq ruhu** ilə fərqlənir, bu əsərlər professionalizm zirvələridir."* (Qara Qarayevin dəfn mərasimində nitqi. 18 may 1982-ci il).

**VƏTƏNDAŞ MÜHARİBƏSİ** – ölkə daxilində siyasi, etnik, sosial narazılıq və s. zəmində müxtəlif dəstələr arasında baş verən və əhalinin əksər hissəsini əhatə edən müharibə. *"Nəhayət, 1993-cü ilin iyun ayında Azərbaycanda kritik vəziyyət yaranmışdı, yəni **vətəndaş mühari-***

***bəsi*** *başlanmışdı və Azərbaycan parçalanırdı."*("Nyu-York tayms" qəzetinin redaksiya heyətinin üzvləri ilə görüşdə söhbəti. 16 fevral 2000).

**VİTSE-PREZİDENT** *is.* – prezidentinin müavini, prezidentdən sonra ikinci adam. *"Orada Amerika Birləşmiş Ştatlarının* ***vitse-prezident****i cənab Albert Qor ilə də görüşdüm."* (Azərbaycan Milli Televiziyası və Radiosu ilə çıxışı. 22 sentyabr 1994).

# Y

**YARAMAZ QÜVVƏLƏR** – burada: dövlətin maraqlarını öz mənafeləri üçün qurban verən qanunsuz qruplaşmalar. *"Ancaq bəzi **yaramaz qüvvələr**, Azərbaycan xalqını ləkələyən qüvvələr meydana çıxıb, hətta özlərini xalq qəhrəmanı, milli qəhrəman, azadlıq uğrunda mübarizənin aparıcı qüvvələri kimi qələmə veriblər."* (Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

**YAZOV** [*rus.* Дми́трий Тимофе́евич Я́зов] *xüs.is.* – Dmitri Timofeyeviç Yazov (1924-2020). SSRİ Müdafiə Naziri (1987-1991). Sovet İttifaqının marşalı (28 aprel 1990). *"Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri **Yazov**, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər."*(Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 20 noyabr 1990-ci il); *"Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olubdur ki, marşal **Yazov** gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edibdir."*(Naxçıvan Mux-

tar Respublikası Ali Məclisinin sessiyasında çıxışı. 20 noyabr 1990-ci il).

**YEKUN AKTI** – b a x **Helsinki (Yekun) Aktı.** *"Mən ATƏM-in üzvü olan dövlətlərin hörmətli başçılarına müraciətlə xahiş edirəm ki, bu işdə fəal iştirak etsinlər, mənim xalqımı, milyonlarla adamı ağrı-acıya, iztirablara məruz qoyan altı illik müharibənin alovunu söndürməyə kömək etsinlər, bununla da Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin **Yekun aktı**nın ümdə prinsiplərinin həyata keçməsinə imkan açsınlar."* (ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışı. 6 dekabr 1994).

**YELTSİN** [*rus.* Бори́с Никола́евич Е́льцин] *xüs.is.* – Boris Nikolayeviç Yeltsin (1931-2007). SSRİ-nin və Rusiyanın dövlət və siyasi xadimi, 1991-1999-cu illərdə Rusiya Federasiyasının xalq tərəfindən seçilmiş ilk prezidenti olmuşdur. *"Mən B.**Yeltsin** və V.Çernomırdinlə, digər rəsmi şəxslərlə görüşmüşəm, biz bir sıra mühüm sənədlər imzalamışıq, MDB-yə daxil olmuşuq."*("Rossiyskaya qazeta"nın müxbirinə müsahibəsi. 18 iyun 1994).

**YENİ AZƏRBAYCAN PARTİYASI** *xüs.is.* – 1992-ci il noyabrın 21-də Azərbaycanın bütün bölgələrindən gəlmiş nümayəndələrin iştirakı etdiyi və Heydər Əliyevin sədrliyi altında Naxçıvanda keçirilən konfransda tə-

sis edilmiş partiya. Yeni Azərbaycan Partiyasının yaradılması ideyası ilk dəfə 1990-cı ildə Azərbaycanın 91 nəfər ziyalıları və tanınmış insanlarının imzası ilə o zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyevə ünvanlanmış məktubda irəli sürülmüşdür. *"Ondan əvvəl **Yeni Azərbaycan Partiyası** Opera və Balet Teatrında Milli Qurtuluş gününün 10 illiyinə həsr olunmuş bayram keçirmişdir."* (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müşavirədə çıxışı. 16 iyun 2003-cü il).

**YUBİLEY** [*rus.* юбилéй <*lat.* Jubilaeus < *qəd.ivr.* יובל yovel] *is.* – bir şəxsin və ya qurumun fəaliyyətinin ildönümünün qeyd edilməsi (dəyirmi və çoxlu sayda ifadə olunur); *"Bəli, Məhəmməd Füzulinin 500 illik **yubiley**i Rusiyanın paytaxtı Moskvada keçirildi. Bu da Azərbaycanın təbliğ olunması üçün, onun doğrudan da müstəqil dövlət olması üçün böyük bir hadisədir. Mən oradakı çıxışımda dedim, vaxtı ilə Moskvada belə **yubiley**ləri çox keçirmişik. Ancaq bu, Sovet İttifaqı vaxtında idi. İndi, müstəqil Azərbaycan Respublikasının dahi şairi Məhəmməd Füzulinin **yubiley**i başqa bir ölkədə, Rusiyanın paytaxtı Moskvada keçirildi."*(Yeni Azərbaycan Partiyası yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilmiş ümumrespublika müşavirəsində nitqi. 19 noyabr 1994).

# Z

**ZAQAFQAZİYA SOVETLƏR QURULTAYI** – 1922-ci il martın 12-də yaradılmış Cənubi Qafqazın 3 respublikasının (Azərbaycan, Gürcüstan, Ermənistan) daxil olduğu Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqının (ZSSRFİ) parlamenti. *"1922-ci ilin dekabrında Bakının indi toplaşdığımız bu salonunda birinci **Zaqafqaziya Sovetlər qurultayı** oldu. Qurultay Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının yaradılması və onun SSR İttifaqına daxil olması haqqında qərar qəbul etdi."* (Nəriman Nərimanovun 100 illik yubiley mərasimində məruzəsi. 29 iyun 1972-ci il).

**ZƏHMƏTKEŞ KÜTLƏLƏR** b a x **zəhmətkeşlər**. *"Azərbaycan yazıçılarının geniş **zəhmətkeş kütlələr**i ilə əlaqəsi xeyli möhkəmlənmişdir."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il).

**ZƏHMƏTKEŞLƏR** *is.* – fəhlə sinfi, proletariat. SSRİ dövlətinin yeganə və hakim sinfi. *"İzn verin, qardaş müttəfiq respublikaların elm və maarif nümayəndələrini sizin adınızdan və bütün Azərbaycan **zəhmətkeşlər**i adından hərarətlə, qardaşcasına salamlayım və "Xoş gəlmişsiniz!" – deyim."* (Azərbaycan Dövlət Universitetinin 50 illiyinə

həsr edilmiş təntənəli yığıncaqda nitqi. 1 noyabr 1969-cu il); *"Qurultayın qərarları bütün sovet respublikalarının, o cümlədən Azərbaycanın **zəhmətkeşləri** qarşısında iqtisadiyyatın, mədəniyyətin, xalq rifahının daha böyük yüksəlişi üçün aydın üfüqlər açdı."* (Azərbaycan yazıçılarının V qurultayında nitqi. 1 iyun 1972-ci il).

**ZƏRBƏ** [*ər.* ضربه] *is. məc.* – burada: Azərbaycan dövlətçiliyinə və xalqına qarşı yönəldilmiş zərər gətirici fəaliyyət. *"Belə bir zamanda, belə günlərdə cinayətkar dəstələrin, cinayətkar qrupların – bu fürsətlərdən öz şəxsi mənafeləri üçün istifadə etmək istəyənlərin fəaliyyəti Azərbaycana çox **zərbə**lər vurubdur. Bu, bəlkə də erməni işğalçılarının vurduğu **zərbə**lər kimi **zərbə**lərdir."*(Ümumxalq nümayəndələri toplantısında giriş və yekun sözü. 28 noyabr 1994).

## İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2006, 744 səh.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2006, 792 səh.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2006, 672 səh.
4. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. Bakı, "Şərq-Qərb", 2006, 708 səh.
5. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin nitqlərindən, məruzələrindən, çıxışlarından, müsahibələrindən seçmələr 1969 (noyabr) -1982 (oktyabr). Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. 1969-82.pdf
6. Azərbaycan Respublikasının Prezidenti: nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. 1995.pdf
7. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. 2000.pdf
8. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 1989 (noyabr) – 1993 (iyun). Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. Pdf. https:// www.scribd.com/ document/494283387/f3-2

9. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. 1993-cü il.pdf
10. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI. 1994-cü il.pdf
11. Politologiya. İzahlı lüğət. Bakı, "Şərq-Qərb", 2007, 352 səh.
12. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 səh.

# MÜNDƏRİCAT

Ön söz ..... 3
Müəllifdən ..... 8
Lüğətin quruluşu ..... 11
İxtisarlar ..... 14

A ..... 15
B ..... 39
C ..... 61
Ç ..... 62
D ..... 68
E ..... 101
Ə ..... 108
F ..... 114
G ..... 118
H ..... 121
X ..... 131
İ ..... 136
K ..... 146
Q ..... 158
L ..... 166
M ..... 173
N ..... 185
O ..... 192
Ö ..... 195
P ..... 197

R ..... 202
S ..... 209
Ş ..... 237
T ..... 239
U ..... 255
Ü ..... 256
V ..... 258
Y ..... 262
Z ..... 265

Ədəbiyyat ..... 268

**XƏDİCƏ HEYDƏROVA**

# HEYDƏR ƏLİYEVİN SİYASİ DİLİNİN LÜĞƏTİ

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

Buraxılışa məsul: **Könül Mirzəyeva**
*Elmi nəşrlər şöbəsinin müdiri*

**Dizayner:** **İbrahim Heydərli**

**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 29.11.2023
Şərti çap vərəqi 17 Sifariş № 568
Kağız formatı 60x84 1/16. Tiraj 300
**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4